MahadSunnah

MAHADSUNNAH.COM

# Hər bir siravi üçün mühüm dərslər

# الدروس المهمة لعامة الأمة

اللغة الأذرية

Azərbaycan dili

Tərcümə edən: İlqar Eyvazoğlu

**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

ALSARHAAN.COM

# Hər bir siravi üçün mühüm dərslərin şərhi

Böyük alim İbn Bazın risaləsi
-Allah rəhmət eləsin və yerini cənnət eləsin-

Şeyx Heysəm bin Muhəmməd Cəmil Sərhan
Tərəfindən hazırlanıb
O, Peyğəmbər Məscidindəki Əl-Haram İnstitutunun keçmiş müəllimi və http://attasseel-alelmi.com internet saytının nəzarətçisidir

Allah onu, ata-anasını və bu kitabın hazırlanmasında yardım edən hər kəsi bağışlasın

Tərcümə etdi: İlqar Eyvazoğlu

**Bu kitab vəqfdir, Satılmır**
**O, Fatimə bint Ceylali ibn Farihanın - Allah ona rəhmət etsin və onu Cənnət bağlarına daxil etsin - hesabına çap edilmişdir.**

Birinci nəşr

Müəllif nəzərdən keçirdikdən sonra onu pulsuz yaymaq üçün çap etmək və ya tərcümə etmək istəyənlər istisna olmaqla, bütün hüquqlar qorunur.

Zəhmət olmasa əlaqə saxlayın:

islamtorrent@gmail.com

İnformasiya Nazirliyinin icazəsi

# Müəllifin müqəddiməsinin şərhi

İbn Baaz – Allah ona rəhmət eləsin - dedi:

Həmd olsun aləmlərin Rəbbi olan Allaha və xeyirli aqibət Allahın itaətkar qulları üçündür. Allahın salavatı və salamı Onun qulu və Elçisi Peyğəmbərimiz Məhəmmədə, onun bütün ailəsinə və səhabələrinə olsun.

Beləliklə, bunlar sadə insanların İslam dini haqqında bilməli olduğu bəzi şeyləri izah edən qısa sözlərdir, mən bunu:“**Hər bir siravi üçün mühüm dərslər”** adlandırdım,

Və Allahdan müsəlmanlara bununla fayda verməsini və onu məndən qəbul etməsini istəyirəm, Həqiqətən O, Səxavətli və Əliaçıqdır.

Abdul Əziz İbn Baz (Allah ona rəhmət eləsin)

## Niyə biz bu Mühüm Dərsləri öyrənirik?

Çünki bunlar alimlərin onları öyrənməyi bizə tövsiyə etdiklərinə görə və müəllifin də qeyd etdiyi kimi mühümdir. Əgər kimsə desə ki “Onlar vacibdir bəli, amma yeni başlayanlar üçün, mənə yox, mən elm tələbəsi olduğum üçün mənim səviyyəm adi müsəlmanlardan yüksəkdir”.

Cavab: Biz ondan bu haqda soruşuruq, əgər bilmirsə, ümumi camaat ondan daha yaxşıdır. Tələbə təvazökar olmalı, elm və alimlərə qarşı təkəbbürlük göstərməməli, Rəbbani alimlərin yolu ilə getməlidir. Buxaridə gələn rəvayətdə Mücahid demişdir: “Utanan və təkəbbürlü şəxs elm ala bilməz.

### Mühüm dərslər nələri ehtiva edir?

1. Saleh sələflərin Quranı oxuması, əzbərləməsi, mənaları üzərində düşünməsi və ona əməl etməsi üsulu.
2. İslam, iman, ehsan, tövhid və şirkin növlərinin izahı.
3. Namazın izahı.
4. Dəstəmazın izahı.
5. İslami ədəblərə və şəriətin əxlaqına riayət etmək.
6. Şirkdən və asiliklərin hər bir növündən çəkindirmək.
7. Ölən insanın hazırlanması, cənazə namazının qılınması və dəfn edilməsi.

### Nə üçün alimlər kitablarına bəsmələ ilə başlayırlar?

1. Əziz olan kitabdan, peyğəmbərlərdən və elçilərdən nümunə götürdüklərinə görə.

2. Hədisdə gəldiyi üçün: Allahın zikri ilə başlanmayan hər bir əhəmiyyətli söz və ya məsələ qırıqdır.

Baxmayaraq ki bu hədis zəifdir

3. Sələf alimlərindən (Allah onlara rəhmət etsin) nümunə götürdüklərinə görə.

4. Uca Allahın adı ilə başlamaqda xeyir və bərəkətin olduğuna görə.

# Birinci dərs

**Əl-Fatihə (Açılış) surəsi və bəzi qısa surələr**

Fatihə surəsi və mümkün olan Zəlzələ surəsindən Nəs surəsinə kimi qısa surələr, onları oxumağı öyrətmək və səhfləri düzəltmək, əzbərlətmək və başa düşülməli vacib olanı izah etmək.

## Açıqlama

Əzbər, (sələflərin etdiyi kimi) hər gün on ayə ilə olmalıdır, bununla birlikdə Əs-Sədinin (Allah ona rəhm etsin) təfsiri kimi qısa şərhli təfsir oxumaq, Allahdan kömək diləmək və bunlara əməl etmək.

**Elm tələbəsi hansı Quran təfsiri ilə başlamalıdır?**

Tələbəyə, Əs-Sədinin (Allah ona rəhmət etsin və onu bağışlasın) "Təysir Al-Kərim Ar-Rahman Fii Təfsir Kələəm Al-Mənnəən" adlı Quranın təfsiri ilə başlaması tövsiyə olunur.

Niyə?

- Alimlərin bunu tövsiyə etdiyinə və buna böyük diqqət göstərdiklərinə görə
- Bu qısadır və buna görə də yeni başlayanın oxuması üçün münasibdir.
- Onun ifadələri asan və aydındır; heç bir qaranlıq yoxdur.
- Allahın köməyi ilə Qurana əməl etməyə kömək etdiyi üçün.
- Müəllif (Alla ona rəhm etsin) Allahın tövhidinə diqqət verir.

**Quranla bağlı insan tipləri:**

İnsanlar Quranla bağlı iki və orta dəstəyə bölünürlər:

### Orta yol tutmaq

Oxuyurlar, əzbərləyirlər, düşünürlər və ona əməl edirlər. Bu, Sələf alimlərinin və onların davamçılarının yoludur

### Həddi aşmaq

Bu qism düşünmədən və əməl etmədən quranı oxuyur və əzbərləyirlər.

### Səhlənkar

Bu qism Quranı tərk edir

Bu da bunlarla olur:

- Oxumağı tərk etmək
- Əzbəri tərk etmək
- Düşünərək oxumamaq
- Ona əməli tərk etmək
- Onunla müalicəni tərk etmək

Uca Allah buyurur: **“Peyğəmbər dedi: “Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etdi”.** (Furqan surəsi : 30). Peyğəmbər (ASllahın ona salavatı və Salamı olsun) demişdir: “Bu şəxsin nəslindən elə insanlar çıxacaq ki, Quran oxuyacaqlar, lakin o, onların boğazından keçməyəcək (yəni başa düşməyəcəklər). Müsəlmanları öldürəcəklər və bütpərəstləri rahat buraxacaqlar. Onlar ox yayından çıxdığı kimi İslamdan çıxacaqlar. Əgər onlara çatsam, Ad qövmünün öldürüldüyü kimi onları öldürəcəyəm”. ( Buxari 3610 və Muslim 1064 ).

**Abdu-Rrahman Əs-Sədinin (Allah ona rəhmət etsin) “Təysir Al-Kərim Ar-Rahman Fii Təfsir Kələəm Al-Mənnəən” əsərindən seçmələr və bununla bağlı suallar, ['Fatihə' "Açılış" surəsinin şərhi ] Makkədə nazil olmuşdur.**

---

**1. Rəhman və Rəhim olan Allahın adı ilə! 2. Həmd (şükür və tərif) Allaha məxsusdur – aləmlərin Rəbbinə, 3. (Bu dünyada hamıya) mərhəmətli , (axirətdə isə ancaq möminlərə) rəhmli olana, 4. Haqq-hesab (qiyamət) gününün sahibinə! 5. Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! 6. Bizi doğru (düz) yola yönəlt! 7. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!**

---

**(1)** Bunun mənası: Uca Allahın hər bir adı ilə başlayıram. Bu, “**İsim**” sözü tək və bitişik formada olduğu üçün; Allahın bütün gözəl və kamil adlarını ehtiva edir. "**Allah**", O, ibadət edilən və ilahilik sifətlərinə görə ibadət üçün seçilməyə layiq olan məbuddur, bu da, kamillik sifətləridir. **"Rəhman və Rəhim olan"**. Bu, Uca Allahın hər şeyi və hər bir canlını əhatə edən böyük və geniş rəhmət sahibi olduğunu sübut edən iki addır. Və onu peyğəmbərlərinə və elçilərinə tabe olan təqvalılar üçün yazdı : Bunlara mütləq mərhəmət verilmişdir və başqalarının isə bundan bir payı vardır. Bilin ki, ümmətin sələf alimləri və imamlarının həmfikir olduqları əsaslardan biri də Allaha və Onun ad və sifətlərinə və onların necə başa düşüləcəyini müəyyən edən hökmlərə iman etməkdir. Beləliklə, məsələn, Onun Rəhman və Rəhmli olduğuna inanırlar; Yəni bu rəhm olunana şamil edilən mərhəmət keyfiyyətinə sahibdir.

Deməli, bütün nemətlər bu rəhmətin nəticəsi sahəsindədir , beləcə bütün adlar belədir

Hər şeyi bilən (Alim) adı haqqında buyurulur: O, Biləndir, hər şeyi bilən elm xüsusiyyətinə malikdir. O, hər şeyə qadirdir, Onu hər şeyə qadir edən qabiliyyət xüsusiyyətinə malikdir.

**(2) " Həmd (şükür və tərif) Allaha məxsusdur ",** Bu: kamillik sifətlərinə və fəzilətlə ədalət arasında gedən əməllərinə görə hər bir halda Allaha həmd etməkdir. **" Aləmlərin Rəbbinə ",** yəni **"Rəbb"** bütün məxluqatı, yəni Allahdan başqa hər şeyi, yəni onları yaratması, onlar üçün vasitələr hazırlaması və onlara çoxlu nemətlər bəxş etməsi ilə qidalandıran və təmin edəndir, Hansıki onlarsız yaşayış mümkün deyil. Beləliklə, onların sahib olduqları hər bir nemət Uca olan Allahdandır.

Uca Allahın məxluqatı tərbiyyə etməsi (yaşatması) iki növdür: Ümumi və xüsusi. Ümumi odur ki, Allahın məxluqatı yaratmasına, onlara ruzi verməsinə və dünya həyatında sağ qalmaq üçün ehtiyac duyduqları hər şeyə yönləndirir. Xüsusi deyiləndə isə, Onun sevdiyi qullarını yaşatması, imanlarını artırması, onları buna müvəffəq etməsi, onu onlar üçün kamilləşdirməsi və tamamlaması, ona təsir edə biləcək hər şeyi ondan uzaqlaşdırması nəzərdə tutulur. Bunun həqiqəti bundadır ki: Onları hər bir xeyirə müvəffəq etmək və bütün şərrlərdən qorumaqdır. Bəlkə də bunun sirri bundandır ki, peyğəmbərlər tərəfindən edilən duaların əksəriyyətində **"Rəbb"** sözünü işlədirlər: onların istədikləri hamısı Onun xüsusi rəbbiliyi altına daxil idi. Onun **"Aləmlərin Rəbbi"** sözü; Yaradan yalnız Odur və nemətlərin verilməsi kimi bütün işlər də Onun tərəfindən tənzimlənir. Bu, həm də Onun Ehtiyacdan Kənar Zəngin olduğunu və yaradılışın hər mənada və hər şəkildə yalnız Ona bütöv və şiddətli şəkildə ehtiyacı olduğunu sübut edir.

**(4) " Haqq-hesab (qiyamət) gününün sahibinə! ". "Malik"** sahiblik keyfiyyətinə malik olan, bunun nəticəsində əmr və qadağa edən, mükafat və cəza verən, rəiyyəti və malı ilə istədiyi şəkildə rəftar edən şəxsdir. Malik sözünü Qiyamət gününə nisbət etdi, çünki qiyamət günü insanın yaxşı və pis əməllərinə görə mühakimə olunacaqlar. Çünki o gün Onun sahibkarlığının, ədalətinin və hikmətinin tamlığı və kamilliyi hamıya bəlli olacaq, və məxluqatın sahibkarlığının sonu olacaqdır.

Bütün padşahlar, vəzirlər, qullar və azad insanlar hamısı eyni olacaq: hamısı Onun əzəmətinə boyun əyəcək, izzəti qarşısında tam təslim olacaq, Onun mükafatını gözləyəcək, mükafatına ümid bəsləyəcək və cəzasından qorxacaqlar. Buna görə də Onu xüsusi vurğuladı, Əks halda, O, Qiyamət gününün və bütün digər günlərin Sahibidir.

5) **" Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! "**, Yəni, biz Səni ibadət etmək və kömək istəmək üçün təkləşdiririk. Yəni bir şeyin əvvəldə zikr edilməsi məhdudlaşdırma (həsr) üsuludur, yəni yuxarıda qeyd olunanları təsdiq etmək və bundan başqa hər şeyi inkar etməkdir. Buna görə də, sanki həmin şəxs "Sənə ibadət edirik, başqa heç nəyə ibadət etmirik", "Səndən kömək diləyirik və heç kəsdən kömək istəmərik" deyir.

Yardım istəməzdən əvvəl ibadətdən bəhs etmək, xüsusidən əvvəl ümumini zikr etmək və Allahın haqqının qulunun haqqından öncə diqqət yetirilməsi lazım olduğunu göstərmək üçündür. İbadət "Allahın sevdiyi və razı qaldığı, zahiri və batini bütün söz və əməlləri özündə cəm edən ümumi bir isimdir". Yardım istəmək, "Uca Allahdan xeyirli olanı əldə etməkdə və zərər verəni aradan qaldırmaqda, istəyənə həqiqətən kömək edəcəyinə əmin olaraq ona etimad etməkdir".

Allaha ibadət etmək və ondan yardım diləmək, bütün şərrlərdən qurtulub əbədi səadətə nail olmaq üçün böyük səbəbdir. Əslində uğura nail olmağın bundan başqa yolu yoxdur. İbadət o vaxt ibadət hesab olunur ki, Allah üçün olsun və Peyğəmbərdən (Allahın ona salavatı və salamı olsun) götürülsün, bu iki məsələ ilə ibadət olur. İbadətdən sonra Yardım diləməyi zikr etdi, baxmayaraq ki, qul bütün ibadətlərində Uca Allahın yardımına ehtiyacı var. Çünki Allah ona yardım etməsə nə Allahın əmirlərini yerinə yetirməkdə və də qadağalarından çəkinməkdə O ibadəti yerinə yetirə bilməz. Sonra Uca Allah dedi:

**(6) " Bizi doğru (düz) yola yönəlt! "** Yəni doğru yola bizə istiqamət ver, müvəffəq et, yönəlt. Bu Allaha və onun cənnətinə aparan açıq-aydın yoldur: Bu da haqqı bilib ona əməl etməkdir. Yəni bizi yola yönəlt və bizi doğru yola yönəlt. Doğru yola yönəlmək İslama gəlmək və bütün digər dinləri tərk etməklə olur. Doğru Yola hidayət, elm və əməl baxımından İslamın bütün təfərrüatlarına hidayəti ehtiva edir. Bu dua bəndə üçün ən əhatəli və ən faydalı dualardan biridir. Elə buna görə də insanın ona olan zəruri ehtiyacından dolayı namazının hər rükətində Allaha bu duanı etməsi vacibdir. Bu Doğru Yol:

**(7) " Nemət verdiyin kəslərin yoluna! "** Peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisalehlərin yoluna. Yəhudilər və başqaları kimi haqqı bilib, lakin onu tərk edən “**Qəzəbə düçar olmuşların**” nə də xristianlar kimi nadanlıq və azğınlıq üzündən haqqı tərk edən **“(haqdan) azmışların (yoluna) yox”**

Bu surə, qısa olmasına baxmayaraq, Quranın heç bir surəsində olmayan məsələləri ehtiva edir. Tövhidin üç qismini özündə cəm edir: *Rububiyyə Tövhidi*, Bu da **“Aləmlərin rəbbi”** sözündən qaynaqlanan Rəbbin bir olmasına işarə edir. *İlahiyyə tövhidi*, Bu da (Allahı ibadətdə təkləşdirməkdir) Bu ayədə olan **"Allah"** sözündən götürülüb **" Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik "**; və *Əsma və sifət tövhidi*, Bu da Uca Allahın özünə nisbət etdiyi və peyğəmbərinin (Allahın salavatı və salamı ona olsun) onun haqqında xəbər verdiyi kamil sifətlərini *ta`til* (yəni inkar), *təmsil* (tay tutmaq) və *tashbih* (bənzətmə) etmədən isbat etmək. Buna **" Həmd (şükür və tərif) Allaha məxsusdur "** kəliməsi dəlalət edir.

Həmçinin **“bizi doğru yola yönəlt”** kəlamı peyğəmbərliyi təsdiq edir, çünki bu hidayət peyğəmbərlik gəlmədən mümkün deyil. Əməlin əvəzini almaq **“Qiyamət gününün sahibi”** kəlamında öz əksini tapır və bu mükafatın ədalətlə bərqərar olacağını təsdiq edir, çünki **“din”** sözünün mənası ədalətə əsaslanan mükafatdır. Və eləcə də bu surə Qədəri isbat etmək və *Qədəri* və *Cəbirilərə* əks olaraq bəndənin həqiqətən də əməl etməsinin lazım olduğunu təsdiq edir. Əslində bu surə Onun **“Bizi doğru yola yönəlt”** kəlamı ilə bütün bidət və zəlalət əhlini təkzib edir, çünki bu, haqqı bilmək və onu tətbiq etməkdir və hər bir bidətçi və azmış şəxs buna ziddir. **“Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik”** kəlamı ilə ibadət və yardım diləmək baxımından dini Allaha xas etməyi əmr edir. Və sonda Həmd (şükür və tərif) aləmlərin Rəbbi olam Allaha məxsusdur.

ΘΘΘ

## Ayətul-kursinin təfsiri

**" Allahdan başqa ibadətə layiq ilah yoxdur! O diridir, bütün məxluqatı idarə edir. O nə mürgüləyər, nə də yuxulayar. Göylərdə və yerdə nə varsa hamısı Onundur. İzni olmadan Onun yanında kim şəfaət edə bilər?! Önlərindəkini (edəcəkləri əməlləri) də, arxalarındakını (etdikləri əməlləri) də O bilir. (Yaradılanlar) Allahın elmindən, Onun dilədiyi qədərindən başqa heç nəyi qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları mühafizə etmək isə Ona çətin deyildir. Ən uca və ən böyük olan da Odur! "**

---

**(255)** Allah elçisi (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurmuşdur: bu ayə Quranın ən böyük ayəsidir, çünki tövhidi, əzəmətli olmasını və hər şeyi əhatə edən vəsflərin olduğunu ehtiva edir. Allah Özünün **"Allah"** olduğunu bildirir: Yəni, bütün mənalarda ibadət Ona məxsus olandır: Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Yəni Ondan başqa ilahlar və Ondan başqasına olunan ibadətlər batildir. O, **"Diridir"**: Kamil həyatın bütün xüsusiyyətləri Ona məxsusdur. o cümlədən kamil eşitmə, görmə, qüdrət, iradə və Onun zatına aid olan digər sifətlər. O, **"bütün məxluqatı idarə edən"**dir. Bütün fəzilətli sifətlər onun içinə daxil olur, çünki Yaradan, özünü təmin edən və bütün məxluqatına kifayət edəndir.

O, Bütün mövcud olanları yaratmış, hər şeyi ruzi, varlıq və yaşamaq üçün lazım olan hər şey ilə təmin etmişdir. Onun kamil həyat və idarəetmə xüsusiyyətlərinə görə, **"O nə mürgüləyər, nə də yuxulayar"** Çünki **Yuxu** və **Mürgü** ancaq acizlik, tükənmə və zəiflik yaşayan məxluqatda olur və bu Əzəmət, Böyüklük və Cəlal sahibində olmur! O bizə Göylərdə və yerdə olan hər şeyin sahibinin Özü olduğunu xəbər verir.

Deməli, hər şey Allahın qulu və bəndəsidir: Bu haldan heç kəs ayrıla bilməz. “**Göylərdə və yerdə olanlar hamılıqla bir qul kimi Rəhmanın hüzuruna gələcəklər**.” (Məryəm surəsi:93). Deməli, O, hər şeyin Sahibidir. O, hökmranlıq , idarəetmə, əzəmət və kibr sifətləri Ona məxsus olandır. Onun tam Sahibkar olduğuna görə, **“Onun izni olmadan heç kəs Onun yanında şəfaət edə bilməz”**. Bütün öndərlər və şəfaətçilər Ona məxsus qullardır. O izn vermədikcə, heç kəs şəfaət edə bilməz: **“De: “Şəfaət bütövlüklə Allaha məxsusdur. Göylərin və yerin hökmranlığı Onundur. Sonra Ona qaytarılacaqsınız”** (Zumər:44). Və Allah razı olduğu kəslərdən başqa heç kəsə şəfaət etməyə icazə verməz və Öz tövhidindən və peyğəmbərlərinə tabe olmaqdan başqa heç bir şeydən razı olmaz. Deməli, Kimin bu xüsusiyyətləri yoxdursa, onun şəfaətdə payı yoxdur. Sonra hər şeyi əhatə edən geniş elmindən danışdı və bildirdi ki, O, məxluqatın qarşısına çıxacaq “**Önlərindəkini (edəcəkləri əməlləri)”** sonsuz gələcəkləri bilir. **Allah xain baxışları və qəlblərin gizlətdiyini bilir.** (Ğafir:19) **“Arxalarındakını (etdikləri əməlləri) də O bilir”** Yəni Keçmişdə həddi-hüdudu olmayan və ondan heç bir sirrin gizli qalmadığı məsələləri, **“Onun dilədiklərindən başqa”** məxluqatın heç biri Allahın elm və məlumatından heç bir şeyi əhatə edə bilməz. Bu, şərii və qədəri məsələlərdə onlara göstərdiyi şeylərdir. Halbuki bu, bütövlükdə, əl-Bəri olan Allahın elmi və məlumatı baxımından çox kiçik məsələdir. Bunu Allahın ən elmli məxluqatı təsdiq edir; Peyğəmbərlər və mələklər. Onlar demişlər: **“Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik.**” (Bəqərə:32). Daha sonra Allah bizə Öz əzəmətini və Cəlalını, **“Onun kürsüsünün göyləri və yeri əhatə etdiyini”** və Allahın göyləri və yeri və onun sakinlərində yaratdığı səbəb və sistemlərlə onları və onlarda olan aləmləri qoruduğunu söylədi. Daha sonra Allah bizə Öz əzəmətini və Cəlalını, **“Onun kürsüsünün göyləri və yeri əhatə etdiyini”** və Allahın göyləri və yeri və onun sakinlərində yaratdığı səbəb və sistemlərlə onları və onlarda olan aləmləri qoruduğunu söylədi.

Buna baxmayaraq, “**Onları mühafizə etmək isə**” onun böyüklüyünün kamilliyinə, qüdrətinə və hökmlərində olan hikmətinin genişliyinə görə “**Ona çətin deyil**” (ağırlıq vermir). “**O, Ən uca**” Yəni Onun nəfsi bütün məxluqatlarından üstündür və sifətlərinin əzəməti ilə ən ucadır, məxluqları özünə tabe etdiyinə görə, varlıqları Özünə təslim etdiyinə görə və inadkarları belə Özünə ram etdiyinə görə ən Ucadır. “**Ən böyük olan da Odur**” Ürəklərin sevdiyi, ruhların pərəstiş etdiyi bütün böyüklük, qürur, izzət və əzəmət sifətlərini özündə cəmləşdirən Odur. Hər kəs bilir ki, hər şeyin əzəməti, hətta bir çoxundan üstün olsa belə, Uca Allahın əzəməti qarşısında azdır.

Aydındır ki, bu qədər gözəl mənalardan ibarət olan bu ayə ona Quranın ən böyük ayəsi olmağa haqq verir. Onu təfəkkür və dərk edərək oxuyan kəs layiqdir ki, qəlbini yəqin, şükür və imanla doldursun və bununla şeytanın şərrindən qorunsun.

ΘΘΘ

## [ Zəlzələ surəsinin təfsiri – Mədinədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Yer şiddətlə titrəyəcəyi zaman. 2. Yer öz yükünü (qəbirdəkiləri, yaxud yeraltı mədənləri) çıxardacağı zaman. 3. Və insan: “Ona nə oldu?” - deyəcəyi zaman. 4. O gün yer şahid olduğu hər şeyi xəbər verəcək. 5. Çünki bunu ona Rəbbin vəhy etmişdir.. 6. O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə (məhşər yerindən) ayrılacaqlar. 7. Kim zərrə qədər yaxşı bir iş görmüşsə, onu (əvəzini) görəcək. 8. Kim də zərrə qədər pis bir iş görmüşsə, onu (əvəzini) görəcəkdir.**

---

**(1-2)** Allah Qiyamət günü baş verəcəklərdən xəbər verir. Və yer üzü zəlzələdən, titrəyişdən və titrəyərək onun üzərində olan binaların və nişanələrin yıxılacağını, dağları dağıdacağını, təpələri hamarlanacağını və oranı boş düzəngaha çevirəyəcəyini orada nə bir eniş nə də bir yoxuş saxlamayacağını xəbər verir.

**" Yer öz yükünü (qəbirdəkiləri, yaxud yeraltı mədənləri) çıxardacağı zaman. "** Yəni orda yatan ölüləri və xəzinələri.

**(3) "Və insan: "Ona nə oldu?" - deyəcəyi zaman."** Yəni İnsanlar onu bürümüş dəhşəti gördükdə: **"Nə oldu?"** deyə qışqıracaqlar, yəni nə baş verdi?! Bu dəhşət nədir?!

**(4-5) "O gün"** yer, yer üzündə etdikləri yaxşılıqlara və pisliklərə görə insanların əleyhinə **"şahid olduğu hər şeyi xəbər verəcək"**. Yer qiyamət günü insanların lehinə və ya əleyhinə şahidlik etmək üçün gətiriləcək şahidlər sırasındadır. Bu da, **"Çünki bunu ona Rəbbin vəhy etmişdir"** ayəsinə görədir, ona öz səthində olanları danışmağı əmr etmişdir və o, Onun əmrinə qarşı çıxmaz.

**(6) O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün dəstə-dəstə (məhşər yerindən) ayrılacaqlar "O gün insanlar qiyamət gününə gələcəklər"** ki, Allah onlara **"səpələnmiş dəstə-dəstə",** bir-birindən ayrı dəstələr halında gəlsinlər ki, **"əməlləri göstərilsin"**, Allah onlara yaxşılıq və pislik etdiklərini göstərsin və onlara hazırladığı Öz mükafatını onlara versin.

**(7-8) " Kim zərrə qədər yaxşı bir iş görmüşsə, onu (əvəzini) görəcək. 8. Kim də zərrə qədər pis bir iş görmüşsə, onu (əvəzini) görəcəkdir "**
Bu, hər hansı bir yaxşılıq və hər hansı bir pislik üçün keçərlidir: yəni əgər insan zərrə qədər əməl görəcəksə və üstəlik, bunun əvəzini alacaqsa, şübhəsiz ki, bundan daha böyük əməllərin əvəzini alacaqdır. Uca Allah buyurur: **"Hər kəsin etdiyi yaxşı əməlləri və pis əməlləri, qarşısında hazır bir vəziyyətdə görəcəyi o gün (qiyamət günü insan), onunla (günahları ilə) özü arasında uzaq məsafə olmasını arzulayacaqdır."** (Ali İmran:30)." Və buyurur: "**Beləcə, etdikləri əməlləri qarşılarında görəcəklər.**" (Kəhf: 49)

Bunda, azacıq da olsa yaxşılığa təşviq etmək və az olsa belə, pislikdən çəkindirmək vardır.

ΘΘΘ

## [Adiyat surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. And olsun tövşüyə-tövşüyə qaçan atlara! 2. And olsun (Nalları ilə daşlardan) qığılcım qoparan atlara! 3. And olsun sübh çağı hücum edən atlara! 4. And olsun toz qopardan atlara! 5. And olsun qoşunun içinə girən atlara! 6. Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur. 7. Əlbəttə, o özü də buna şahiddir. 8. Həqiqətən, o, var-dövləti çox sevir. 9. O bilmirmi ki, qəbirlərdə olanlar (təkrar dirildilib) çıxardılacağı zaman, 10. Qəlblərdə olanlar aşkar ediləcəyi zaman, 11. O gün Rəbbi onlardan xəbərdardır!**

---

**(1)** Allah hər kəs tərəfindən bilinən Öz gözəl dəlillərinə və onlarda olan açıq-aşkar nemətlərə görə atlara and içir. Onlar başqa heyvan növlərinə bənzəməyən bir vəziyyətdə olduqları zaman Allah onlara and içir: **And olsun tövşüyə-tövşüyə qaçan atlara!** Sürətli və güclü bir şəkildə qaçmaq, onların "xırıltılı" nəfəslərini üzə çıxarır, belə sürətli qaçmaq onların xırıltılı səs çıxarmasına səbəb olur.

**(2) " And olsun (Nalları ilə daşlardan) qığılcım qoparan atlara"** hücum etdikləri zaman dırnaqları ilə daşlara basdıqda, dırnaqlarının sərtliyi və möhkəmliyi nəticəsində qığılcımlar çıxır.

**(3) "And olsun"** Düşmənə qarşı **"sübh çağında hücum edən atlara"**, çünki hühum adətən sübh çağında edilir.

**(4-5)** Onların sürətinə görə **"Toz duman qalxır"** onların hücumuna görə düşmən toplaşır **"atlar qoşunun içinə girir"**

**(6)** Bu ayədə and içilən şey: " **Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur** " İnsanlar Allahın onlara verdiyi nemətləri inkar edir. İnsanın təbiəti və xasiyyəti ondan ibarətdir ki, o, borclu olduğu haqqları yerinə yetirmək istəmir, Çox vaxt onları yerinə yetirdikdə, tam yerinə yetirmirlər və ya tələb olunandan kənara çıxmırlar. Çünki insanların təbiəti tənbəllikdir və Onun vəzifələrini yerinə yetirmək əzmi yoxdur; Bu istər malı ilə olsun, istərsə də canı ilə olsun.

Yalnız Allahın hidayət verib bu vəsflərdən, haqqları yerinə yetirmək vəsflərinə keçənlərdən başqa.

**(7) " Əlbəttə, o özü də buna şahiddir "**, Yəni İnsan vəzifələrini yerinə yetirməkdə istəksizliyini bilirsə, bunu inkar etməz və ya rədd etməz, çünki bu açıq-aşkardır. Burda şəxs əvəzliyinin Uca Allaha aid olması da mümkündür, yəni: Qul Rəbbinə qarşı nankordur, Allah da buna şahiddir. Bu, Rəbbi buna şahid olduğu halda, ona şükür etməyənlər üçün şiddətli bir xəbərdarlıq və hədədir.

**(8) "Və onlar"** insanlar **" var-dövləti çox sevir.",** məhz bu sevgi onları Onun vaciblərini yerinə yetirməkdən əl çəkməsinə səbəb olmuşdur. Onlar nəfslərinin şəhvətlərini Rəbbinin razılığından üstün tutmuşlar. Bu, axirətdən qafil olduqları halda dünya həyatına diqqətlərini yönəltdiklərinə görədir.

**(9-10)** Buna görə də onu Qiyamət günündən qorxmağa çağıraraq deyir: **"O bilmirmi ki,"** Yəni o nəfsini bəyənən kəs bilmir ki, **"qəbirlərdə olanlar (təkrar dirildilib) çıxardılacağ"** Yəni Allah ölüləri bir yerə toplayıb diriltmək üçün qəbirlərindən çıxaracaq. **"Qəlblərdə olanlar aşkar ediləcəyi zaman"** Sinələrində gizlədilən xeyir və şər üzə çıxacaq və beləliklə sirr aşkar olacaq və batin də aşkar olacaq və insanların etdiyi əməllərin nəticəsi onların üzlərində açıq-aşkar görünəcək.

**(11)** "O gün Rəbbi onlardan xəbərdardır!" Allah Onların zahiri və batini, gizli və aşkar işlərindən "xəbərdardır" və onların mükafatın verəcəkdir. Hər zaman xəbərdar olduğu halda, "o gün" xəbərdar olduğunu xüsusi qeyd etmişdir; Çünki əməllərin mükafatı ilə nəzərdə tutulan şey Allahın elmindən və xəbərdar olmasından irəli gəlir.

ΘΘΘ

## [Qariə surəsinin təfsiri – Məkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Qorxuya salan (qiyamət)! 2. Nədir o qorxuya salan?! 3. Sən haradan biləsən ki, qorxuya salan nədir?! 4. O gün insanlar səpələnmiş kəpənəklər kimi olacaqlar. 5. Dağlar isə didilmiş rəngli yun kimi olacaqdır. 6. (O gün) kimin (yaxşı əməl) tərəzisi ağır gələrsə, 7. O, razı qalacağı bir həyat sürəcəkdir. 8. Kimin (yaxşı əməl) tərəzisi yüngül gələrsə, 9. Onun anası (sığınacağı yer) Haviyədir. 10. Sən haradan biləsən ki, Haviyə nədir?! 11. O, qızmar bir oddur.**

**(1-3) " Qorxuya salan (qiyamət)!** " Qiyamət gününə verilən adlardan biridir. İnsanları qorxuya salıb, dəhşətləri ilə narahat etdiyi üçün belə adlandırılıb. Məhz buna görə də, Allah o günün əzəmətini və şiddətini soruşaraq vurğulamışdır: **"Qorxuya salan (qiyamət)! Nədir o qorxuya salan?! Sən haradan biləsən ki, qorxuya salan nədir?!**"

**(4) "O gün insanlar…"**, qorxu və dəhşətin şiddətindən,**"səpələnmiş kəpənəklər kimi olacaqlar.**", Bu kəpənəklər gecə vaxtı olur, hara getdiklərini bilmədiklərinə görə, səpələnərək bir-birinə dəyirlər. Sonra od yandırıldıqda onun təhlükəsini dərk edə bilməyərək, birbaşa ora daxil olurlar. O gün insanlar ağıl sahibi olsalar da, onların halı belə olacaq.

**(5)** Möhkəm, qüdrətli "**dağlar**"a gəlincə, onlar "**didilmiş rəngli yun kimi olacaqdır**", yəni elə zəif və elə bir ağırlıqda olacaqlar ki, ən kiçik küləyin əsməsi onları uçuracaq. Uca Allah Buyurur: "**Sən dağları görüb onların sabit durduğunu zənn edərsən. Halbuki, onlar buludların keçdiyi kimi keçərlər**." (Nəml:88). Sonra dağlar səpələnmiş toz kimi olacaq və onlardan heç bir iz qalmayacaq. Sonra tərəzi qurulacaq və insanlar iki yerə bölünəcək: xoşbəxt və bədbəxt insanlar.

**(6-7) "(O gün) kimin (yaxşı əməl) tərəzisi ağır gələrsə"** Yəni yaxşı əməlləri pis əməllərindən çox olarsa **"O, razı qalacağı bir həyat sürəcəkdir"** Nemət dolu cənnətlərdə.

**(8-11) " Kimin (yaxşı əməl) tərəzisi yüngül gələrsə",** Onun pis əməllərini üstələyə biləcək yaxşı əməlləri olmazsa **" Onun anası (sığınacağı yer) Haviyədir."** Yəni onun sığınacağı və məskəni Cəhənnəmdir ki, onun da adı Həviyədir (Uçurumdur). O daim orada olacağına görə on Ana adı verilmişdir. Uca Allah buyurur: " **Və deyərlər: "Ey Rəbbimiz, cəhənnəm əzabını bizdən sovuşdur! Şübhəsiz, onun əzabı daimidir.** " (Furqan:65). Və bəziləri deyib ki: Bunun mənası budur ki, onun beyninin nazik dəri təbəqəsi odda bir uçuruma atılacaq, yəni başı üstə oda atılacaqdır. **"Sən haradan biləsən ki, Haviyə nədir?!"** Burda da məsələnin şiddətli olduğu üçün yenidən belə soruşur, sonra cavab verir ki: **"O, qızmar bir oddur "**, Yəni çox istidir, onun temperaturu dünya odundan yetmiş dəfə artıqdır. Biz ondan Allaha sığınırıq.

ΘΘΘ

## [Təkəsur surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Çoxluqla öyünmək sizin başınızı o qədər qatdı ki, 2. Hətta qəbirləri də ziyarət etdiniz. 3. Xeyr! Siz tezliklə biləcəksiniz! 4. Xeyr, xeyr! Siz tezliklə biləcəksiniz! 5. Xeyr! Əgər (həqiqəti) yəqinliklə bilsəydiniz, (belə işlərlə məşğul olmazdınız.) 6. Həqiqətən, siz cəhənnəmi görəcəksiniz. 7. Sonra, şübhəsiz ki, onu öz gözünüzlə mütləq görəcəksiniz. 8. Sonra o gün bütün nemətlərdən mütləq sorğu-sual olunacaqsınız.**

**(1)** Uca Allah bəndələrini şəriksiz tək olan Allaha ibadət etmək, Onu tanımaq, Ona yönəlmək və Onun məhəbbətini hər şeydən üstün tutmaq üçün deyil, yaradılmışlarla məşğul olduqlarına görə məzəmmət edərək buyurur ki,. " **sizin başınızı o qədər qatdı ki "** Yəni yuxarıda qeyd olunanlardan başınızı qatdı, **" Çoxluqla öyünmək** " İnsanların mal-dövlətlə, övladlarla, köməkçilərlə, ordularla, nökərlərlə, məqamlarla və bu kimi qürur duyduqları şeylərlə bir insanın digərini ötməyə çalışması kimi Allah üçün olmayan şeylər qəsd olunub.

**(2)** Beləliklə, sizin qəflətiniz, diqqətsizliyiniz və məşğuliyyətləriniz o vaxta kimi davam etdi ki, **" Hətta qəbirləri də ziyarət etdiniz"**,"

Yəni qəflət pərdəsi üzünüzdən qaldırılacaq, amma o zaman bir şey etmək üçün çox gec olacaq! Bu söz ona işarədir ki: **" Hətta qəbirləri də ziyarət etdiniz "** Bu ayə Bərzəxin, yəni qəbir həyatının, axirət yurduna gedən yolu keçmək məqsədi daşıyan bir müsafir məntəqəsi olduğunu sübut edir. Çünki Uca Allah bu ayədə, ölüləri qəbirlərində ziyarətçi adlandırmış, onlara sakin deməmişdir. Bu, insanın diqqətini daha sonra öldükdən sonra dirilməyə, Qiyamətə və fani olmayan əbədi yurdda əməllərin mükafatının veriləcəyinə işarədir.

**(3-6)** Məhz bu səbəbdən Allah onları qorxudaraq: **" Xeyr! Siz tezliklə biləcəksiniz! Xeyr, xeyr! Siz tezliklə biləcəksiniz! Xeyr! Əgər (həqiqəti) yəqinliklə bilsəydiniz, (belə işlərlə məşğul olmazdınız.) "** Yəni, əgər qarşınızda olanı qəlblərə nüfuz edən bir elmlə bilsəydiniz, çoxluqla öyünmək sizi fikrindən daşındırmazdı; Əksinə, siz yaxşı işlər görməyə tələsərdiniz. Halbuki, həqiqi elmin yoxluğu sizi bu hala gətirmişdir.**"Həqiqətən, siz cəhənnəmi görəcəksiniz "** Yəni Qiyaməti görəcəksiniz. Beləliklə, Allahın kafirlər üçün hazırladığı cəhənnəmi görəcəksiniz.

**(7)** **" Sonra, şübhəsiz ki, onu öz gözünüzlə mütləq görəcəksiniz "**,” Uca Allahın buyurduğu kimi həqiqi gözlə: **"Günahkarlar cəhənnəm alovunu gördükdə özlərinin ora düşəcəklərini anlayacaqlar. Oradan xilas olmaq üçün bir yol tapa bilməyəcəklər."** (Kəhf:53).
**(8)** **" Sonra o gün bütün nemətlərdən mütləq sorğu-sual olunacaqsınız "**, Dünya həyatında verilən nemətlərdən. Allaha şükür edib, Allahın haqqını yerinə yetirdinmi? Onun nemətlərindən Ona asi olmaq üçün istifadə etdinmi? O, bunun qarşısında sizə daha böyük və daha yaxşı nemət bəxş etmədimi? Yoxsa bunlara aldandın, Ona təşəkkür etmədin? Bəlkə də, siz bunları günahlar üçün istifadə etdiniz, buna görə sizə cəza verdi mi? Uca Allah buyuru: **“Kafirlər cəhənnəmin qarşısına gətirildikləri gün (onlara belə deyiləcək): “Dünya həyatınızda sahib olduğunuz nemətlərdən istifadə edib zövq aldınız. Ancaq yer üzündə haqsız yerə təkəbbürləndiyinizə və haqq yoldan çıxdığınıza görə bu gün siz alçaldıcı əzabla cəzalandırılacaqsınız!”** (Əhqaf:20).

ΘΘΘ

[Asr surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. And olsun (Əsrə) axşam çağına!! 2. Həqiqətən, insan ziyan içindədir. 3. Ancaq iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı və səbri tövsiyə edənlər bundan istisnadır.**

**(1-3)** Allah zamana, gecə ilə gündüzün keçməsinə, insanın əməl etdiyi vaxta **"and"** içir: **"axşam çağına"**, **"Həqiqətən, insan ziyan içindədir"**, Ziyan xeyirin əksidir. Ziyanın bir neçə mərtəbəsi var: Tam itki, həm dünyanı, həm də axirətini itirən, əbədi səadəti itirən və əvəzində cəhənnəmə layiq olan itki. İnsan bəzən itirə bilər, bəzən də yox və buna görə də Allah bu itkini dörd xüsusiyyətə malik olan insanlar istisna olmaqla, bütün insanlara şamil etmişdir:

- Allahın iman etməyi əmr etdiyi şeylərə **"iman edənlər"**: iman elmsiz yarana bilməz və kamil ola bilməz və ona görə də bu, elmin bir qoludur.

- **"Saleh əməl"** və bu, həm zahiri, həm də batini, Allahın haqqı və qullarının haqqı ilə bağlı vacib və müstəhəb olan bütün yaxşı əməlləri ehtiva edir. "

- İman və saleh əməl olan **"haqqı tövsiyyə etmək"** ; Yəni bir-birlərinə bunu tövsiyə edir, onları buna sövq edir və buna təşviq edirlər.

- **"Bir-birininə səbri tövsiyyə edənlər"**, Yəni Allaha itaət etməyi, Ona asi olmaqdan uzaq olmağı və Onun insana ağrılı olduğu hökmləri qarşısında səbir etməyi tövsiyə edənlər.

İlk iki məsələ insanı kamilləşdirir, sonrakı iki məsələ isə başqalarını kamilləşdirməyə kömək edir. Bu dörd məsələnin tamamlanması insanı ziyana uğramaqdan qoruyur və bununla uğur qazanır.

ΘΘΘ

[Huməzə surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Hər bir qeybət edən və tənə vuranın vay halına! 2. O, mal-mülk yığar və onu dönə-dönə sayar. 3. O, mal-mülkünün onu əbədi saxlayacağını zənn edər. 4. Xeyr! O mütləq Hütəməyə atılacaqdır. 5. Sən haradan biləsən ki, Hütəmə nədir?! 6. O, Allahın alovlandırılmış odudur. 7. O od (yandıra-yandıra) ürəklərə çatar. 8. Həqiqətən, o od onların üzərini örtəcəkdir. 9. Onlar uzun sütunlara bağlanacaqlar.**

**(1) " Vay halına ",** Yəni: təhdid, müsibət və şiddətli əzab **"Hər bir qeybət edən və tənə vuranın"** Yəni O kəslərin ki, öz əməli ilə insanlara əziyyət verir və sözləri ilə onlara böhtan atır. Ayədə gələn Huməzə sözü, işarə və əməllə insanlaratən edən, Luməzə isə sözü ilə onlara tən edəndir.

**(2)** Bu Əl-Huməzə və Əl-Luməzə - nin xüsusiyyətlərindən biri də budur ki, onun **"pul yığmaqdan və saymaqdan"** və onunla paxıllıq çəkməkdən başqa heç bir marağı yoxdur. Onun xeyirxah işlərdə, qohumluq əlaqələrində və s. həvəsi yoxdur.

**(3) " zənn edər"**, Cahil olduğu üçün **" Onın, mal-mülkünü onu əbədi saxlayacaq"** Bu dünyada. Məhz buna görə də, bütün səyləri və mübarizələri var-dövlətlərini artırmaq üçün sərf edirlər və bununla da ömürlərinin artacağına inanırlar. Onlar bilmirlər ki, xəsislik əslində həyatı məhv edir, evləri yıxır, halbuki salehlik həqiqətən də ömrün uzamasına səbəb olur.

**(4-7) " Xeyr! O mütləq Hütəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hütəmə nədir?!"** Bu, işin ağırlığını vurğulamaq və ondan qorxunu artırmaq üçün soruşulur. Sonra bu sözü təfsir edərək deyir: **" O, Allahın alovlandırılmış odudur ",** hansı ki, oranın yanacağı insanlar və daşlardır, oranın şiddətindən **" O od (yandıra-yandıra) ürəklərə çatar "**, yəni bədənlərini deşib ürəklərini yandırar.

**(8-9)** Və bu şiddətli hərarətə baxmayaraq, onlar orada sıxışıb qalıblar, ordan çıxmaqdan əlini üzüblər, Buna görə də buyurur: **" Həqiqətən, o od onların üzərini örtəcəkdir ",** Yəni hər tərəfdən bağlanacaqlar , **" Onlar uzun sütunlara."** qapılar arxasında**" bağlanacaqlar "** Oradan çıxmaqlarının qarşısını almaq üçün; " **Onlar hər dəfə oradan çıxmaq istədikdə, ora qaytarılacaqlar** "(Səcdə:20)." Ora düşməkdən Allaha sığınır, Ondan salamatlıq və bağışlanma diləyirik!

---

ΘΘΘ

[Fil surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?! 2. Məgər Rəbbin onların hiyləsini dolaşığa salmadımı?! 3. Onların üzərinə qatar-qatar quşlar göndərdi. 4. O quşlar ki, onların üstünə odda bişmiş bərk gildən daşlar yağdırdı. 5. Onları sanki yeyilmiş əkin yarpağına döndərdi.**

**(1-5) "Rəbbinin fil sahiblərinə nələr etdiyini görmədinmi?!"** Yəni: Allahın qüdrətini, böyüklüyünü, bəndələrinə olan mərhəmətini, tövhidinin dəlillərini və Rəsulu Muhəmmədin (Allahın salavatı və salamı ona olsun) doğru danışdığını görmədinmi? Müqəddəs Evi yıxmaq məqsədi ilə yola düşənlər, Ordularını tam təchiz etdilər və onlara kömək etmək üçün bir fil sürüsü cəlb etdilər və beləliklə, Həbəşistan və Yəməndən ərəblərin dəf edə bilməyəcəyi bir ordu topladılar. Onlar Məkkəyə yaxınlaşdıqda - ərəbləri müdafiə edən heç kəs yox idi və Məkkə əhalisi özlərinə zərər gəlməkdən qorxaraq Məkkəni tərk etdilər -. **" Məgər Rəbbin onların hiyləsini dolaşığa salmadımı?! Onların üzərinə qatar-qatar quşlar göndərdi. ",** Yəni bir-birinin ardınca, **" O quşlar ki, onların üstünə odda bişmiş bərk gildən daşlar yağdırdı.",** Onların hər birini vurmaq, zəiflətmək, yıxmaq və nəhayət öldürmək üçün" **" Onları sanki yeyilmiş əkin yarpağına döndərdi.".** Allah onların şərinə bəs etdi və hiylələrini alt-üst etdi. Və onların hekayəsi hamıya məlumdur. Bu hadisə Allah Elçisinin (Allahın salavatı və salamı ona olsun) doğulduğu ildə baş verdi və onun dəvətindən əvvəlki möcüzələrindən və risalətinin açıq-aşkar dəlillərindən biri oldu. Allaha çoxlu həmd-sənalar olsun.

ΘΘΘ

**[Qureyş surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]**

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Qüreyşin birliyi xətrinə, 2 Onların qış və yay səfərlərindəki birliyi xətrinə, 3. Qoy onlar bu evin Rəbbinə ibadət etsinlər! 4. Allah onlara aclıqdan sonra yemək verdi, qorxudan sonra əmin-amanlıq bəxş etdi.**

**(1-4)** Bu ayəni təfsir edən alimlərin çoxu surənin bu hissəsinin əvvəlki fəsildən davam etdiyini bildirmişlər. Bu halda məna: “Biz fil qövmünə etdiyimizi Qureyş, onların təhlükəsizliyi, faydaları və Yəmənə və Şama gedən qış və yay ticarət karvanlarının olduğu kimi davam etdirməsi, qazanc gətirməsi üçün etdik” demək olardı. Allah onlara zərər vermək istəyənləri məhv etdi. O, Hərəm Evinin məqamını ucaltdı və onun sakinlərinin məqamını ərəblərin qəlbində elə yüksəltdi ki, onlar onun ətrafında yaşayanlara böyük hörmət bəslədilər. Üstəlik, onların istədikləri səfərə çıxmalarına mane olmadılar. Məhz bu səbəblərə görə Allah onlara şükür etmələrini əmr edib demişdir: **“Qoy onlar bu evin Rəbbinə ibadət etsinlər”**, Yəni yalnız Ona ibadət etsinlər və ibadətlərini ixlasla Ona yönəltsinlər. **“Allah onlara aclıqdan sonra yemək verdi, qorxudan sonra əmin-amanlıq bəxş etdi.”** Deməli, rahat ruzi və əmin-amanlıq Uca Allaha şükür etməyi zəruri edən ən böyük dünya nemətlərindəndir. Allahım! Zahiri və batini nemətlərinə görə bütün həmd və şükürlər Sənə məxsusdur! Allah evin Rəbbi olduğunu onun əzəməti və üstünlüyünə görə xüsusi olaraq qeyd edir. Əslində O, hər şeyin Rəbbidir.

ΘΘΘ

**[Məun surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]**

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Dini yalan sayan o kimsəni gördünmü?! 2. O elə adamdır ki, yetimi qovar, 3. Və heç kimi kasıba əl tutmağa sövq etməz. 4. Vay halına namaz qılanların - 5. O şəxslərin ki, onlar namazlarında səhlənkardırlar 6. Onlar riyakardırlar. 7. Və az bir şey verməkdən belə imtina edirlər.**

**(1)** Allah Öz haqqını və qullarının haqqını tərk edən şəxsi məzəmmətləyərək buyurur: **"Dini yalan sayan o kimsəni gördünmü?!"** Yəni ölümdən sonra dirilməyi və mükafatı yalan sayan, O peyğəmbərlərin gətirdikləri dinə iman etmir.
**(2) "O elə adamdır ki, yetimi qovar"** Onu şiddətlə və kobudluqla qovur və ürəyi sərt olduğu üçün ona rəhm etmir. Həm də ona görə ki, o, Allahın mükafatına ümid etmir və cəzadan qorxmur.
**(3) " Və heç kimi kasıba əl tutmağa sövq etməz"** Bundan qabaq heç özü belə kasıblara əl tutmaz.
**(4-5) "Vay halına namaz qılanların"** namaz qılırlar amma **"O şəxslərin ki, onlar namazlarında səhlənkardırlar"** Namaz qılmaqda ləngl ik, namazı vaxtında qılmamaq və rükünlərdən qaçmaq vardır onlarda. Bu ona görədir ki, onlar Allahın əmrlərini lazımınca yerinə yetirmirlər, itaətin ən vacibi olan namazı itirirlər. Namaza olan unutqanlıq məzəmmət və qınağa layiq olandır, namazdakı unutqanlığa gəlincə, bunu hamı edir, hətta Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) edib.
**(6-7)** Məhz buna görə də Allah bu insanları riyakar, kobud və mərhəmətsizliklə təsvir etmişdir: **"Onlar riyakardırlar"** yəni özlərini göstərmək üçün əməllər edirlər **" Və az bir şey verməkdən belə imtina edirlər"** Qab, vedrə, balta kimi istifadə etmək və ya hədiyyə olaraq verilməsində zərəri olmayan bir şeyi verməyi qadağan edərlər. Bu insanlar güclü tamahları səbəbindən daha böyük, daha əhəmiyyətli şeylər bir yana, bunların belə verilməsinə mane olurlar!
Bu surədə yetimə və kasıba yemək vermək və buna təşviq etmək vardır. Eləcə də Namazı yerinə yetirmək və onu qorumaq, namazda və bütün başqa əməllərdə ixlaslı olmaq, xeyir işlərə çağırmaq, xırda işlərdə belə yardımlaşmaq, məsələn, istifadə üçün qablar, vedrələr, kitablar və bu kimi şeylər verməyə rəğbətləndirmək vardır. Çünki Uca Allah bunları etməyən insanlı məzəmmətləmişdir, Allah daha doğrusunu bilir.

ΘΘΘ

[ Kövsər surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Biz sənə kövsəri bağışladıq. 2. Sən də Rəbbin üçün namaz qıl və qurban kəs 3. Doğrusu, sənə ədavət bəsləyənin özü sonsuzdur.**

**(1)** Uca Allah Öz Peyğəmbəri Muhəmmədi (Allahın ona salavatı və salamı olsun) möhkəmləndirərək deyir **"Biz sənə kovsəri bağışladıq**" Yəni: çoxlu xeyir və bol fəzilət, bunların arasında Allahın Qiyamət günü Peyğəmbərinə (Allahın ona salavatı və salamı olsun) bəxş edəcəyi şeylərdən "*Kövsər"*deyilən çay da var. Həmçinin Onun üçün Hovuz vardır, Hovuzun uzunluğu bir aylıq, eni bir aylıq məsafə qədər uzundur, suyu süddən ağ, baldan şirindir, qabları çoxluğu və nuru ilə səma ulduzları kimi çoxdur. Kim ondan içərsə, ondan sonra heç vaxt susuzlamaz.

**(2)** Allah Peyğəmbərinə nemətləri xatırlatdıqdan sonra ona şükür etməyi əmr edər:

**"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs"**. O, bu iki ibadəti, ən üstün ibadət və Allaha yaxınlaşmaq üçün ən fəzilətli əməl olduğu üçün xüsusi olaraq qeyd etmişdir. Çünki namaz qəlbdə və bədən üzvlərində Allaha təslim olmağı və qulluğun bütün növ hərəkətlərini ehtiva edir. Qurban kəsmək isə, qulun kəsə biləcəyi ən gözəl qurbanla Allaha yaxınlaşmaq və nəfslərin sevdiyi və xərcləməyə xəsislik etdiyi malından xərcləməkdir..

**(3) " Doğrusu, sənə ədavət bəsləyənin"**, Sənə nifrət edən, məzəmmətləyən və aşağı görənin **" özü sonsuzdur."**, bütün yaxşılıqların qarşısını alıb; yaxşı işlərdən çəkindirir və xatırlatma etməyə mane olur. Amma Muhəmməd (Allahın ona salavatı və salamı olsun), həqiqətən kamildir, O, məxluqun mümkün kamilliyinə, onun zikrinin yüksəkliyinə, ona yardım edənlər və ona tabe olanların çoxluğuna malik olandır.

ΘΘΘ

## [Kəfirun surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. De: "Ey kafirlər! 2. Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, 3. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. 4. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, 5. Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. 5. Sizin dininiz sizə, mənim dinim də mənədir!".**

**(1-6)** Yəni Kafirlərə açıq və aydın şəkildə de ki: **"Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm"** Yəni: Onların Allahdan başqa ibadət etdiklərini zahirdə və batində inkar edir **" Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz."** Allaha ibadətinizdə ixlassız olduğunuz üçün, şirklə bərabər Ona ibadət etməyiniz ibadət sayılmır. O, bu cümləni təkrar etdi ki, birincisində əməlin olmadığını, ikincisində isə artıq onların vəsfinə çevrildiyini göstərsin. Buna görə də o, iki dəstə arasında fərq qoymuş, iki məzhəbi bir-birindən ayıraraq demişdir: " **Sizin dininiz sizə, mənim dinim də mənədir** ".Siz mənim etdiklərimdən uzaqsınız, mən də sizin etdiklərinizdən. Necə ki Uca Allah buyurur: **"De: "Hər kəs öz xasiyyətinə görə iş görər".** (İsra:84);

ΘΘΘ

## [Nəsr surəsinin təfsiri – Mədinədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Allahın köməyi və qələbə gəldiyi zaman, 2. İnsanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, 3. Həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!**

**(1-3)** Bu şərafətli surə Allah Rəsuluna (Allahın ona salavatı və salamı olsun) O hadisə baş verdikdə müjdə və bir əmr verir. Həmçinin bundan sonra nələrin baş verəcəyinə işarə edərək xəbər verir.

Müjdələr deyildikdə, Allahın öz Rəsuluna (Allahın ona salavatı və salamı olsun) yardım etməsi, Məkkənin fəthi və onun qəbiləsindən və ailəsindən olan bir çoxunun ona qarşı çıxandan sonra **“dəstə-dəstə Allahın dininə”** gəlmələrinin müjdəsidir. Ona müjdə verilən şey baş verdi. Qələbə və fəthdən sonrakı əmrə gəlincə; Allah öz Rəsuluna əmr etdi ki, buna görə ona şükür etsin, Onu həmd-səna ilə təqdis etsin və Ondan bağışlanma diləsin.

**İşarəyə gəldikdə isə, burda iki işarə vardır**: Nə qədər Allah Rəsulundan Allaha həmd, tərif və bağışlanma davamiyyətli olacaq Allahın yardımı o vaxta kimi davam edəcək və artacaq, çünki Allaha şükr belə olur. Uca Allah buyurur: ***“Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram”*** (İbrahim:7). Bu, Raşidi xəlifələrin dövründə və onlardan sonra da bu ümmətdə baş vermişdir. İslam heç bir dinin çatmadığı yerə çatana qədər Allahın qələbəsi davam etdi və İslama daxil olmayanlar da İslama daxil oldular. Nə qədər ki, ümmətin bir qismi Allahın əmrinə xilaf oldular, başlarına çox işlər gəldi, onların sözləri çəp gəldi və işləri tərs getdi və baş verənlər baş verdi. Ancaq buna baxmayaraq, Allah bu millətə və dinə ağlından belə keçməyən mərhəmət və rəhmət göstərdi!

**İkinci işarəyə gəlincə**, bu, Allah Rəsulunun (Allahın ona salavatı və salamı olsun) müddətinin yaxınlaşdığına dəlalət edir və bunun səbəbi onun ömrünün fəzilətli bir dövr olmasıdır ki, Allah ona and içir. İslamda məlumdur ki, məsələn namaz və həccdə gördüyümüz kimi, Allahdan bağışlanma diləməklə şərəfli işlər tamamlanır. Beləliklə, Allah Öz Elçisinə bu halda həmd etməyi və bağışlanma diləməyi əmr etməsi onun vaxtının bitdiyini göstərir. Buna görə də Rəbbinə qovuşmağa hazırlaşsın və azuqə toplasın və əməllərinin ən yaxşısı ilə həyatını başa vursun, Allahın salavatı və salamı ona olsun.
Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) Quranı təfsir edər və namazlarında bunları oxuyardı, rüku və səcdədə çox vaxt belə deyərdi: **“Ey Rəbbimiz Ey Allah sən paksan, Sənə həmd olsun, Allahın məni bağışla”**

ΘΘΘ

[ Məsəd surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. Əbu Ləhəbin əlləri qurusun, qurudu da! 2. Nə var-dövləti, nə də qazandıqları onu qurtara bilməyəcək. 3. O, alovlanan oda atılacaqdır. 4. Onun odun şələsi daşıyan arvadı da. 5. Arvadının boynunda xurma liflərindən kəndir olacaqdır.**

Əbu Ləhəb, Peyğəmbərin (Allahın ona salavatı və salamı olsun) əmisi olub, dini olmadığı, qohumluğa rəğbəti olmadığı üçün ona qarşı düşmən və çox zərərli idi, Allah onu rüsvay etsin. Sonra Allah onu bu böyük elə məzəmmət etdi ki, bu da onun üçün qiyamətə qədər rüsvayçılıq olacaqdır. Uca Allah dedi"

**(1) "Əbu Ləhəbin əlləri qurusun"**, Yəni quruyub şikəst olsun. **"qurudu da!"** Yəni heç bir mənfəət əldə etməsin.

**(2) "Nə var-dövləti, nə də qazandıqları"** Pulu və qazancı onu üsyankar etdi və **"onu qurtara bilməyəcək"** Allahın əzabı ona tətbiq olunduqda onu dəf edə bilməyəcək.

**(3-5) "O, alovlanan oda atılacaqdır"**, Od onu hər tərəfdən əhatə edəcək, O və **"Onun odun şələsi daşıyan arvadı da"** Yəni o da Rəsulullaha (sallallahu aleyhi və səlləm) çox zərər verən biri idi. O və əri günah və düşmənçilikdə bir-birlərinə kömək edirdilər və Ona zərər vermək üçün əllərindən gələni edirdilər .Günahları onun kürəyinə yığılıb, ağırlığını çəkib, eynilə odun daşıyıcı onun kürəyinə odun yığıb, boynuna "**xurma liflərindən kəndir**" ilə bağlayır. Mənası həm də o ola bilər ki, o, əri üçün cəhənnəmdə boynunda xurma lifindən bir kəndirlə odun daşıyacaq.

Hər bir halda, bu surədə Allahın açıq-aşkar möcüzəsi var. Allah bu surəni Əbu Ləhəbin və arvadının ölümündən əvvəl nazil etmişdir. Onlara Cəhənnəmdə qovrulacaqlarını xəbər verdi ki, bu da onların İslamı heç vaxt qəbul etməyəcəkləri deməkdir. Bu, qeybi və aşkarı bilənin bizə xəbər verdiyi kimi baş verdi!

ΘΘΘ

**[ İxlas surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]**

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1. De: "O Allah Təkdir! 2. Allah Möhtac deyildir. 3. O, nə doğub, nə doğulub, 4. Onun bənzəri də yoxdur".**

**(1) "De",** Əminliklə, ona inanaraq və mənasını dərk etdərək, **"O Allah Təkdir"** Təklik yalnız Ona məxsusdur, çünki O, ən gözəl adlara, ən uca və kamil sifətlərə və müqəddəs əməllərə malik olan, misilsizdir və təkdir.
**(2) "Allah Möhtac deyildir"** Yəni: bütün ehtiyaclar bura daxildir, yuxarı və aşağı aləm əhli hamısı Ona möhtacdır, ehtiyaclarını Ondan diləyir, işlərində də köməyə Onu istəyirlər. Çünki O, vəsflərində kamildir, elimli və elmində kamil olan, Həlim və yumuşaqlığında kamil olan, Rəhmli və rəhmətində kamil olandır hansı ki rəhməti hər şeyi əhatə edir. Eyni şey Onun bütün Sifətlərinə aiddir.
**(3)** Onun kamilliyinin bir hissəsi də budur **"O, nə doğub, nə doğulub"**, sərvətinin kamilliyinə görə.
**(4) " Onun bənzəri də yoxdur ",** Nə adlarında, nə sifətlərində, nə də əməllərində, O, Uca və müqəddəsdir.
Bu surə Allahın ad və sifətlər tövhidini ehtiva edir.

ΘΘΘ

**[ Fələq surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]**

**Rəhman və Rəhim olan Allahın adı ilə!. 1 De: "Sığınıram sübhün Rəbbinə! 2. Məxluqatının şərindən, 3. çökən zülmətin şərindən, 4. düyünlərə üfürən (cadugər) qadınların şərindən 5. və həsəd aparan zaman paxılın şərindən!"**
**(1) "De"**, Sığınaraq de **"Sığınıram"** Ona dönürəm, sığınıram və möhkəm yapışıram **"sübhün Rəbbinə"** Yəni toxumu və çərdəyi çatladan, dan yerini sökən.

**(2) “Məxluqatının şərindən”** Bu, Allahın insanlardan, cinlərdən və heyvanlardan yaratdığı hər şeyi əhatə edir; Onlarda olan şərlərdən onun Yaradanına sığınır.

**(3)** Sonra Allah ümumi misallardan sonra xüsusi misallar sadalayır: **“çökən zülmətin şərindən”**, Yəni gecə vaxtı insanları zülmət bürüyərkən, orada çoxlu şər nəfslərin və zərərli məxluqların səpələndiyi zaman baş verənlərin şərindən.

**(4) “düyünlərə üfürən (cadugər) qadınların şərindən”,** Yəni, caduya qoyduqları düyünləri üfürərək sehr edən cadugərlərin şərindən.

**(5) “və həsəd aparan zaman paxılın şərindən”,** Paxıl o kəsdir ki, insanda gördüyü nemətlərin yox olmasını istəyir və onların aradan qaldırılması üçün əlindən gələni edir. Ona görə də onun şərindən Allaha sığınmaq və hiyləsini puça çıxarmaq lazımdır. Paxıl sinifinə kəmgöz də girir; Çünki kəmgöz yalnız paxıl, bədxah və nəfskarda əmələ gəlir.

Bu surə bütün növ şərlərdən sığınmağı əhatə edir: ümumi və xüsusi. Həmçinin bu surə sehrin həqiqi bir şey olduğunu, onun zərərindən qorxmaq lazım olduğunu, ondan və onunla məşğul olanlardan Allaha sığınmaq lazım olduğunu sübut edir.

ΘΘΘ

## [ Nəs surəsinin təfsiri – Məkkədə nazil olmuşdur]

**Rəhman və Rəhim olan Allahın adı ilə! 1. De: “Sığınıram insanların Rəbbinə, 2. insanların Hökmdarına 3. insanların məbuduna! 4. Vəsvəsə verənin, (Allahın adı çəkiləndə isə hövlündən) geri çəkilən (şeytanın) şərindən. 5. (O şeytan) ki, insanların ürəklərinə vəsvəsə salır, 6. cinlərdən də (olur), insanlardan da!”**

**(1-6)** Bu surə isə bütün pisliklərin mənşəyi və mahiyyəti olan şeytandan insanların Rəbbinə, sahibinə və məbuduna sığınmağı ehtiva edir. Hansıki onun vəsvəsəsi və şərindəndir ki o, **“İnsanların ürəklərinə vəsvəsə salır”** pisliyi onlara bəzəyər və onları ona gözəl göstərək sövq edər. Onların bunu etmək iradəsini işə salır, yaxşılıq etməkdən çəkindirir və yaxşılıqları başqa formada onlara göstərir. Və o, həmişə bu vəziyyətdədir, vəsvəsə verir, sonra da geri çəkilir. Yəni bəndə öz Rəbbini zikr edib onu dəf etmək üçün ondan kömək istəsə, vəsvəsə verə bilmir.

İnsan, Rəbbindən kömək istəməli, ona sığınmalı və bütün insanların xeyiri üçün Allahın rububiyyətindən möhkəm yapışmalıdır.

Bütün insanlar Onun Rəbbliyinin və hökmranlığının səltənətinə düşür; O, hər bir canlının kəkilindən tutmuşdur. Və onun ilah olmasına görə, çünki insanlar buna görə yaradılıblar. Lakin bu ibadət, onu hədəfindən ayıran, ona mane olmaq istəyən və onun ardınca getməsini istəyib Cəhənnəm əhli etmək istəyən düşmənin şərrini yatırmadan kamilləşə bilməz. Vəsvəsə cindən olduğu kimi insandan da ola bilir və buna görə də belə buyurmuşdur: **"cinlərdən də (olur), insanlardan da!"**

Bütün həmd və şükürlər əvvəldən axıra qədər, batində və zahirdə aləmlərin Rəbbi olan Allaha məxsusdur. Uca Allahdan istəyirik ki, Bizə olan nemətlərini tamamlasın! Və bizimlə Allahın çoxlu bərəkətlərinin arasını kəsən günahlarımızı, qəlblərimizdən quranı tədəbbür etməyə mane olan xəta və şəhvətləri bağışlasın! Ondan bizim pis əməllərimizə görə bizi xeyirlərdən məhrum etməməsini arzulayır və ümid edirik! Çünki Allahın mərhəmətindən yalnız kafirlər ümidini kəsər. Onun rəhmətindən yalnız zəlalət əhli ümidin kəsər. Allahın salavatı və salamı Onun Elçisi Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə olsun. Elə salavat və salam ki, bütün vaxtlarda daimi olsun. Bütün həmd və şükürlər, xeyirxah əməlləri Öz neməti ilə tamamlayan Allaha məxsusdur.

# Müqəddimə və təfsirlə bağlı suallar

**1. "Mühüm dərslər" kitabının müəllifi kimdir?**

O Abdul-Aziz ibn Baz O Muhamməd ibn Useymin O Haysam Sərhan

**2. Niyə biz "Mühüm Dərslər"i öyrənirik "?**

O Çünki onlar mühümdür O Alimlər onu öyrənməyi tövsiyə etmişlər.

OBu dərslər müsəlmanın ehtiyac duyduğu mühüm mövzuları ehtiva edir

O Qeyd olunanların hamısı.

**3. Bu kitab bunlardan ibarətdir:**

O Quran və tövhidlə bağlı müsəlmanın vəziyyəti O Namaz və dəstəmaz O Ədəb və əxlaq O Günahlardan çəkindirmək.

O Ölənün hazırlanması O Qeyd olunanların hamısı.

**4. Müsəlman oxumağa, əzbərləməyə və mənasını öyrənməyə başlamalıdır:**

O Əlaq surəsindən. O Fatihə surəsindən. O İxlas surəsindən.

**5. İnsanlar Quranı anlamaq və ona əməl etməkdə iki və orta dəstəyə bölünürlər.** ( Doğrudur – Səhvdir).

**6. Müsəlman hansı təfsir kitabı ilə başlamalıdır?**

O İbn Kəsir. O As-Sa'di. O Al Qurtubi .

**7. Tələbələr uzun kitablardan əvvəl qısa kitabları öyrənməyə başlamalıdırlar** ( Doğrudur – Səhvdir).

**8.** **Tələbələr ilk öncə Qasas, Məryəm və Kəhf surələri kimi könlünü oxşayan və təkrar-təkrar oxuduqları surələrin izahını oxumağa başlamalıdırlar**. ( Doğrudur – Səhvdir).

**9.** **Tələbələr, oxumaq onlar üçün çətin olarsa, Quranı təfsir edən audio kitabları dinləyə bilərlər** ( Doğrudur – Səhvdir).

**10.** **Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) Quranın mənasını düşünmədən oxumaqdan çəkindirdi**. ( Doğrudur – Səhvdir).

## Fatihə surəsinin təfsiri ilə bağlı suallar

**11.** **Surəyə heçnə ordan çıxmayan və içinə heç bir şey daxil olmayan bir divarla əhatə olunduğu üçün bu ad verilmişdir**. ( Doğrudur – Səhvdir).

**12.** **Fatihə surəsi bu adla adlanıb çünki**... (ardın yaz)

..........................................................................

**13.** **Fatihə surəsinin adlarından:**

O Quranın anası. O Tez-tez təkrarlanan yeddi ayə.

O Ruqiyə. O Namaz. O Qeyd olunanların hamısı.

**14.** **İbadət halında olmağımıza baxmayaraq, Quran oxumaqdan əvvəl Allaha sığınmaq vacibdir. Səbəb nədir?**

..........................................................................

..........................................................................

**15.** **"Əuzu" kəlimərsinin mənası nədir?**

..........................................................................

**16.** ***Şeytan*** nə üçün '***qovulmuş***' adlanıb?

O Rəhmətdən uzaqlaşdırıldığına görə. O Ulduzlarla vurulduğuna görə

O Adəm övladına şəhvət və şübhələr atdığına görə. O Qeyd olunanların hamısı.

**17. "Bismilləh" kəliməsi özündən sonra gələn və qeyd olunmayan felə bağlanır**. ( Doğrudur – Səhvdir).

**18. Allah**…

O məhəbbət və təzimlə ibadət edilən ilahdır.

O Allahdan başqa heç kəs bu adla adlandırılmamışdır .

O Allahın bütün digər adları üçün istinad nöqtəsidir.

O Bəzi Alimlərə görə Allahın ən böyük adıdır.

O İlk iki hərf Əlif və Ləm Onu çağıranda silinmir.

O Qeyd olunanların hamısı.

**19. Allahın iki gözəl adı: "Rəhman" və "Rəhim" arasında fərq nədir**??

……………………………………………………………………………

……………………………………………………………………………

**20. Uca Allahın məxluqatı tərbiyyə etməsi (yaşatması) iki növdür:**

O Ümumi və xüsusi. O Mütləq və məhdud.

**21. Peyğəmbərlərin dualarının çoxu bu kəlimə ilə başlayır …**

O Allahım . O Rəbbim .

**22. Din günü deyildikdə… nəzərdə tutulur**

O Qiyamət günü. O İnsanların əməllərinə görə mükafatlandırılacaqları gün

O Qeyd olunanların hamısı.

**23." Bizi doğru yola yönəlt " O, qul üçün duaların ən əhatəlisi və ən xeyirlisidir** ( Doğrudur – Səhvdir).

**24. Din sözünə aiddir**:

O Mükafat. O Əməllər. O Bəzən mükafat, bəzən də əməllər

**25. Bir şeyin özündən əvvəldə zikr edilməsi qrammatik baxımdan......**

O Məhdudlaşdırılmaqdır (Həsr). O Mənasızdır.

**26. "Kömək diləməkdən" əvvəl "ibadət"in zikr edilməsi .... qabağa keşməsidir**…

O Ümumidən öncə xüsusinin . O Allahın haqqı qulunun haqqından öncədir. O Qeyd olunanların hamısı .

**27. "Biz yalnız Sənə ibadət edirik" ayəsi nə üçün cəm şəklində qeyd edilmişdir?**

……………………………………………………………………

**28.İbadət**…

O Allahın sevdiyi və razı qaldığı, zahiri və batini bütün söz və əməlləri özündə cəm edən ümumi bir isimdir .

O Sevgi və təzimlə əmrləri yerinə yetirib və qadağaları tərk edərək Allaha zəlil olmaq

O Bəzən birinci, bəzən də ikinci tərifə istinad edilir .

**29.Allahın "Bizi doğru yola yönəlt" kəlamında nəzərdə tutulan "Hidayət" …**

O Yönəltmək və istiqamət vermək. O Müvəffəq etmək .

O Hər ikisi .

**30.Allahın "Nemət verdiyin kəslərin yolu" kəlamında nəzərdə tutulanlar bunlardır** …

O Bu ümmətdən iman gətirən hər kəs.

O Allahın nemət verdiyi şəxslər peyğəmbərlər, sadiqlər, şəhidlər və salehlər.

31. **“Yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik” ayəsi şəriəti və qədəri birləşdirir.** ( Doğrudur – Səhvdir).

32. **Aşağıdakılardan hansı Quranın heç bir surəsində olmayan məsələləri ehtiva edir?**

O Fatihə surəsi. O Ayətul-Kursi. O İxlas surəsi.

33. **Allahın bu kəlamı " Bizi doğru yola yönəlt " bunları ehtiva edir…**

O Peyğəmbərliyin isbatı. O Bütün bidət və zəlalət əhlinə rəddi O Qeyd olunanların hamısı .

34. **Allahın “Qiyamət gününün sahibi” kəlamı o deməkdir ki …**

O Mükafatlar ədalətli olacaq. O Əslində qul özü əməlləri yerinə yetirəndir O Mükafat yalnız əməllərə görə olacaq.

O Qeyd olunanların hamısı

## Ayətul-Kursinin təfsiri ilə bağlı suallar

35. **Ayətul-Kursiyə bu ad kürsidən bəhs etdiyi üçün verilmişdir** (Doğrudur – Səhvdir).

36. **Quranda ən böyük ayə hansıdır??**

O Borc haqqında olan ayə. O On haqqdan bəhs edən ayə.

O Ayətul-Kursi.

37. **Quranın əzəməti mənalaraına görə olur** (Doğrudur – Səhvdir).

38. **Allahın gözəl adlarından neçəsi Ayətul-kursidə keçir?**

O Beş. O Altı. O Yeddi.

**39. Allahın “Diri” adı... dəlalət edir** O Özünün kamilliyinə.
O Səltənətinin kamilliyinə.

**40. Allahın “idarə edən” adı… dəlalət edir**

O Özünün kamilliyinə O Səltənətinin kamilliyinə.

**41. Əgər Allahın iki adı “Diri” və “İdarə edən” birlikdə zikr olunarsa, bu Özünün kamilliyinə və Səltənətinin kamilliyinə dəlalət edir.** (Doğrudur – Səhvdir).

**42. Quranda iki ad, “Diri” və “İdarə edən” birlikdə ... yerdə istifadə olunmuşdur.**
O Üç. O Dörd. O İki.

**43. Mənfi sifətləri Allaha nisbət etməməliyik, (necə ki Allah və Rəsulu (Allahın ona salavatı və salamı olsun) bunları Allaha nisbət etməyib), bununla bərabər onun əksini nisbət etməliyik. Çünki naqis sifətlər kamillikdə cəm olmaz. Misal olaraq yuxu və mürgünü Allaha nisbət etmirik, çünki Allah dirilikdə və işləri idarə etməkdə Kamildir.** (Doğrudur – Səhvdir).

**44. Allah razı qaldığı məsələlərdən başqa heç kəsə başqa şeylərə şəfaət etməyə icazə verməz və Onun razı qaldığı məsələlər…**
O Tövhid. O Peyğəmbərlərə tabeçilik. O Qeyd olunanların hamısı.

**45. Allahın məxluqata şərii və qədəri məsələlərindən öyrətdiyi şeylər …**
O Azdır. O Çoxdur.

**46. “Önlərindəkini (edəcəkləri əməlləri) də” İndi və gələcəkdə edəcəkləri “arxalarındakını (etdikləri əməlləri) də O bilir” keçmişdə etdiklərini** (Doğrudur – Səhvdir).

**47.Allahın “Uca” (Əliy) adının mənası**

O Özü ölüyündə Ucadır O Onun sifətləri Ucadır O Bütün məxluqata qalib gələn. O Qeyd olunanların hamısı .

**48.Kim onu gecə oxuyarsa, Allah tərəfindən bir himayədar səhərə qədər ona heç bir şeytanın yaxınlaşmasına imkan verməz. Bu nədir?**

O Bəqərə surəsin axır ayələri. O Ayətul-Kursi

**49.Ayətul-Kursi bu hallarda oxunur** …

O Hər fərz namazdan sonra. O Yatanda.

O Səhər və axşam. O Qeyd olunanların hamısı.

## Zəlzələ surəsinin təfsiri ilə bağlı suallar

**50.*Zəlzələ surəsi*** … O Məkkədə nazil olub. O Mədinədə nazil olub.

**51.*Zəlzələ surəsində*** vardır… O Qorxutmaq O Rəğbətləndirmək. O Qeyd olunanların hamısı.

**52.Uca Allahın bu kəlamı “Yer titrəyib lərzəyə gələcəyi zaman” bu ayənin bənzəridir: “Oranı boş düzəngaha çevirəcəkdir. Sən orada nə bir eniş, nə də bir yoxuş görməyəcəksən”.** (Doğrudur – Səhvdir).

**53.Allahın bu kəlamı " Yer öz yükünü bayıra atacağı zaman”**

O Dağları və təpələri. O Ölüləri və xəzinələri.

**54.Yer insanların əməllərinə şahidlik edəcək şahidlərdəndir** (Doğrudur – Səhvdir).

**55.Allahın “dəstə-dəstə” kəlməsi, yəni…**

O Hər kəs öz başına. O Müxtəlif qruplara.

**56.** **Allahın “Zərrə qədər yaxşılıq edən...” ayəsi “Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər” ayəsinin bənzəridir** (Doğrudur – Səhvdir).

## Adiyat surəsinin təfsiri ilə bağlı suallar

**57.*****Adiyat surəsi*** … O Məkkədə nazil olub. O Mədinədə nazil olub.

**58."Adiyət" sözünün mənası …**

O Atlar. O Hərəkət edən hər şey. O Qeyd olunanların hamısı .

**59.**Adiyat surəsi vacib hüquqları yerinə yetirməyəni qorxutmaqdan ibarətdir (Doğrudur – Səhvdir).

**60.**Bu kəlimələrin mənalarını izah et:

*Tövşüyə-tövşüyə*: ………………………………………………………...

*Qığılcım çıxaran*……………………………………………………...

*Tozanaq qaldıraraq*: …………………………………………………...

*Yaman nankordur*: ……………………………………………………...

## Qariə surəsi ilə bağlı suallar

**61.*****Qariə surəsi*** … O Məkkədə nazil olub. O Mədinədə nazil olub.

**62.**Qariə surəsinin məqsədlərindən biri də odur ki, bu surə çəkindirir: O Qiyamət gününün sarsıntısından O Bu həyatın sınaqlarından.

**63.Qariə sözü**… O Cəza ayələridir O Qiyamət günüdür

**64.**Aşağıda gələn sözlərin mənalarını açıqla:

**"Ətrafa səpələnmiş kəpənəklər"..........................................**
**"didilmiş yun" ..........................................................**

**65.**Bu ayədə zikr olunan **tərəzi**… O Həqiqi tərəzidir. O Ədalət qəsd olunur.

**66."Xoşbəxt güzaran"** yəni ………
O Dünya. O Cənnət.

**67.**"**Onun anası (sığınacağı yer) Haviyədir** " yəni:

O Ananın övladını müşayiət etdiyi kimi od da onu müşayiət edəcək.
O beyni əhatə edən nazik dəri təbəqəsi odda yanacaq .
OQeyd olunanların hamısı .

**68.**Allahın "**Sən haradan biləsən ki, Haviyə nədir**?!" kəlməsi…. O məsələni əzəmətləşdirir. O Bu haqda soruşur.

**69.**Cəhənnəm odunun adlarından ( Allahdan salamatlıq diləyirik):
OHaviyə. OCəhənnəm. OHutəmə.
Oləza. O Səir. OSəqar.
OQeyd olunanların hamısı ..

**70.**"**O, çox qızmar bir oddur!"** (Ondan Allaha sığınırıq) Onun istiliyi dünya istiliyindən neçə dəfə artıqdır? O Yetmiş. O Doxsan. O Doxsan doqquz.

## Təkəsur surəsi ilə bağlı suallar

**71.**Bu surə... O Məkkədə nazil olub O. Mədinədə nazil olub.

**72.**Bu surədə…

O İnsanların halı ilə bağlı xəbərlər var. O Məxluqatın yaradılış qayəsindən başqa bir şeylə məşğul olmasının tənqidi var.

**73.**Bu surə Allah rizası üçün olsa belə, daha çox qazanc əldə etmək üçün yarışmağı qadağan edir (Doğrudur – Səhvdir).

**74.** Bir kəs vəfat etdikdə: "Axır mənzilinə yola saldıq" ifadəsi ……… O Yenidən dirilməni inkar etməkdir O İcazəlidir

**75.**Allah **"Siz ziyarət edənə qədər"** kəlamında onları ziyarətçi adlandırmış, onlara sakin deməmişdir. Niyə?

O Çünki qəbir həyatı axirətə keçid üçün nəzərdə tutulmuş bir yerdir

O Çünki dünyadakı evlərindən qəbiristanlıqlara köçüblər və bu, onlar üçün daimi yer deyil.

**76.**Elm üç yerə bölünür, Elm üç yerə bölünür: yəqinlik elmi, yəqinlik baxışı və yəqinlik həqiqəti. (Doğrudur – Səhvdir).

## Əsr surəsi ilə bağlı suallar

**77.**Əsr surəsi... O Məkkədə nazil olub O. Mədinədə nazil olub.

**78.** "Əsr" surəsində dörd məsələyə dəlil var: elm, əməl, dəvət və səbir. (Doğrudur – Səhvdir).

**79.**Allahdan başqasına and içməklə bağlı aşağıdakı ibarələrdən hansı düzgündür?

O Allah yaratdıqlarından istədiyi hər şeyə and içə bilər

OYaradılmışların Allahdan başqasına and içməsi icazəli deyil.

O Yaradılmışlar Allahdan başqasına and içə bilərlər.

OBirinci və ikinci cavab .

**80.** **Səbrin** bölünür… O İki qismə. O Üç qismə. O Dörd qismə

**81.** Surə dörd əmrdən ibarətdir: İlk ikisi insanın özünü təkmilləşdirməsinə, ikinci ikisi isə başqalarının təkmişlləşməsinə kömək edir. (Doğrudur – Səhvdir).

## Huməzə surəsi ilə bağlı suallar

**82.** Huməzə surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**83.** "Vayl" sözünün mənası...

O Cəhənnəmdə bir "dərə". O Cəhənnəmdə və ya başqa bir yerdə olan "dərə" ilə əzab.

**84.** Ayədə gələn ***Həmz*** söz ilə, ***Ləmz*** isə əməl ilə məsxərədir

(Doğrudur – Səhvdir).

**85.** Allahın "**O, mal-mülkünün onu əbədi saxlayacağını zənn edər.**" kəlamından fayda çıxır ki, yaxşılıq insanın ömrünü artırır. (Doğrudur – Səhvdir).

**86.** Allahın "**Sən haradan biləsən ki,**" kəlamının mənası budur ki, Peyğəmbər ﷺ … O Bu haqda bilirdi O Bu haqda bilmirdi

**87.**86. Uca Allahın: "**O, Allahın alovlandırılmış odudur**" kəlamında, odu alovlandıran yanacaq …

O İnsanlardır. O Daşlardır. O Hər ikisi.

**88.**Uca Allahın "**O od (yandıra-yandıra) ürəklərə çatar.**" kəlamının mənası:

O Etiqadında O bədənlərini deşib ürəklərini yandırar.

## Fil surəsi ilə bağlı suallar

**89.** Fil surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**90.** Bu surədən çıxarılan ibrətlərdən biri də, yer üzündə yaşayan ən böyük məxluq belə Allahın evlərindən bir evinə zərər verməkdən qorxar. Deməli, insanlar daha çox qorxmalıdırlar (Doğrudur – Səhvdir).

**91.** Peyğəmbər ﷺ bu ildə doğulub …

O Fil ili. O Kədər ili . O Quraqlıq ili.

**92.** Bu surə Peyğəmbərimizin ﷺ peyğəmbərliyinin xəbərlərindən biridir və Peyğəmbərdə peyğəmbərlikdən əvvəl görünən qeyri-adi bir Hadisə idi. - (Doğrudur – Səhvdir) .

**93.**Aşağıdakı sözlərin mənalarını qeyd edin:
"*Tayran əbəəbiil*"..................................................
"*Kə'asfin mə'kuul*" ..........................................................

## Qureyş surəsi ilə bağlı suallar

**94.** Qureyş surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**95.** Qureyş surəsinin bu surə ilə bağlılığı var…

O Kəfirun . O Fil. O Nəs.

**96.** Qüreyş xalqı qışda Şama, yayda isə Yəmənə səfər edirdi (Doğrudur – Səhvdir).

**97.** Allah Məkkə hərəmini və onun əhlini ərəblərin qəlbində izzətləndirdi ki, onlara hörmət etsinlər və onlara hücum etməsinlər. … O Yalnız Məkkədə. O Məkkədə də səfərdə də.

**98.** Bu surədə Allah kəbə evinin fəzilətini və məqamını yüksək göstərmək üçün evin Rəbbi olduğunu qeyd etmişdir. Halbuki O, hər şeyin Rəbbidir (Doğrudur – Səhvdir).

**99.** **"Qoy onlar bu evin Rəbbinə ibadət etsinlər"** Ayəsi Məxluqu hörmətləndirmək üçün xaliqə olunma babındandır. (Doğrudur – Səhvdir).

## Məun surəsi ilə bağlı suallar

**100.** Məun surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**101.** **Dini yalan sayan o kimsəni gördünmü** ayəsindəki *Din* sözünün mənası…

O Yenidən dirilişi və əməlin müqabilini inkar etmək .

O Borclar və digər qul haqqlarını inkar etmək .

**102.** *"Yədu'u"* sözünün mənası……

O Tərk etmək . O Sərt şəkildə uzaqlaşdırmaq.

**103.** Yetim bu ikisindən birini itirənə deyilir. O Atasını O Anasını.

**104.** Eləcə də yetim o vaxta kimi adlanır ki …

O Həddibuluğa çatmasa. O Həddibuluğa çatsa belə .

**105.** Namazdakı unutqanlıq məzəmmət və qınağa layiq olandır , Namaza olan unutqanlığa gəlincə bunu hamı edir (Doğrudur – Səhvdir).

**106.** Riyanın hökmü … O İcazəlidir. O Bəyənilmir. O Haramdır. O Kiçik şirkdir. O Böyük şirkdir .

**107.** Bu surədə yaxşılıq etməyə həvəsləndirmə vardır (Doğrudur – Səhvdir).

**108.** Ayədə qeyd olunan Məunun mənası …
O Qab. Oİstifadə etmək və bağışlamaq üçün verilən hər bir şey.

## Kövsər surəsi ilə bağlı suallar

**109.** Kövsər surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**110.** ***Kövsərin*** mənası… O Çay . O çoxlu xeyir və bol fəzilət.

**111.** Allah bu iki ibadəti, namazı və qurban kəsməyi xüsusi qeyd etmişdir, çünki onlar Allaha yaxınlaşmaq üçün ən yaxşı ibadətdir. (Doğrudur – Səhvdir ).

**112.** '**Doğrusu, sənə ədavət bəsləyən**' means… O Sənə nifrət edən. O Səni məzəmmətləyən. O Səni aşağılayan. O Qeyd olunanların hamısı.

**113.** Allahın “...**sənə ədavət bəsləyən özü Sonsuzdur**” kəlamı dolayısı ilə sübut edir ki, Peyğəmbəri ﷺ sevən şəxs həmişə xatırlanacaq və təriflənəcəkdir. (Doğrudur – Səhvdir).

**114.** Bu surə Peyğəmbərin (sallallahu aleyhi və salləm) çoxlu tərəfdarları və ardıcılları olduğunu göstərir (Doğrudur – Səhvdir ).

## Kəfirun surəsi ilə bağlı suallar

**115.** ***Kəfirun*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**116.** ***“Kafirun”*** surəsi bu namazda birinci rükətdə Fatihədən sonra oxunur. …

O Sübhün sünnəsində. O Məğribin sünnəsində .

O Təvafın sünnəsində.

O Vitr namazında. O Qeyd olunanların hamısı.

**117.** Allaha şərik qoşularaq edilən ibadət…

O Naqisdir. O İbadət deyil.

**118.** Bu surədə “De” ilə xitab olunan …

O Peyğəmbərdir ﷺ. O Peyğəmbər ﷺ və xitaba münasib olan hər kəs.

**119.** ***Kafirlər***…

O Yəhudilər və xristianlar kimi Peyğəmbərimizin ﷺ dini onlara çatmış və ona iman gətirməyənlərin hamısıdır..

O Məkkə əhlindən olan iman gətirməyənlər .

**120.** Bu surə göstərir ki, Allahdan başqasına ibadət etməkdən və Allahdan başqasına ibadət edənlərdən qəlbimiz, dilimiz və əzalarımızla uzaq durmalıyıq. (Doğrudur – Səhvdir).

**121.** Bu surədə olan təkrar…

O Məsələni gücləndirmək üçün. O Birincisində əməlin olmadığını, ikincisində isə artıq onların vəsfinə çevrildiyini göstərmək üçün.

## Nəsr surəsi ilə bağlı suallar

**122.** ***Nəsr*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**123.** Bu surədə müjdə, xəbər, əmr və xəbərdarlıq var. (Doğrudur – Səhvdir).

**124.** Allah bu millətə və bu dinə ağıldan belə keçməyən mərhəmət və rəhmət göstərdi! (Doğrudur – Səhvdir).

**125.** Bu surədə Peyğəmbərin ﷺ ölümünün yaxınlaşmasına işarə var (Doğrudur – Səhvdir).

**126.** Bu surəyə əməl edən Peyğəmbər ﷺ çox vaxt rüku və səcdədə "**Ey Rəbbimiz Ey Allah sən paksan, Sənə həmd olsun, Allahın məni bağışla**" deyərdi. (Doğrudur – Səhvdir).

## Məsəd surəsi ilə bağlı suallar

**127.** ***Məsəd*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**128.** Abu Ləhəb …

O Peyğəmbərin ﷺ əmisidir. OPeyğəmbərlə ﷺqohumluğu yoxdur.

**129.** Qiyamətə qədər məzəmmət edilir …

O Abu Ləhəb. O Peyğəmbərə ﷺ düşmənçilik edən hər bir kəs

**130.** Aşağıdakı sözlərin mənasını qeyd edin:

*Təbbət* ……………………………………………………………… :تَبَّتْ

*Məə-Kəsəb*…………………………………………………………… كسب

*Ciidihə*……………………………………………………………… :جيدها

*Məsəd* ……………………………………………………………… :مسد

**131.** Bu surədə Abu Ləhəb və arvadının heç vaxt İslamı qəbul etməyəcəkləri barəsində Allahın açıq-aşkar möcüzəsi var!( Doğrudur – Səhvdir).

## İxlas surəsi ilə bağlı suallar

**132.** ***İxlas*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**133.** ***İxlas surəsi*** ona görə belə adlandırılımışdır ki…

O Allahın vəsfləri olduğuna görə O Oxuyucuları Allahdan başqasına ibadət etməkdən təmizlədiyinə görə O Qeyd olunanların hamısı .

**134.** Bu surə … bərabərdir

**O** Quranın yarısına. **O** Quranın dorddə birinə **O** Quranın üçdə birinə.

**135.** Bu surə bu namazın ikinci rükətində fatihədən sonra oxunur:

**O** Sübhün sünnəsində. **O** Məğribin sünnəsində

**O**Təvafın sünnəsində **O** Vitr namazında **O**.Qeyd olunanların hamısında.

**136.** Tövhidin üç qismini yerinə yetirmək üçün gecə və gündüz “Kəfirun” və “İxlas” surələrini oxumaq tövsiyə olunur. (Doğrudur – Səhvdir).

**137.** ***İxlas surəsi*** …ehtiva edir.

**O** Uluhiyyət tövhidini. **O** Rububiyyət və İsm və Sifətlər tövhidini .

**138.** “De” sözünün mənası budur … **O** Sadəcə dildə. **O** Söz, əməl və etiqadda

**139.** Allahın “De! O Allah təkdir” kəlamı, yəni Rəbbliyində, ibadətində, ad və sifətlərində təkdir. (Doğrudur – Səhvdir).

**140.** Allahın “**Allah Möhtac deyildir”**” kəlamının mənası…

**O** Bütün ehtiyaclar bura daxildir. **O** Özü özünü idarə edir və başqaları Ona möhtacdır.

**O** Rəbbliyində, ibadətində, ad və sifətlərində kamil olan ağadır. **O** Qeyd olunanların hamısı .

**141.** Allaha Övlad və ya valideyn nisbət etmək böyük küfr sayılır (Doğrudur – Səhvdir).

## Fələq surəsi ilə bağlı suallar

**142.** ***Fələq*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**143.** Fələq surəsi bu vaxtlarda oxunur…
O Fərz namazlarından sonra. O Yatan vaxtı. O Qeyd olunanların hamısında.

**144.** Aşağıdakı sözlərin mənasını qeyd edin:
*'Auzu*............................................................................ :أعوذ
*Al Fələq*........................................................................ :الفلق
*Ğasiq*........................................................................... :غاسقٍ
*Vaqab*........................................................................... :وقبَ
*An-Nəffəsəət*................................................................ :النَّفَّاثات
*Al'Uqad*........................................................................ :العُقَد
*Həəsidin*........................................................................ :حاسدٍ

**145.** Bu surə bunu ehtiva edir …
O Xüsusi və ümumi formada sığınacaq tələb etmək. O Həqiqətən sehr baş verir O Qeyd olunanların hamısı.

## Nəs surəsi ilə bağlı suallar

**146.** ***Nəs*** surəsi... O Məəkədə nazil olub O. Mədinədə nazil olub.

**147.** Nəs surəsi bu vaxtlarda oxunur …

O Fərz namazlarından sonra. O Yatan vaxtı. OQeyd olunanların hamısında.

**148.** Xənnəs sözünün mənası nədir?

.....................................................................................

## İkinci dərs

### İkinci dərs: İslamın rükunları

İslamın beş rükununun açıqlaması: *"Allahdan başqa ibadətə layiq ilahın olmamasına və Muhəmmədin Allahın elçisi olmasına şəhadət gətirmək"*. "*Lə iləhə illəllah*" Kəliməsinin şərtləri ilə birlikdə onların mənası izah ediləcək

Mənası isə: "*İlah yoxdur*" Allahdan başqa ibadət edilən hər şeyi inkar etməkdir. " *Allahdan başqa* " yalnız Allaha ibadət etməyi ona heç bir şeyi şərik qoşmamağı təsdiq etməkdir.

"*Allahdan başqa ibadətə layiq ilah yoxdur*" kəliməsinin şərtləri isə:
1- Cahilliyin əksi olan ELM. 2- Şəkkin əksi olan YƏQİNLİK. 3- Şirkin əksi olan İXLAS. 4- Yalanın əksi olan SADİQLİK. 5- Nifrətin əksi olan MƏHƏBBƏT. 6- Tərk etməyin əksi olan TƏSLİM. 7- Rədd etməyin əksi olan QƏBUL. 8- Allahdan başqa ibadət olunanları inkar etmək .
Bunlar iki misrada qeyd olunmuşdur:
Elm Yəqinlik İxlas və ona Sadiklik Məhəbbət Təslim və onu Qəbul etmək
Səkkizinci səndən olan inkarlıq Bütün ilahları yalnız Allahdır tək
Muhəmmədin Allahın elçisi olmasına şəhadət gətirməyi bəyan etməkdə tələb olunan məsələ, bu Onun xəbər verdiyini təsdiq etməyi, əmr etdiyini yerinə yetirməyi, Onun uzaqlaşdığı və qadağan etdiyi şeylərdən ozaq durğmağı və yalnız Onun buyurduğu kimi Allaha ibadət etməyi özündə ehtiva edir. Sonra tələbəyə İslamın beş ərkanlarından qalanları açıqlamaq lazımdır, onlar da: Namaz, zəkat, oruc və Allahın hərəm evini bacarıq miqdarında həcc etmək.

" *Allahdan başqa ibadətə layiq ilah yoxdur* "

**İnkar: "** *İlah yoxdur*…**"**
Allahdan başqa ibadət edilən hər şeyi inkar etmək (Tağutu inkar)

**Təsdiq: "Allahdan başqa"**
Yalnız Allaha ibadət etməyi təsdiq etmək.
(Allaha iman)

İxlas Kəliməsində iki sütun var  əzbərləyin təsdiq və isbatdır onlar

## "Lə iləhə illəllah" Kəliməsinin şərtləri

"Lə iləhə illəllah"ın şərtləri açarın dişləri kimidir. "Lə ilahə illəllah"kəliməsi Cənnətin açarıdır. Açarın dişləri olmasa onunla açmaq olmaz. Buna görə də Quran və sünnədə qeyd olunan: "kim (Allahdan başqa ibadətə layiq ilah yoxdur) desə onun üçün filan əcr var" bu şərtləri yerinə yetirməklə həmin savabı əldə etmək olur, bunlar isə.:

1- **Elm** mənasını bilmək: Mənasından xəbərsiz olana bu fayda verməz. Beləliklə, İslamı qəbul etmək istəyənin onun mənasını bilməsi vacibdir. Peyğəmbər ﷺ buyurur: ***"Kim Allahdan başqa ibadətə layiq ilahın olmadığını bildiyi halda ölərsə, cənnətə daxil olar"*** (Muslim).

2- **Yəqin**: 100%-lik inam. Allahdan başqa ilahlara inanmamaqda 1 faiz belə şəkk edərsə və ya tərəddüd edərsə o muvahhid deyildir. Peyğəmbərin ﷺ dəvətini bilən yəhudi və xristianların küfrünə şübhə edənlər muvahhid deyillər. Peyğəmbər ﷺ buyurur***: " Şəhadət verirəm ki, Allahdan başqa layiqli ilah yoxdur və mən Allahın elçisiyəm. Bu ikisini şəkk-şübhə etmədən deyərək Allahla görüşən hər bir kəs, Cənnətə daxil olar "*** (Muslim).

3- **İxlas**: Kim bunda riyakarlıq edərsə və ya böyük şirk qoşarsa, məsələn, Allahdan qeyrisinə ibadət edərsə, bu ona fayda verməz.. Peyğəmbər ﷺ buyurur: ***" Mənim şəfaətimlə ən xoşbəxt olan insan qəlbdən "Lə İləhə İlləllah" deyən kəsdir. "*** (Buxari).

4- **Sadiqlik**: Münafiqlər kimi yalandan deyərsə ona fayda verməz. Peyğəmbər ﷺ buyurur: " Elə bir kəs yoxdur ki: "Allahdan başqa ibadətə layiq ilahın olmamasına və Muhəmmədin Allahın qulu və elçisi olmasına sadiq qəlblə şəhadət gətirsin Allah onun üçün Cəhənnəmi haram etsin. " (Buxari və Muslim).

5- Məhəbbət: İnsan heç kimi Allahı sevdiyi kimi sevməməlidir. Eləcə də, Allahın sevməyi əmr etdiyi hər kəsi sevməlidir. Bunun əksi isə nifrətdir. Elə buna görə də İslamı batil əməllərdən biri də elə budur: “Kim Peyğəmbərin gətirdiyi bir şeyə nifrət edərsə, ona əməl etsə belə, kafir olar”. Uca Allah buyurur: **" İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər**…" (Əl-Bəqərə:165).

6- **Təslim:** Yəni, biz buna əməl etməliyik. Əgər kimsə buna əməl etməsə, bu ona fayda verməz. Uca Allah buyurur: " **Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar.** " (Ən-Nisa:65).

7- **Qəbul:** O, bunları söyləməkdən, etməkdən və ona etiqaddan imtina etməz. Uca Allah buyurur: **"Çünki onlara: “Allahdan başqa (ibadətə layiq olan) məbud yoxdur!”– deyildikdə təkəbbür göstərir və deyirdilər: “Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?”"** (Əs-Saffət:35-36).

8- **İnkar etmək:** Allahdan başqa ibadət edilən hər hansı bir şeyə ibadət etmək batildir. Allahdan başqa heç kəs ibadət edilməyə layiq deyildir.

## Məhəbbətin növləri

### Allahla bərabər başqasını Sevmək

Bu böyük şirkdir. Necə ki, Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər…"** (Əl-Bəqərə:165).

### Allah üçün sevmək

Bu vacib sevgidir; daha doğrusu, imanın ən möhkəm bağlarından biridir!

Uca Allah buyurmuşdur: **" Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər…"** (Əl-Fəth:29).

Bu da 4 məsələ ilə olur:

- Tövhid kimi şəriətin gətirdiyi və Allahın razı qaldığı **hər bir şeyə əməl etmək**
- Ona peyğəmbərlər, elçilər, mələklər, səhabələr və hər bir **tövhid əhli kimi əməl etmək.**
- Qədr gecəsi və hər gecənin üçdə bir hissəsi kimi Allahın sevdiyi **hər birt vaxt.**
- Məkkə və Mədinə kimi Allahın sevdiyi **hər bir yer.**

### Təbii sevgi

Bu, (məsələn, oğul və arvad sevgisi) Allah sevgisindən, üstün olmamaq şərti ilə icazəlidir. Peyğəmbər ﷺ buyurub: **" Sizdən birinizin mənə olan sevgisi övladından, valideynindən və bünün insanlardan üstün olmayınca (kamil) iman etmiş olmazsınız".**

***"Muhəmməd Allahın qulu və elçisidir" kəliməsində "Qul"sözünün mənası nədir?***

Yəni Ona ﷺ ibadət olunmur, Çünki onun nə Rəbblikdə, nə ibadətdə, nə də Allahın ad və sifətlərində bir payı yoxdur.

O ﷺ, Allahın ən yaxşı quludur. Çünki O, ibadətini kamil şəkildə yalnız Allaha etmişdir.

Uca və nöqsansız Allaha olan qulluğun növləri

**Ümumi**

Bu, Ağalıq (məcburi) qulluğudur. Bu Bütün məxluqata aiddir. Uca Allah buyurur: " **Göylərdə və yerdə olanların hamısı ər-Rəhmanın hüzuruna ancaq bir qul kimi gələcək."** (Məryəm: 93).
Möminlər də, kafirlər də bura daxildir.

**Xüsusi**

Allaha ümini şəkildə itaət etməklə qulluq. Uca Allah buyurur: " **Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər...** (Furqan:63).
Bu, Allaha Onun şəriətinə görə ibadət edən hər kəsi əhatə edir.

**Daha da xüsusi**

Peyğəmbərlərin qulluğu, Uca Allah buyurur: **"…Nuh doğrudan da (Bizə) minnətdar olan bir qul idi."**
(İsra:3).
Peyğəmbərlərə nisbət olunan bu qulluq daha da xüsusidir, Çünki heç kim Allaha qulluq baxımından bu elçilərlə müqayisə olunmaz.

## Peyğəmbərimizin ﷺ həyatı

| | |
|---|---|
| O, Haşimin oğlu Abdulmuttalibin oğlu Abdullahın oğlu Muhəmməddir. Haşim Qureyş qəbiləsindəndir, Qureyş isə ərəblərdəndir, Ərəblər isə İbrahim oğlu İsmayılın (Allahın onlara salamı olsun) nəslindəndir. | Nəsili |
| O, Fil ilində Rəbiül-əvvəl ayında Məkkədə anadan olmuşdur. 63 il yaşadı. Bu illərin, 40 ilini peyğəmbərlikdən əvvəl, 23 ilini isə peyğəmbər və elçi olaraq yaşadı. O, yetim idi; atası onun doğulmasından əvvəl vəfat etmişdir. O, çox gənc ikən anası dünyasını dəyişib. Babası Əbdülmütalib onu himayə edirdi. Babası dünyasını dəyişəndən sonra onu əmisi Əbu Talib onu himayə etdi. | Dünyaya Gəlişi |
| O ﷺ, insanlara və cinlərə göndərildi. Kim onun Peyğəmbərliyini eşidib qəbul etməzsə, kimliyindən asıllı olmayaraq kafirdir. | Peyğəmbər olması |
| O ﷺ , Yalnız Allaha ibadət etməyə (tövhidə), gözəl əxlaq və gözəl əməllərə dəvət etmişdir. Allahdan başqasına ibadət etməkdən (Şirkdən), pis əxlaqdan və pis əməllərdən çəkindirmişdir. | Dəvəti |
| Onu , bir gecədə (Mələklər) Məkkədən Əqsa məscidinə apardılar. Sonra yeddi qat göyə qaldırdılar, Allah onunla bir-başa danışdı və beş vaxt namazı vacib etdi. | İsra və Merac |
| O, Məkkədən Mədinəyə hicrət etmiş, orada da vəfat etmişdir. O, Möminlərin anası Aişənin (radıyallahu anhə) evində dəfn edilmişdir. | Hicrəti və Vəfatı |
| Allah onunla dini kamil etdi. O, açıq-aydın xəbəri çatdırmış, missiyasını tamamlamış, insanlara nəsihət etmiş, Allah yolunda hər cür cihad etmişdir. Heç kimin bu dinə hər hansı bir yenilik gətirməsi mümkün deyil. | Son Elçi olması |
| Yeddi döyüş, onlar: Bədr, Uhud, Xəndək, Xeybər, Məkkənin fəthi, Tabuk və Huneyn döyüşləri | Mühüm Döyüşləri |
| Qasim, İbrahim, Abdullah (Tayyib Taahir kimi də tanınır), Zeynəb, Ruqeyyə, Ummu Kulsum və Faatimə.  Onların hamısı peyğəmbərin sağlığında dünyasını dəyişdi, ancaq Fatimə vəfatından altı ay sonra vəfat etdi (Allah hamısından razı olsun). | Yeddi övladı |

| | |
|---|---|
| Həyat yoldaşları | Xədicə,Asiya, Səuda, Həfsa, Zeynəb əl Hiləəliyəh, Ummu Sələmə Hind, Zeynəb bint Cahş, Cuvayriyya bint əl Həəris, Safiyyə bint Huyey, Ummu Həbibə Ramlə, Reyhanə bint Zeyd və Meymunə bint əl Həris (Allah hamıdan razı olsun) |
| Süd anaları | Anası Əminə binti Vəhb, Suveybə, Həlimə binti Əbi Zueyb əs-Sədiyə (Allah onlardan razı olsun) |
| Peyğəmbərə ﷺ nazil olan ilk Ayələr | Ələq surəsində Uca Allahın bu sözləridir: **"1. Yaradan Rəbbinin adı ilə oxu! 2. O, insanı qan laxtasından yaratdı. 3. Oxu! Sənin Rəbbin (müqayisəsiz) səxavətə malikdir. 4. O, qələmlə (yazmağı) öyrətdi. 5.İnsana bilmədiklərini öyrətdi.”** |
| Ona iman edən ilk şəxs | Kişilərdən Əbu Bəkr əs-Sidiq. Qadınlardan möminlərin anası Xədicə binti Xuveylid. Uşaqlardan Əli ibn Əbi Talib. Qulluqdan azad olunanlardan Zeyd ibn Harisə. Qullardan Bilal ibn Əbi Rəbah. |
| Ümrə və həcci | Dörd dəfə ümrə ziyarəti etdi, bunların hamısı Zilqiidə ayında oldu və yalnız bir dəfə Hicrətin onuncu ilində “Vida həcci” adlanan bir həcc etdi. |
| Əxlaqı | Uca Allah belə buyurmuşdur: “Şübhəsiz ki, sən çox gözəl əxlaq sahibisən”. Möminlərin anası Aişə demişdir: “Onun əxlaqı Quran idi”. |
| Peyğəmbər həyatını öyrənməyin əhəmiyyəti | İbn əl-Qeyyim demişdir: “Əgər bəndənin hər iki dünyada səadəti Peyğəmbərin ﷺ yolu ilə getməyə bağlıdırsa, özünə nəsihət edən və nicat tapmaq və xoşbəxt olmaq istəyən hər kəsə, Onun ﷺ davranışlarından, həyat tərzindən və Onu cahillərdən ayıran və Onun tabeçiliyinə daxil edən məsəsləbləri bilməsi vacibdir.” |

# Üçüncü Dərs

## İmanın rükunları

İmanın altı rükunu var: Allaha, mələklərinə, kitablarına, Peyğəmbərlərinə, axirət gününə və Qədərə (xeyirin və şərin Allah tərəfindən olmasına) iman gətirmək

## İmanın şərii tərifi

İman: **Söz ilə** demək, **qəlb ilə** etiqad etmək və **əzalar ilə** əməl etməkdir; Allaha **itaət ilə** artır, **asilik ilə** azalır. Bunun dəlili:

| **Söz ilə:** | **Əzalar ilə:** | **Qəlb ilə:** | **İtaət ilə artır:** | **Asilik ilə azalır:** |
|---|---|---|---|---|
| Hədisdə gəlib: "Onun (imanın) ən üstünü: LƏ İLƏHƏ İLLƏLLAH sözüdür" | "Onun (İmanın) ən aşağısı isə zərərli əşyaların yoldan kənarlaşdırılmasıdır" | "Həya da imanın bir şöbəsidir" | Uca Allah buyurur: "Bu, hansınızın imanını artırdı?" (Tövbə:124) | "Mən Qadınlardan ağıl və din baxımından daha qüsurlu birini görməmişəm." |

## İmanın artmasının səbəbləri

- Tövhidi öyrənmək; Xüsusilə, isim və sifətlər tövhidini
- Xeyir əməlləri çoxaltmaq
- Günahları tərk etmək
- Allahın yaratdıqları üzərində düşünmək

## İmanın azalma səbəbləri

- Tövhidi öyrənməmək; Xüsusilə, isim və sifətlər tövhidini
- Xeyir əməllər etməmək
- Günah etmək
- Allahın yaratdıqları üzərində düşünməmək

## İmanın altı rükunu

- Allaha iman
- Mələklərinə iman
- Kitablarına iman
- Peyğəmbərlərə iman
- Axirət Gününə iman
- Qədərə xeyirin və şərin Allah tərəfindən olmasına iman

## Birinci rükun: Allaha iman etmək

| Allahın varlığına iman etmək. Bu da dörd məsələ ilə olur: | Allahın rububiyyət Tövhidinə iman | Allahın uluhiyyət Tövhidinə iman | İsim və sifətlər tövhidinə iman |
|---|---|---|---|
| **Ağıl** Ağıl, məxluqatın varlığını Yaradan olmadan təsəvvür edə bilməz. " **Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?"** (Tur:35). | **Hisslər** Sıxıntı və çətin anında əllərini göyə qaldırıb **"Ey Rəbbim"** deyə dua edirsən və Allahın izni ilə sıxıntıların aradan qalxır. | **Fitrət** "Hər bir kəs fitrət üzərində doğulur. Valideynləri onu yəhudi, xristian və ya məcusi edir …" (Buxari və muslim). | **Şəriətlə** İbn əl-Qeyyim buyurub: "Allahın kitabında elə bir ayə yoxdur ki, orada tövhidin dəlili olmasın." |

## İkinci rükun: Onun mələklərinə iman gətirmək.

Mələklər qeybi aləmdəndirlər. Allah onları nurdan yaratmışdır. Onlar Allaha itaət edir və heç vaxt Ona asi olmazlar. Onların ruhları var "Onu müqəddəs ruhla (Cəbrail ilə) qüvvətləndirdik" (Bəqərə:87). Cəsədləri də var; "Mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun! O, xəlq etdiklərindən istədiyini artırır. " (Fatir:1). Ağılları və qəlbləri də var; "Nəhayət, (mələklərin) qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?""(Səba:23). Biz onlara və Allahın bizə öyrətdiyi onların adlarına (*Cəbrail, Mikayıl, İsrafil və s.*) vəsflərinə və əməllərinə iman edirik. "Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə (heç vaxt) asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır." (Təhrim:6)

**Mələklərdən bəziləri və onların vəzifələri**

Səkkiz “Ərş daşıyıcı” Mələk, Vəhy həvalə edilmiş Cəbrayıl və yağış həvalə olunmuş Mikail... Biz onların hamısına onlar haqqında bizə verilən təfsilatlı və ümumi Bütün xəbərlərlə iman edirik.

## Üçüncü rükun: Onun kitablarına iman gətirmək.

Biz iman etməliyik ki, o, məcazi mənada deyil, həqiqi Allahın kəlamıdır və o, məxluq deyil, Allah tərəfindən nazil olub və Allah hər elçi ilə bir kitab nazil etmişdir. Biz onlara (nə qədər ki nəsx olunmayıb) və Allahın bizə xəbər verdiyi adlarına və hökmlərinə ümumi və təfsilatlı şəkildə iman edirik. Eləcə də Biz iman edirik ki, Quran bütün əvvəlki kitabları nəsx edib (hökmünü silib). O kitablar da: Tövrat, Zəbur, İncil və İbrahim və Musanın səhifələri.

## Dördüncü rükun: Onun Peyğəmbərlərinə iman gətirmək

Biz İman edirik ki, onların hamısı bəşərdir və Rəbblik xüsusiyyətlərindən heç birinə malik deyildirlər. Onlar quldurlar onlara ibadət olunmaz. Allah onları göndərdi, onlara vəhy nazil etdi və Öz ayələri və dəlilləri ilə onlara kömək etdi. Onlar əmanəti yerinə yetirdilər, ümmətlərinə nəsihət etdilər, öz missiyalarını yerinə yetirdilər və Allah yolunda həqiqi cihad etdilər.

Biz onlara və Allahın bizə öyrətdiyi adlarına, sifətlərinə və xəbərlərinə ümumi və təfsilatlı şəkildə iman edirik. Peyğəmbərlərin birincisi Adəm, Elçilərin birincisi Nuh Peyğəmbər və elçilərin sonuncusu isə Muhəmməddir ﷺ. Muhəmmdin ﷺ şəriəti əvvəlki bütün şəriətləri nəsx etdi. Ulul-Əzm peyğəmbərlər beşdir, bunlar Şuara və Əhzab surələrində qeyd olunub: Muhəmməd ﷺ , Nuh, İbrahim, Musa və İsa (Allahın onlara salavatı və salamı olsun)

## Beşinci rükun: Axirət gününə iman gətirmək

Peyğəmbərin (sallallahu aleyhi və səlləm), ölümdən sonra nələrin baş verəcəkləri haqqında bizə xəbər verdiyi hər bir şeyə iman gətirmək də bura daxildir. Misal olaraq: Qəbir fitnəsi, sura üfürülmək, insanların qəbirlərindən dirildilməsi, tərəzi, sağ və sol ələ verilən səhifələr, sirat körpüsü, hovuz, şəfaət, Cənnət və Cəhənnəm və möminlərin Qiyamət günü və Cənnətdə öz Rəbbinə baxışı və bundan başqa bir çox qeybi məsələlər.

## Altıncı rükun: Qədərə (xeyirin və şərin Allah tərəfindən olmasına) iman gətirmək

Bunun dörd mərtəbəsi var:

**Elm:**

Onun (Allahın) hər şeyi tam və ətraflı bildiyinə iman etmək. Uca Allah buyurur: " O, (məxluqatın) gələcəyini və keçmişini bilir …" (Bəqərə:255).

**Yazı:**

Uca Allah Qiyamət gününə qədər baş verəcək hər şeyin qədərini yazdığına İman etmək. Uca Allah buyurur: “Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın.” (Nəml:75).

**İstək:**

Allahın istədiyinin olub, istəmədiyinin olmadığına və qulun da iradəsi olmasına, bu iradənin də, Allahın iradəsi altında olmasına iman etmək. Uca Allah buyurur: Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz! (81:29).

**Yaratmaq:**

Bəndənin, onun əməllərinin, eləcə də bütün kainatın Allah tərəfindən yaradılmış olmasına iman etmək. Uca Allah buyurur: “Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır”. (Saffət:96).

# Dördüncü dərs

## Tövhidin və şirkin qismləri

Tövhidin qismlərinin izahı: Üç qismdir, **Rububiyyət, Uluhiyyət** və **İsm Və Sifətlər.**

**Rububiyyət tövhidi**: Allahın hər şeyin yaradıcısı və hər şeyi idarə edəni olmasına və bunda Onun heç bir şəriki olmadığına iman gətirmək.

**Uluhiyyət tövhidi**: Uca Allahın haqqlı məbud olduğuna və bunda şərikinin olmadığına İman etmək. Bu da LƏ İLƏHƏ İLLƏLLAHIN mənasıdır, yəni: Allahdan başqa ibadətə haqqı olan heç bir məbud yoxdur. Namaz, oruc və bunlardan başqa bütün ibadətləri yalnız Allah üçün ixlasla yerinə yetirmək vacibdir. Bu ibadətlərdən heş birini Allahdan başqasına etmək olmaz.

**İsm Və Sifətlər tövhidi**: Qurani kərimdə və Peyğəmbərimizin səhih hədislərində Allahın ad və sifətləri ilə bağlı qeyd olunan hər şeyi Allah üçün ən kamil şəkildə təsdiq edərək, mənasını təhrif etmədən, inkar etmədən, keyfiyyət vermədən və bənzədmədən iman etməkdir. Uca Allahın bu sözünə əməl edərək: **De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur**".(İxlas:1-4). Və eləcə də buyurur: "**Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir**." (Şuara:11).

Bəzi elm əhli onu iki yerə bölmüşlər, İsim və sifətlər tövhidini rububiyyət tövhidinə daxil etmişlər və bunda qəbahət yoxdur, Çünki hər iki bölgüdə nəyin nəzərdə tutulduğu aydındır.

.

Şirkin üç növü vardır: **Böyük şirk, kiçik şirk və gizli şirk**.

**Böyük şirk**: Əməli puç edir və onun üzərində ölənlərin əbədi cəhənnəm odunda olmasını vacib edir. Necə ki, Uca Allah buyurur: "**Əgər (Ona) şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı.** " (Ənam:88). Uca Allah buyurur: "**Müşriklər küfr etdiklərini bildikləri halda, (onlara )Allahın məscidlərini abadlaşdırmaq yaramaz. Onların əməlləri puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar.**" (Tövbə:17). Və hər kim ki, bu əməl üzərində ölərsə, bağışlanmaz və cənnət ona haram olar. Uca Allah buyrur: "**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar**" (Nisa:48). Və buyurur: "**Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır.** " (Maidə:72).

Bu şirkin növlərindən: Ölülərə və bütlərə dua etmək, onlardan kömək istəmək, onlar üçün nəzir demək, onlar üçün qurban kəsmək və s.

**Kiçik şirk**: Quran və sünnədə şirk adlandırılan lakin böyük şirk qisminə daxil olmayan. Məsələn, ibadətlərin bir hissəsi ilə özünü göstərmək, Allahdan qeyrisinə and içmək, “Allah və filankəs istəsə” demək və s.

Necə ki Peyğəmbər ﷺ buyurub: " Sizin üçün ən çox qorxduğum şey kiçik şirkdir". Bu barədə ondan soruşduqda dedi: "Bu riyadır".

O ﷺ deyib: "Kim Allahdan başqasına and içərsə şirk etmişdir".

O ﷺ deyib: "Allah və filankəs istəsə deməyin lakin Allah sonra filankəs istəsə deyin" (Hədisi Abu Davud, Huzeyfə ibn Yəməndən səhih isnadla rəvayət etmişdir). Bu insanı dindən çıxarmır, nə də cəhənnəmdə əbədi qalmağı zəruri etmir, lakin vacib tövhidin kamilliyinə xələl gətirir.

**Gizli şirk**: Buna dəlil Peyğəmbərin ﷺ bu sözüdür: " Sizin üçün Məsih Dəccaldan daha çox qorxduğum məsələ haqqında sizə xəbər verimmi? Əlbətdə Ey Allahın Elçisi! Deyə cavab verdilər. O ﷺ dedi: "Bu gizli şirkdir; Bir kişi namaz üçün durur, insanların ona baxdığına görə namazını gözəlləşdirir".

Şirki iki yerə də bölmək olar: Böyük və Kiçik şirk. Gizli şirk isə onların hər ikisində də ola bilər.

Böyük şirkdə: Münafiqlərin şirki kimi, Onlar batil əqidələrin gizlədirlər və özlərini riyakarlıqla və canlarından qorxduqlarına görə müsəlman kimi göstərirdilər.

Kiçik şirkdə: Riya kimi, yuxarıdakı hədisdə qeyd olunduğu kimi Müsəlmanların ibadətlərinin bir hissəsi ilə özünü göstərmələri kimi.

**Haramların növləri**

| **Kiçik günah:** | **Böyük günah:** | **Kiçik şirk:** | **Böyük şirk:** |
|---|---|---|---|
| Şəriətin haram etdiyi lakin xüsusi bir cəza nəzərdə tutulmayan günah. | Bu, lənətlənmək, qovulmaq, kafir və ya müşriklərdən olması möminlərdən olmaması kimi xüsusi cəza nəzərdə tutulmuş hər bir günah. | Böyük şirkdən aşağıdır amma böyük günahdan daha şiddətlidir | Haramların ən böyüyüdür . |

**Böyük Günahlar:**

| **Sayı?** | **Onu edənin hökmü** | **Mərtəbələri** | **Hökmü** |
|---|---|---|---|
| Sayı təyin olunmayıb lakin yuxarıda vəsfləri təyin olunub | -Mömindir lakin imanı naqisdir və ya İmanına görə mömin günahına görə isə fasiqdir<br>-İmanının miqdarına görə sevgi günahının miqdarına görə nifrət bəslənilir<br>-Böyük günah etdiyi müddətcə onunla dostluq edilmir. | Dəyişir, necə ki,Peyğəmbər ﷺ demişdir: "Sizə böyük günahların ən böyüyü barədə xəbər verimmi…" (Buxari/ Müslim) | Tövbə etmək lazımdır: ﷺPeyğəmbər demişdir: “Əzadar qadın, əgər ölməzdən əvvəl tövbə etməsə...” (Müslim). Başqa hədisdə “...əgər böyük günahlardan çəkinsələr. (Müslim). |

## Böyük şirklə kiçik şirk arasındakı fərq

| Böyük şirk | Kiçik şirk |
|---|---|
| 1. İslamdan çıxarır | 1. İslamdan çıxarmır |
| 2. Bütün əməlləri puç edir. | 2. Bütün əməlləri deyil, yalnız şirk edilən əməli puç edir |
| 3. Cəhənnəmdə əbədi qalmağı vacib edir. | 3. Cəhənnəmdə əbədi qalmağı vacib etmir. |
| 4. Qanı və malı müsəlman rəhbərə halal edir. | 4. Qanı və malı müsəlman rəhbərə halal etmir. |
| 5. Əgər dəlil varsa ki, bu böyük şirkdir. | 5. Əgər dəlil varsa ki, bu kiçik şirkdir |
| 6. Və etiqad etsə ki, səbəbin kainatda gizli idarəetmə rolu var | 6. Allahın səbəb olaraq təyin etmədiyini səbəb seçmək. |
| 7. Bunun üzərində ölərsə bağışlanmaz. | 7. Böyük şirkə aparan hər bir yol kiçik şirkdir. |
| 8. Tövbə edərsə Allah tövbəsini bağışlayar, yalnız iki haldan başqa:<br>Biri günəş, günbatandan çıxarsa<br>İkincisi isə ölüm xırıltısı gəldiyi zaman | 8. Şəriətin şirk və ya küfr adlandırdığı və (Əlif ləmsiz) qeyri müəyyənlikdə gələn hər şey, nə qədər ki, dəlil böyük şirk olduğuna dəlalət etməyib, kiçik şirkdir. |

# Beşinci dərs

## *Ehsan*

Ehsan rükunu: Allaha sanki Onu görürsən kimi ibadət etməkdir, əslində biz Onu görməsək də, O, bizi görür.

***Ehsan***

Bir rükundur, bunun altına isə iki rükun daxildir:

**Müşahədə ibadəti**

Rəğbət, sevgi və Allah yanında olana həsrətin ibadətidir və bu, peyğəmbərlərin və elçilərin ibadətidir. Necə ki, Peyğəmbər (salləllahu aleyhi və səlləm) buyurmuşdur: “Məgər mən şükür edən bəndə olmayımmı?” Deməli, ibadətin səbəbi qorxunun varlığı ilə Allahın hazırladığı şeylərə rəğbət, sevgi və həsrətdir.

**İzləmə ibadəti**

Qorxaraq və qaçaraq edilən bir ibadətdir. Müsəlman bu dairədən kənara çıxmaz.

# *Tövhid barədə suallar*

**1**. Dinin neçə mərtəbəsi var? O Üç O İki O Beş.

**2**. İslamın neçə rüknu var? O Beş. O Altı. O Yeddi.

**3**. İslam imandan daha yüksək mərtəbədir. ( Doğrudur – Səhvdir).

**4**. İxlas şəhadətinin neçə rüknu var?
O Yeddi. O Səkkiz. O İki.

**5**. **Lə iləhə illəllahın** neçə şərti var? O Səkkiz. O Yeddi. O Beş.

**6**. **Lə iləhə illəllah** kəliməsinin şərti olan **elmin** mənası nədir:

O Bir şeyi olduğu kimi dərk etmək. O Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur.

**7**. İslamı eşitmiş və hələ də müsəlman olmamış kimsənin küfründə şəkk edərsə onun hökmü…

O Böyük küfr etmişdir. O Əgər yəqinliyi şübhəsindən böyükdürsə, küfr etməmişdir.

**8**. **Lə iləhə illəllah** kəliməsinin şərti olan **qəbulun** mənası nəyi qəbul etməkdir?
O Sözü. O Əməli. O Etiqadı. O Qeyd olunanların hamısı

**9**. **Lə iləhə illəllah** kəliməsində riya etmək sədəqədə riya etmək kimi kiçik şirkdir ( Doğrudur – Səhvdir).

**10**. Kim dili ilə **Lə iləhə illəllah** deyərsə amma qəlbi bunu təsdiqləməzsə O...
OTövhid əhlidir. OMüsəlmandır mömin deyil. OKafirdir. Oİmanı zəifdir.

**11**. Peyğəmbəri Allahı sevdiyi kimi (yəni bərabər sevgi ilə) sevmək:
O Böyük küfrdür. O Kiçik küfrdür. O Böyük günahdır.

**12**. Sevginin neçə qismi var? O Dörd. O Üç. O İki.

**13**. Allah üçün olan sevgi əmələ, əməli edənə, zamana və məkana görədir (Doğrudur – Səhvdir).

**14**. Bir kəsi Allahı sevdiyi kimi sevməyin hökmü …

O Kiçik şirkdir.O Vacibdir. O Böyük şirkdir.

**15**. Allah üçün sevməyin hökmü…O İcazəlidir. O Vacibdir.O Böyük şirkdir.

**16**. Allaha qulluğun neçə qismi var? O 2 O 3 O 4

**17**. Hər məxluq məcburi qulluq (ağalıq) baxımından Allahın quludur, hətta kafirlər də. (Doğrudur – Səhvdir).

**18**. Əgər **Lə iləhə illəllah** desə və əməlləri tamamilə tərk etsə, namaz qılmasa və ibadətlərdən heç birini yerinə yetirməsə, bu kəlimə ona:

.O Fayda verəcək. O Fayda verməyəcək.

**19**. Şəhadət kəliməsində olan (Qulu və elçisidir) kəliməsi: Yəni Quldur ibadət olunmaz, Elçidir yalan saymaq olmaz. (Doğrudur – Səhvdir).

**20**. (Muhəmmədin Onun qulu və Elçisidir) Şəhadətində, *Əmr etdiyində ona itaət etmək və xəbər verdikdə ona inanmaq...*

O Bu onun mənasıdır O Bu onun tələbidir.

**21**. Kim Peyğəmbərə ﷺ rəbblik xüsusiyyətindən hər hansı bir pay verərsə, onun qul olduğuna şəhadət verməmiş olar. (Doğrudur – Səhvdir).

**22**. Peyğəmbərin ﷺ ən üstün vəsfi...

O Allahın elçisidir O Qulu və Elçisidir. O Peyğəmbərlərin sonuncusudur.

**23**. "Kim İslamda yaxşı hesab etdiyi bir bidət edərsə, Məhəmmədin ﷺ risalətə xəyanət etdiyini iddia etmişdir, çünki Uca Allah buyurur: **"Bu gün sizin üçün dininizi kamilləşdirdim"** O vaxt din olmayan şey bu gün də din deyildir" Bu söz kimindir? O İbn Teymiyyə O İbn Baz O İmam Malik

**24**. Məhəmməd ﷺ hansı peyğəmbərin nəslindəndir… O İshaq O İsmayıl

**25**. Boşluqları doldur: Peyğəmbər ﷺ ……… ilində ………şəhərində doğulub, O ﷺ …….il yaşayıb. Bunun………ilini peyğəmbərlikdən öncə, …… ilini isə Peyğəmbər və Elçi olaraq yaşayıb. O ﷺ ……………..kəliməsi ilə peyğəmbər oldu, ………..kəliməsi ilə Elçi oldu.

**26**. Peyğəmbər ﷺ kimlərə göndərilib: O Öz qövmünə O İnsanlara O İnsanlar və Cinlərə.

**27**. Merac Peyğəmbərin ﷺ Məkkədən Qüds evinə getməsidir (Doğrudur – Səhvdir).

**28**. Peyğəmbər ﷺ bura hicrət etdi…

O Taif O Efiopia O Mədinə O Qeyd olunanların hamısı.

**29**. Peyğəmbərin ﷺ ən önəmli neçə döyüşü olub?

O Bir O İki O Üç O Dörd O Beş.

**30**. Peyğəmbərin ﷺ neçə övladı olub?

O İki O Dörd O Yeddi.

**31**. Peyğəmbər ﷺ vida həccini yerinə yetirdi və bu, onun bundan əvvəl həcc ziyarəti etdiyinə dəlalət edir. (Doğrudur – Səhvdir).

**32**. Peyğəmbərin ﷺ Həyatını oxumaq…

O Vacibdir O Müstəhəbdir O İcazəlidir.

**33**. Boşluqları doldur: İmanın şərii mənası, …………ilə demək, …………..ilə etiqar etmək, …………….ilə əməl etməkdir. …………ilə artır, ………ilə azalır.

**34**. İmanın neçə rüknü var? O Altı O Beş O Dörd.

**35**. Allaha iman neçə məsələyə iman etməyi özündə gərəkdirir?

O Dörd O Üç O İki

**36**. Allahın varlığına ümumi dəlillər nə qədərdir? O Dörd O Saysız

**37**. Mikayıl yağış ilə vəzifələnmiş mələkdir (Doğrudur – Səhvdir).

**38**. İnsanlarda qəlb var amma mələklərdə yoxdur (Doğrudur – Səhvdir).

**39**. Adlarını bildiyimiz neçə səmavi kitab var?

O Altı O Dörd O Yeddi O Çoxdur

**40**. Allah hər bir peyğəmbərə kitab nazil etmişdir (Doğrudur – Səhvdir).

**41**. Elçilərin ən birincisi Adəmdir (Allahın ona salamı olsun) (Doğrudur – Səhvdir).

**42**. Məhəmməd ﷺ Elçidir Peyğəmbər deyil (Doğrudur – Səhvdir).

**43**. Ulul-Əzm peyğəmbərlər neçədir?

O Beş O Dörd O Çoxdur

**44**. Qiyamət gününə iman gətirmək ölümdən sonra insanlar qəbirlərindən dirildilənə qədər baş verəcək hər şeyə iman etməyi özündə ehtiva edir. (Doğrudur – Səhvdir).

**45**. Qəza və Qədərin neçə mərtəbəsi var? O Dörd O Beş O Üç

**46**. Allah hər bir şeyi baş verməmiş bilirmi? ( Bəli – Xeyr).

**47**. İnsanların bildiyi hər bir şeyi Allah bilirmi? ( Bəli – Xeyr).

**48**. İnsanların bildiyi hər bir şeyi Allah yazıbmı? ( Bəli – Xeyr).

**49**. Qulun müstəqil iradə və istəyi var, istədiyini edir (Doğrudur – Səhvdir).

**50**. Qulların əməlləri məxluqdurmu? ( Bəli – Xeyr).

**51**. *Tövhid* neçə qismə bölünür?

O İki O Üç O Bununla bağlı heç bir mübahisə yoxdur

**52**. Böyük şirklə kiçik şirkin arasında olan beş fərqi qeyd et.

1- ………………………………………………………………………..

2-…………………………………………………………………………...

3-…………………………………………………………………………...

4-…………………………………………………………………………...

5-…………………………………………………………………………...

**53**. Böyük və kiçik şirk barəsində beş misal qeyd et.

| Böyük şirk | Kiçik şirk |
|---|---|
| ……………………………………… | ……………………………………… |
| ……………………………………… | ……………………………………… |
| ……………………………………… | ……………………………………… |
| ……………………………………… | ……………………………………… |
| ……………………………………… | ……………………………………… |

**54**. Etiqadda olan nifaq kiçik şirkdir, islamdan çıxarmır (Doğrudur – Səhvdir).

**55**. Ehsan özündə neçə rüknu ehtiva edir?

O Bir rükun O İki rükun

# Altıncı dərs

## Namazın şərtləri

**Namazın doqquz şərti var:**

1. İslam 2. Ağıl 3. Təmyiz (Ayırd etmə vaxtı) 4. Hədəsi aradan qaldırmaq 5. Nəcasəti aradan qaldırmaq 6. Övrəti bağlamaq 7. Vaxtın daxil olması 8. Qibləyə yönlənmək 9. Niyyət

## Birinci şərt: İslam

Küfrün əksi. Əgər bir kəs namaz qıldığı halda belə Allahı söyərsə və ya Ondan qeyrisinə ibadət edərsə, tövbə etmədikcə namazı batildir.

## İkinci şərt: Ağıl

Dəliliyin əksi. Sərxoş da bura aiddir.

## Üçüncü şərt: Təmyiz (Ayırd etmə vaxtı)

Bu həddibuluğ yaşı deyil. Bunun mənası bəzi şeyləri ayırd etməkdir; Sual-cavab etməyi bilir. Bunun xüsusi bir yaşı yoxdur, Lakin çox vaxt yeddi yaşlı uşaq ayırd edə bilir.

**Uşaqın namazı nə zaman doğrudur?** Bəzi şeyləri ayırd edə bilirsə, sual-cavab edə bilirsə, odla suyu ayırd edə bilirsə namazı doğrudur, yoxsa doğru deyil.

**Dördüncü şərt: Hədəsi aradan qaldırmaq.** bura daxildir:

**Böyük hədəs**
Qüsl almaqla aradan qalxır.

**Kiçik hədəs**
Dəstəmaz almaqla aradan qalxır.

**Beşinci şərt: Nəcasəti aradan qaldırmaq**

Bədəndən, yerdən və paltardan. Üzərində nəcasətin olduğunu bilə-bilə və onu aradan qaldıra bildiyi halda eləcə də bunu xatırlayaraq namaz qılarsa, namazı batildir. Nəcasəti aradan qaldırmaq üç qismə bölünür:

**Qəliz:**
Bu itin nəcisidir. Peyğəmbər ﷺ buyurmuşdur: "Əgər it qabı yalayarsa, birincisi torpaq olmaqla qab yeddi dəfə yuyulmalıdır. (Muslim.)

**Yüngül:**
Yalnız su çiləmə üsulu ilə sıxmadan çıxarılır, Bu yemək yeməyən uşağın sidiyinə, böyüklərdə isə (baxmayaraq ki nəcis deyil) məzi və məniyə aiddir.
Peyğəmbər ﷺ ona yaş olduğu halda su səpər, quruyanda isə ovuşdurub təmizləyərdi.

**Orta:**
Yuyularaq suyu sıxılaraq çıxarılır. Bu qəliz və yüngül növə daxil deyil. Bura, kişi və qadının sidiyi və nəcisi aiddir.

## Nəcasət anlamı

İnsanın sidiyi və nəcisi, əti yeyilməsi icazəli olmayan heyvanların sidiyi və peyini nəcisdir. Pişik, qatır və eşşək kimi qorunmaq çətin olanlardan başqa bütün yırtıcılar nəcisdir. Kəsildikdən sonra heyvandan axan qan və arxa və öndən çıxan qan. İnsanın ölüsü, axar nəfsi (qanı) olmayanlar, dənizdə ölən balıqlar və çəyirtkələr istisna olmaqla bütün ölülər nəcisdirlər.

## Altıncı şərt: Övrəti bağlamaq

Övrət üç növdür:

**Yüngül:** Yeddi-on yaş arası kişinin övrətidir və ən azı cinsiyyət orqanını örtməsi şərtdir.

**Qəliz:** Azad, həddi-buluğa çatmış qadının övrətidir, üzdən başqa bütün bədənini örtməli, üzünü isə naməhrəmlərin yanında .örtməlidir

**Orta:** Yerdə qalan hamısına aiddir, bunlar göbəkdən dizə qədər hər yeri örtməlidirlər. Bütün zinətlərini qorumaq üçün çiyindən aşağını da örtməlidirlər.

## Yeddinci şərt: Vaxtın daxil olması

Namazın vaxtından öncə və ya sonra qılınan namaz səhih deyil, yalnız üzürlü səbəbdən namazları birləşdirəndən başqa (müsafir və xəstə kimi). Əgər namazı bilərəkdən vaxtından gecikdirərsə, günah qazanır.

## Səkkizinci şərt: Qibləyə yönlənmək

Səfərdə nafilə namazı istisnadır; nəqliyyat vasitəsi hansı tərəfə gedirsə, o tərəfə namaz qılır, buna misal təyyarədə gedərkən nafilə namazı qılmaq. Və eləcə də qibləyə yönələ bilməyənlər və ya düşmənlə qarşılaşan vaxtı qılınan namazlar da istisnadır.

## Doqquzuncu şərt: Niyyət

Onun yeri qəlbdir və onu dil ilə tələffüz etmək bidətdir, Əgər namazdan əvvəl müəyyən vaxtda hər hansı bir fərz namazı üçün niyyət edərsə namazı səhih olar.

## Mühüm xatırlama

1- İstər qəsdən, istər cəhalətdən, istərsə də unutqanlıqdan şərti tərk etmək məqbul deyil; yalnız kimsə bilmədən və ya unudaraq nəcasətlə namaz qılarsa bu istisnadır, bunun namazı səhihdir. Çünki bu əməl deyil tərk etməkdir.

2- Şərtlər ibadətdən kənardadır və ibadətdən əvvəl olmalıdır və ibadətin sonuna qədər şərt pozulmamalıdır.

# Yeddinci dərs

**Namazın rükunları**

Namazın on dörd rükunu var:

1- Ayaq üstə durmaq (bacarırsansa). 2- Ehram təkbiri. 3- Fatihəni oxumaq. 4- Ruku etmək. 5- Rukudan sonra tam qalxmaq. 6- Yeddi əza üzərində səcdə etmək. 7- Səcdədən qalxmaq. 8- İki səcdə arasında oturmaq. 9- Bütün əməllərdə rahatlıq. 10- Rükunlar arasında tərtibat. 11- Sonuncu təşəhhüd. 12- Sonuncu təşəhhüddə oturmaq. 13- Peyğəmbərə ﷺ salavat. 14- İki tərəfə salam.

## Birinci rükun: Ayaq üstə durmaq (bacarırsansa)

**Fərz namazlarında:**

Ayaq üstə durmaq fərz namazlarının rükunudur. İnsan heç ayaq üstə dayana bilmirsə və ya ayaq üstə dura bilsə də, xuşusunu itirirsə, bu rükun düşür. Əgər namazın bir hissəsində belə ayaq üstə durmağa qadir olsa, ayaq üstə qılmalıdır.

**Nafilə namazlarında:**

Oturaraq nafilə namazı qılarsa, namazı səhihdir, lakin savabı ayaq üstə namaz qılanın yarısı qədərdir. Əgər uzanaraq nafilə namazı qılarsa, savabı oturaraq qılanın savabının yarısı qədərdir

## İkinci rükun: Ehram təkbiri

**“Allahu Əkbər”** sözündən başqa heçnə onu əvəz etmir.

## Üçüncü rükun: Fatihəni oxumaq

Namazın hər rükətində, istər səssiz, istərsə də səsli rükətlərdə tam, ayələrini tərtibatlı şəkildə, hərifləri və kəlimələri doğru şəkildə oxunmalıdır.

## Doqquzuncu rükun: Bütün əməllərdə rahatlıq

Namazda rahatlıq hər rükunda olan vacib kəlimələri deməklə olur.

## Mühüm xatırlama

Rükunlar namazın daxilində olur. Əgər rükunlardən hər hansı biri qəsdən, cahillikdən və ya unutqanlıqdan tərk olunarsa, namaz səhih olmaz, bu halda səhv səcdəsi etmir, hazırkı namazı təkrar qılır. Amma keçmişdə bəzi rüknləri tərk edərək qıldığı namazlara gəlincə, onlar üzrlüdür. Çünki O ﷺ, namazını düz qılmayana bütün namazları təkrar qılmağı əmr etməmişdi, ona hazırkı namazı təkrar qılmağı əmr etmişdir. Baxmayaraq ki, O, rahatlıq rükununu tərk etdi. Allah daha doğrusun bilir.

# Səkkizinci dərs

## Namazın vacibatları

**Namazın vacibatları səkkizdir:**

1- Ehram təkbirindən başqa bütün təkbirlər.

2- İmama və tək namaz qılana "Səmiallahu limən həmidəh" kəliməsini demək.

3. Hər kəsin "Rabbənə və ləkəl-Həmd" kəliməsini deməsi.

4. Rukuda: "Subhənə rabbiyəl-Azim" demək.

5. Səcdədə: "Subhənə rabbiyəl-Əla" demək.

6. İki səcdə arasında: "Rabbiğfir li" demək.

7. Birinci təşəhhüd.

8. Birinci təşəhhüd üçün oturmaq.

## Mühüm xatırlama

Rükuda **"Subhənə rabbiyəl-Azim"** demək vacibdir, sonra səhih hədislərdə gələn başqa duaları söyləmək müstəhəbdir. Həmçinin səcdədə olarkən **"Subhənə rabbiyəl-Əla"** demək vacibdir, sonra səhih hədislərdə gələn başqa duaları söyləmək müstəhəbdir.

# Doqquzuncu dərs

**Təşəhhüd barəsində**

Təşəhhüdün bəyanı: " *Əttəhiyyətu lilləhi vəs-salavatu vət-tayyibatu Əssəlamu aleykə eyyuhən-nəbiyyu və rahmətullahi və barəkətuhu. Əssələmu aleynə və alə ibədilləhis-salihin Əşhədu ənlə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu və aşhədu ənnə Muhəmmədən abduhu və rasuluhu*". Sonra Peyğəmbərə ﷺ salavat və bərəkət arzulayaraq deyir ki: " *Allahummə salli alə Muhəmmədin və alə əli Muhəmməd Kəmə salleytə alə İbrahimə və alə əli İbrahim innəkə həmidun Məcid, və bərik alə Muhəmmədin və alə əli Muhəmməd kəmə bəraktə alə İbrahimə və alə əli İbrahim innəkə həmidun məcid*". Sonra axırıncı təşəhhüddə cəhənnəm əzabından, qəbir əzabından, həyatın və ölümün fitnəsindən və yalançı məsihin fitnəsinin şərindən Allaha sığınır. Sonra hər hansı bir duanı edir, xüsusən də Peyğəmbərdən gələn duaları edir: "*Allahım sənə zikr etməyə şükr etməyə və gözəl ibadət etməyə mənə yardım et. Allahım mən nəfsimə çox zülm etmişəm, günahları yalnız sən bağışlayırsan, Səndən olan bir məğfirətlə məni bağışla, Mənə rəhm et, Həqiqətən sən bağışlayan və rəhimlisən*".

Birinci təşəhhüdə gəlincə, O, zöhr, əsr, məğrib və işa namazlarında şəhadətdən sonra üçüncü rükətə qalxır. Peyğəmbərə ﷺ salavat gətirməsi ümumi gələn hədislərə görə daha fəzilətlidir, sonra üçüncü rükətə qalxır.

# Onuncu dərs

**Namazın sünnələri**

1- Açılış duası

2- Rükudan əvvəl və sonra ayaq qiyamda sağ əli sol əlin üzərində sinəyə qoymaq.

3- İlk təkbirdə, rükuya gedərkən və ordan qalxarkən və üçüncü rükətə qalxarkən barmaqları birləşdirib açıq şəkildə, çiyinlər və ya qulaqlar səviyyəsində əlləri qaldırmaq.

4. Rüku və səcdədə edilən zikirləri birdən çox söyləmək.

5. Rükudan qalxdıqdan sonra: “Rabbənə va ləkəl-Həmd” kəliməsindən əlavə zikirlər etmək və iki səcdə arasında bağışlanma duasını birdən çox demək.

6- Rukuda başı bel ilə eyni səviyyədə tutmaq.

7- Səcdə edərkən dirsəkləri yanlardan, qarnı buddan, budları baldırdan aralı saxlamaq.

8- Səcdə edərkən dirsəkləri yerdən aralı saxlamaq.

9- Birinci təşəhüddə və iki səcdə arasında sağ ayağını düz saxlayır və sol ayaqını yatıraraq onun üstündə oturur.

10-Üç və dörd rükətli namazlarda təvərruk şəklində oturmaq; Bu da, sağ ayağını qaldıraraq sol ayağını sağın altına qoymaq və yerdə oturmaq

11- Birinci və ikinci təşəhüddə oturduğu andan təşəhüdün sonuna kimi şəhadət barmağını qaldırmaq, dua edərkən isə onu hərəkət etdirmək.

12- Birinci təşəhüddə Peyğəmbərimizə və onun ailəsinə, həmçinin İbrahim və ailəsinə bərəkət və salavat göndərmək.

13- Axırıncı təşəhhüddə dua etmək.

14- Sübh, Cümə, Bayram, və "İstisqa" namazında və İşa və Məğribin ilk iki rükətində yüksək səslə oxumaq.

15- Zöhr və əsr namazında, məğribin üçüncü rükəti və işanın son iki rəkətində səssiz oxumaq.

16- Fatihə surəsindən əlavə Qurandan başqa surə oxumaq.

Həmçinin rüku zamanı barmaqları dizlər üzərində saxlamaq və rukudan qalxdıqda "Rabbənə va ləkəl-Həmd" kəliməsindən əlavə zikirlər etmək kimi digər müstəhəbb əməllər də nəql edilmişdir.

## Açılış duası

Açılış duası ehram (birinci) təkbirindən sonra Peyğəmbərdən ﷺ gələn dualarla olur, bunlar: **«Allahummə bəid beyni va beynə xatayəyə kəmə bəadtə beynə-l-məşriqi va-l-məğribi, Allahummə nəqqini min xatayəyə kəmə yunəqqa-s-saubu-l-abyədu minə-d-dənəsi, Allahummə-ğsilni min xatayəyə bi-s-səlci va-l-məi va-l-bəradi»** "(Allahım! Gün doğanla gün batanı uzaqlaşdırdığın kimi məni də günahlarımdan (xatalarımdan) uzaqlaşdır. Allahım! Ağ paltar kirdən təmizləndiyi kimi məni də günahlarımdan təmizlə. Allahım! Mənim günahlarımı qar ilə, su ilə, dolu ilə yu). Və ya bu dua: **«Subhanəkə-llahummə va bihəmdik, va təbərakə ismuk, va təalə cədduk, va lə iləhə ğeyruk»** (Nöqsansız və Həmd sahibi olan Allahım! Adın mübarək, və əzəmətin ucadır, Səndən başqa ibadətə və itaətə layiq haqq məbud yoxdur)

# On birinci dərs

**Namazı batil edən əməllər**

Namazı batil edən əməllər səkkizdir:

1- Bildiyin və xatırladığın halda qəsdən danışmaq: Unudan və bilməyənin namazı bununla batil olmur. 2- Gülmək. 3- Yemək. 4- İçmək. 5- Övrətin açılması. 6- Qiblədən başqa yerə yönəlmək. 7- Namaz əsnasında davamlı lazımsız hərəkətlər etmək. 8- Dəstəmazın (və ya qüslun) pozulması.

**Birinci batil edən əməl:** Bildiyin və xatırladığın halda qəsdən danışmaq

İmam unutduqda və ya səhv etdikdə ona kömək edən şəxs istisnadır.

## Namazda hərəkət etməyin hökmü

| Haram olan hərəkət: | Bəyənilməyən hərəkət: | Mübah hərəkət: | Müstəhəb hərəkət: | Vacib hərəkət: |
|---|---|---|---|---|
| Bu da çoxlu davamlı lazımsız hərəkətlər etməkdir; Yemək kimi | Ehtiyac olmadan az hərəkət etmək; azca yana baxmaq kimi. | Ehtiyac olduqda olan hərəkət; qaşımaq kimi. | Namazın kamilliyi ona bağlı olan hərəkət; boşluğu doldurmaq kimi. | Namazın səhihliyinə bağlı olan hərəkət; Nəcasəti aradan qaldırmaq kimi. |

## Mühüm xatırlama

Namazın şərtləri, rüknləri, vacibatları və sünnələri keçdi, bunlar arasında fərq nədir?

<table>
<tr><th>Sünnə</th><th>Vacib</th><th>Rükun</th><th>Şərt</th></tr>
<tr><td colspan="3">İbadətin daxilində olur</td><td>İbadətdən kənarda olur</td></tr>
<tr><td colspan="3">İbadətlərin bir hissəsində olur</td><td>O, ibadətin tamamında olur</td></tr>
<tr><td>Burada qəsd, cahillik və unutqanlıq üzrlüdür</td><td>Burada cahillik və unutqanlıq üzrlüdür, qəsd yox</td><td colspan="2">Burada qəsd, cahillik və unutqanlıq üzrlü deyil.</td></tr>
<tr><td></td><td>Səhv səcdəsi vacibdir</td><td>Səhv səcdəsi vacib deyil</td><td>Səhv səcdəsi yoxdur</td></tr>
</table>

**Səhv səcdəsi**

Səhv səcdəsinin üç səbəbi var:

| Şəkk: | Əksiltmə: | Artırma: |
| --- | --- | --- |
| Neçənci rükətdə olduğuna tərəddüd edərkən: üçdədir yoxsa dörddə. Bu da iki növdür: | Məsələn, namazın vaciblərindən birini əskik etməsi və ya yerində etməməsi kimi | Məsələn, insanın rüku, səcdə, qiyam və ya oturuşu artırması kimi. |

| İbadətin içində olan şəkk: | İbadətdən sonra olan şəkk: |
| --- | --- |
| Əgər çox olarsa, buna əhəmiyyət verilmir. Əgər azdırsa, böyük ehtimalın üzərində durur, əgər ehtimalların ikisidə bərabərdirsə, azın üzərində durur. | Tam əmin olmayınca buna əhəmiyyət vermir. |

Xatırlama:

- Əgər namaz qılan səhv səcdəsində səhv edərsə, ona heçnə yoxdur və namazı səhihdir.
- Əgər namaz qılan bir rükunu tərk edərsə, onu və ondan sonra gələnləri yenidən yerinə yetirməyincə və səhv səcdəsi etmədikcə namaz səhih olmaz.
- Əgər namaz qılan bir vacibi səhvən tərk edərsə və o vacibin yeri artıq keçərsə səhv səcdə etməlidir.

## Namazın qısa və şəkilli vəsfi

- Müsəlman ilk növbədə evdə dəstəmaz almalı və ən gözəl paltarı geyinməlidir.

- Sonra sükunətlə tələsmədən, qaçmadan, arxaya dönmədən və səsini yüksəltmədən sakitcə Məscidə getməlidir.




- Məscidə çatan kimi ayaqqabıları çıxarıb rəfə qoyur onunla bərabər dünya işlərini də oradaqoyur; Məsciddə alqı-satqı və itmiş əşyaları elan etmək qadağandır.

-Sağ ayaq ilə məscidə daxil olur və deyir: " ***Bismilləh, vəs-səlatu vəs-səlamu alə Rasulilləh Allahumməftəh liy əbvabə rahmətikə*** ". Sol ayağı ilə oradan çıxır və deyir: " ***Bismilləh, vəs-səlatu vəs-səlamu alə Rasulilləh Allahummə inni əsəlukə min fədlik***"

- Məscidə girəndə kişilər birinci sıralara, qadınlar isə arxaya keçirlər.

- Əgər namaz başlayıbsa, ehram təkbirini deyib, İmam hansı məqamda olursa-olsun ona qoşulur. Rükət imama qiyamda və ya rükuda yetişməklə sayılır və imam salam verdikdə isə qılmadığı rükətləri tamamlayır.

- Əgər məscidə daxil olduqda hələ namaz qılınmamışsa, oturmadan əvvəl ratibə (sünnə) namazı qılmalıdır. Əgər namazdan əvvəl ratibə (sünnə) namazı yoxdursa, oturmadan əvvəl təhiyyə (salamlama) namazı qılır.
- Namazın tez başlanması üçün tez-tez saata baxaraq və ya öskürərək məscidin müqəddəsliyini pozmaq olmaz.
- İmama və ya tək namaz qılanın bir sütrəyə tərəf namaz qılması müstəhəbbdir. İmamın sütrəsi, arxasında namaz qılanlar üçün kifayətdir.



- Ayaqüstə olanda ayaqlar arasındakı məsafə çiyinlər arasındakı məsafə qədər olmalıdır; nə çox, nə də az. Ayaqların xarici hissəsini düz etmək lazımdır.



- Namazın şərtlərini yerinə yetirdikdən sonra əllərinin barmaqlarını birləşdirərək qulaq və ya çiyin səviyyəsinə qaldıraraq, ovucların içini qibləyə yönəldərək **“Allahu Əkbər”** deyir.



- Sonra sağ ovucunun içini sol ovucunun və ya biləyinin və ya qolunun üzərinə qoyur və ya tutur.



- Gözünü səcdə etdiyi yerə yönləndirir və qırağa baxmır.





- Açılış duasını yalnız birinci rükətdə oxuması müstəhəbdir və daha yaxşı olar ki, açılış dualarını sünnədə gələn dualar arasında növbə ilə dəyişərək oxusun.

-Sonra şeytandan Allaha sığınaraq bu zikri eləyir: **"Əuzu billəhi minəş-şeytanir-racim"**.

-Sonra bəsmələ çəkib belə detir: **"Bismilləhir-Rahmənir-Rahim"**.

-Sonra Fatihə surəsini tam, ayələrini tərtibatlı şəkildə, hərifləri və kəlimələri doğru şəkildə oxuyur.

- Sonra sığınma duasını etmədən Qurandan bacardığı surəni oxuyur və yalnız surənin əvvəlində bəsmələ çəkir.

- Sonra ehram təkbirində əllərini qaldırdığı kimi əllərini qaldıraraq: **"Allahu Əkbər"** deyir və rükuya gedir.

- O, dizlərini tutur və dirsəklərini əymir və kürəyini başı ilə bərabərləşdirir.

- Və bir dəfə vacib olan bu kəlimani deyir: **"Subhənə rabbiyəl-Azim"** və buna əlavə sünnədə varid olan zikirləri deməkmüstəhəbbdir.



- Sonra ayağa qalxan zaman və tam ayağa qalxmazdan əvvəl **"Səmiallahu limən həmidəh"** deyir, əllər isə qulaq və ya çiyin səviyyəsinə qalxır.

-Tam qalxdıqda isə **“Rabbənə və ləkəl-Həmd”** zikrini bir dəfə deyir və sünnədə gələn zikirlərdən istədiyini əlavə edir.

- Əlləri qaldırmadan **“Allahu Əkbər”** deyir və yeddi əzaları üzərində səcdə edir: alın və burun, iki əlin ovucları, iki ayağın dizləri və iki ayaq barmaqlarının altı.

- Qoltuqları aralı saxlamalı, qolları qarın və buda, budu isə baldıra toxundurmamalı, qollarını yerdən qaldırmalıdır.



- Bir dəfə **"Subhənə Rabbiyəl-Ələ"** deməк vacibdir. Buna əlavə olaraq rəvayət olunan başqa zikr və ya dualar söyləmək müstəhəbdir. O səcdədə istədiyi duanı edə bilər amma sünnədə gələn dua ilə dua etməsi daha yaxşıdır.

- Sonra təkbir deyir və sol ayağını yan uzatdıraraq üstündə oturur, sağ ayağını isə düz saxlayır və sağ barmaqların altını yerə, barmaqlar isə qibləyə baxır, ovucları isə budların üzərinə qoyur. Bu oturuş namazın bütün oturuşlarına aiddir, yalnız üç və dörd rükətli namazların son təşəhhüdü istisnadır, burada təvərrük edilir (sol ayağ sağ ayağın altına qoyulur).



- Sonra **"Allahu Əkbər"** deyir və birinci səcdədəki kimi səcdə edir.

- Sonra təkbir deyir və ikinci rükətə qalxır və birinci rükətdə etdiyi kimi edir, yalnız ikinci rükətdə ehram təkbirini və açılış duasını oxumur.

- İkinci səcdəsini bitirdikdən sonra təşəhhüd üçün oturur.

- O, şəhadət barmağın qaldırır və orta və baş barmağını yumru tutur və onu hərəkət etdirərək dua edir.

- Sonra vacib olan təşəhhüdü deyir.

- Əgər iki rükətli namazdırsa, təşəhüddən sonra vacib olaraq İbrahim salavatını oxuyub dörd şeydən Allaha sığınır; **"Allahumə inni əuzu bikə min azəbi cəhənnəm ve min azəbil qabr və min fitnətil məhyə vəl məməti və min şərri fitnətil məsihid-dəccəl."**

“Allahım! Həqiqətən, mən cəhənṇəm əzabından, qəbir əzabından, həyatın və ölümün fitnəsindən və yalançı məsihin fitnəsinin şərindən Sənə sığınıram”

Sonra istədiyi duanı edir, amma sünnədə gələn bu duanı və ya başqasını etmək daha yaxşıdır: **“Allahummə əinni ələ zikrikə və şukrikə va husni ibədətik”** - “Allahım sənə zikr etməyə şükr etməyə və gözəl ibadət etməyə mənə yardım et.”



- Sonra çiyinləri ilə deyil, yalnız başını çevirərək, başı yuxarı-aşağı hərəkət etdirmədən, əlləri ilə işarə etmədən sağa və sola salam verir.



- Əgər üç və ya dörd rükətli namazdırsa, birinci təşəhüdü və müstəhəb olan İbrahim salavatını oxuduqdan sonra ayağa qalxır.
- Təkbir gətirir və üçüncü rükəti qılır, əgər üç rükətli namazdırsa təşəhhüdə oturur, dörd rükətli namazdırsa bir rükət qılıb sonuncu təşəhhüd üçün oturur.
- Təşəhüddü oxuyur, İbrahim salavatını oxuyur və dörd şeydən Allaha sığınır; **“Allahumə inni əuzu bikə min azəbi cəhənnəm ve min azəbil qabr və min fitnətil məhyə vəl məmati və min şərri fitnətil məsihid-dəccəl.”** Sonra istədiyi duanı edir, amma sünnədə gələn bu duanı və ya başqasını etmək daha yaxşıdır: **“Allahummə əinni ələ zikrikə və şukrikə va husni ibədətik”**
-Əgər fərz namazını qılırsa namazdan sonra olan zikirləri etmək daha fəzilətlidir.
-Üç dəfə **“Əstəğfirullah”** “Allahdan bağışlanma diləyirəm” deyib sonra: **"Allahummə əntəs salam və minkəs salam, təbarəktə ya zəl-cəlali vəl ikram".** “Ey Allahım, Sən bütün naqisliklərdən və eyiblərdən salamatsan. Əminamanlıq bəxş edən Sənsən. Ey qüvvət və lütf sahibi, Sən həqiqətən böyüksən” deyir.
- Sonra “**Sübhənəllah**”, “**Əlhəmdulilləh**”, “**Allahu əkbər**” kəlimələrini otuz üç dəfə deyir, bu doxsan doqquz edər. Yüzü tamamlamaq üçün isə bu zikri desin **“Lə iləhə illəllah vəhdəhu lə şərikə ləhu ləhul mulku və ləhul həmdu vəhuvə alə kulli şeyin qadir”,** “Allahdan başqa ibadətə layiq haqq olan məbud yoxdur. O təkdir, heç bir şəriki yoxdur. Mülk və həmd-səna Ona məxsusdur. O hər şeyə qadirdir”.
-Sonra Əyətul-Kursi-ni oxuyur: **"Allaahu ləə iləəhə illəə huvə-l-həyyu-l-qayyuum. Ləə tə'xuzuhuu sinətuv-valəə nəuvm. Ləhuu məə fis-səməəvaati va məə fil-ard. Mənn zəlləzii yəşfəu' i'ndəhuu illəə bi-iznih. Yə'ləmu məə beynə əydiihim va məə xalfəhum. Va ləə yuhiituunə bi-şey'im min i'lmihii illəə biməə şə-Ə' Vəsia' kursiyyuhus-səməəvaati val-ard. Va ləə yəuuduhuu h'ifzuhuməə, Va huvəl-Aliyyu-l-Aziim"**. (əl-Bəqərə, 255) sonra İxlas, Fələq və Nəs surələrini oxuyur.

## Mühüm xatırlama:

-Namazın səhihlik şərtlərindən biri də namazda örtülməsi vacib olan hissələri örtməkdir. Diqqət etmək lazımdır ki, namaz əsnasında həmin yerlər açıq olmasın, çünki buna görə namaz səhih olmaz.





- Əgər bir şəxs imamla namaz qılarsa, o şəxs tam olaraq onun sağ tərəfində dayanmalıdır, imamın yanında namaz qılarkən topuqlarını onunla eyni səviyyədə tutur nə geri nədə irəli çəkmir. Eyniylə başqa namaz qılanların yanında qılarkən də belə edir.



## Namaz barəsində qısaca

| Adı | Hökmü | Vaxtı | Sayı | Vəsfi |
|---|---|---|---|---|
| Cümə namazı | Fərz | Zöhr namazının vaxtı | İki rükət | Cümə namazı səsli qılınır və ən azı üç nəfər olarsa cümə qılınır. |
| Gün (ay) batan namazı | Fərdu kifəyə | Gün (ay) batdıqda | İki rükət | Gün (ay) batan namazı səsli qılınır və bir rükətdə iki ruku edilir. |
| Vitr namazı | Təkid olunmuş sünnə | İşa namazında sübh namazına kimi qılınır | Birdən on bir rütəkə kimi qılınır. | Bu ya:<br>-Bir rükət olur<br>-Üç bitişik rükət olur, yalnız sonunda təşəhhüd üçün oturur, ya da iki rükət qılıb salam verir sonra bir rükət qılır.<br>-Beş rütət olur, yalnız beşinci rükətdə təşəhhüdə oturur<br>-Yeddi rükət olur, yalnız yeddinci rükətdə təşəhhüdə oturur<br>- Doqquz rükət olur, yalnız səkkizinci rükətdə təşəhhüdə oturur salam vermədən doqquzuncu rükətə qalxır, rükəti |

| | | | | |
|---|---|---|---|---|
| | | | | tamamlayır<br>- İki-iki qılır, sonda bir rükət vitr qılır. |
| Sübhün sünnəsi (ratibəsi) | Təkid olunmuş sünnə | Sübhdən öncə qılınır | İki rükət | Birinci rükətdə Kəfirun, ikinci rükərdə isə İxlas surəsini oxuyur |
| Zöhrün sünnəsi (ratibəsi) | Sünnə | 4 rükət əvvəl, 2 rükət sonra qılınır | 2+4 | İki-iki ayrı qılınır. |
| Məğribin sünnəsi (ratibəsi) | Sünnə | Məğribdən sonra | İki rükət | Birinci rükətdə Kəfirun, ikinci rükərdə isə İxlas surəsini oxuyur |
| İşanın sünnəsi (ratibəsi) | Sünnə | İşadan sonra | İki rükət | |
| Təraveh | Sünnə | İşa namazında sübh namazına kimi | İkidən on rütəkə kimi | |
| Təhiyyətul məscid | Vacib | Məscidə daxil | İki rükət | |

| | | | | |
|---|---|---|---|---|
| | | olduqda qılınır | | |
| Duha | Sünnə | Günəş yüksələndən ortada olana kimi | İkidən səkkiz rütəkə kimi | |
| İstixarə | Sünnə | Nə vaxt istəsən | İki rükət | İstixarə duasını salamdan öncə edir. |
| Yağış namazı | Ehtiyac olduğu zaman sünnədir | Günəş bir nizə yüksəkliyinə qalxdıqda | İki rükət | Bayram namazı kimi, birinci rükətdə ehram təkbiri ilə bərabər yeddi təkbir gətirir, ikinci rükətdə isə, beş təkbir, keçid təkbiri bura daxil deyil |
| Bayram namazı | Sünnə | Günəş bir nizə yüksəkliyinə qalxdıqda | İki rükət və iki xütbə | Birinci rükətdə ehram təkbiri ilə bərabər yeddi təkbir gətirir, ikinci rükətdə isə, beş təkbir, keçid təkbiri bura daxil deyil |

Ümumi nafilə namazlarının qadağan olan vaxtları:

1) Sübh namazından günəş bir nizə yüksəkliyinə qalxana kimi.
2) Əsr namazından gün batana kimi.
3) Günəş səmanın ortasına çatandan səmanın ortasını keçənə kimi.

# Namaz barəsində suallar

1. Namazın şərtləri neçədir? O Doqquz O On bir O Səkkiz
2. Namazın şərtlərində olan İslam şərti səhvdir, çünki namazı yalnız müsəlman qılır ( Doğrudur – Səhvdir ).
3. Ayırd etmə çağı həddibuluğ çağıdır ( Doğrudur – Səhvdir ).
4. “Nəcasəti aradan qaldırmaq” bədəndən, yerdən və paltardan təmizləməyi əhatə edir ( Doğrudur – Səhvdir ).
5. Donuzun nəcisi hansı nəcasət növünə daxildir: O Qəliz O Orta
6. Məni (sperm) nəcisdir, çünki o çıxandan sonra qüsul vacib olur

   ( Doğrudur – Səhvdir ).
7. Üzərinə su tökməklə yumaqın arasında fərq yoxdur ( Doğrudur – Səhvdir ).
8. Ölülər hamısı nəcisdir ( Doğrudur – Səhvdir ).
9. İtin nəcisini təmizləmək üçün torpaqdan başqası da onu əvəz edir, müasir təmizləyici vasitələr də əvəz edir ( Doğrudur – Səhvdir ).
10. Qorunması çətin olan heyvanlar çox girib-çıxan heyvanlardır, Pişik bəzi insanlar üçün təmiz, bəziləri üçün isə nəcis ola bilər ( Doğrudur – Səhvdir ).
11. Axar nəfsi olmayan sözündə nəfs ruh deməkdir ( Doğrudur – Səhvdir ).
12. Damarlarda qalan qan... O Nəcisdir O Təmizdir
13. Namazın neçə rüknu var? O On dörd O doqquz OSəkkiz

**14.** Ehram təkbiri əlləri qaldırmaqdır ( Doğrudur – Səhvdir ).

**15.** Səhvən rükunu tərk edərsə səhv səcdəsi etməlidir(Doğrudur – Səhvdir).

**16.** Namazın neçə vacibatları var? O Səkkiz O On dörd ODoqquz

**17.** Əgər bilirsə ki, səcdədə “Subhənə rabbiyəl-Ələ” demək vacibdir amma “Subbuhun quddusun rabbil Mələikəti varruh” kəliməsini dedi, bu zaman namazı batildir ( Doğrudur – Səhvdir ).

**18.** Namazda sağ ovucunun içini sol ovucunun və ya biləyinin və ya qolunun üzərinə qoymaq lazımdır ( True – False ).

**19.** Gecə qılınan hər bir vacib namazın ilk iki rükətində qiraət yüksək səslə olur. Və hər namazda iki bayramda olduğu kimi ümumi toplanmaq lazımdır ( Doğrudur – Səhvdir ).

**20.** Namazı batil edən əməllər neçədir? O Səkkiz O Doqquz O On dörd

**21.** Təvərruk oturuşu hansı təşəhhüddə olur.

O Birinci O Sonuncu O Qeyd olunanların hamısı

**22. “Rabbənə və ləkəl-Həmd”** kəliməsinə **“vəş-Şükr”** əlavə etmək…

O İcazəlidir O Müstəhəbdir O Haramdır

**23.** İki səcdə arasında: " Rabbiğfir li va li Validəyyə" kəliməsini demək…

O İcazəlidir O Haramdır O Bəyənilmir

**24.** Səcdədə dirsəkləri yerə qoymaq…

O Haramdır O Müstəhəbdir O Bəyənilmir

**25.** Səhv səcdəsinin neçə səbəbi var? O İki O Üç O Dörd

**26.** Əməldən sonra şəkkin təsiri yoxdur; Əgər şəkk çox olarsa ( Doğrudur – Səhvdir ).

**27.** Sübh sünnəsi adi namazlardan yalnız fəzilət, qısalıq, xüsusi qiraət, səfər zamanı bunu tərk etməmək və evdə olarkən bunu qıldıqdan sonra uzanmaqla fərqlənir. ( Doğrudur – Səhvdir ).

**28.** Aşağıda gələn bütün məsələlərin hökmünü qeyd et:

| Məsələ | Hökmü |
|---|---|
| Dini söyənin namazı | |
| Sərxoşun namazı | |
| Altsheymer (yaddaşsızlıq) xəstəsinin namazı | |
| Uşağın namazı | |
| Unudub dəstəmazsız namaz qılarsa | |
| Unudub paltarı nəcisli namaz qılarsa | |
| İnəyin sidiyi | |
| Qurbağanın sidiyi | |
| Budları açıq namaz qılarsa | |
| Unudub vaxtından əvvəl namaz qılarsa | |
| Təyyarədə namaz | |

| | |
|---|---|
| Fərzin vaxtını niyyət edərsə | |
| Oturub namaz qılarsa | |
| Fatihəni oxumaqı unudarsa | |
| İmam rukuda ikən namaza qoşularsa | |
| Namaza tələsmək | |
| Namazdan sonra çoxlu şəkk olarsa | |
| Ehram təkbirindən sonra dəstəmazında şəkk edərsə | |
| Səhvən bir ruku əlavə edərsə | |
| Ehram təkbirini tərk edərsə | |
| Birinci təşəhhüdü tərk edərsə | |
| Sonuncu təşəhhüdü tərk edərsə | |
| Üç və ya dörd rükət qılmasında şəkk edərsə | |
| Namazdan sonra şəkk edərsə | |
| Namazın içində şəkk edərsə | |
| Səhv səcdəsində səhv edərsə | |
| Unudub namazda danışarsa | |
| Övrəti açıq namaz qılıb və bunu namaz bitdikdən sonra bilərsə. | |
| Namaza getməmişdən öncə evdə dəstəmaz almaq | |
| Məsciddə alqı-satqı. | |
| Məsciddə pul xırdalamağın hökmü | |

| | |
|---|---|
| İmam sonuncu təşəhhüddə ikən namaza qoşularsa | |
| Namaz qılanda sutrə qoymaq | |
| Azca yana baxmaq | |
| Çoxlu o yan bu yana baxmaq | |
| Namazı tələsərək qılmaq | |
| Təşəhhüddə İbrahim salavatını demək | |
| Namazda danışmaq | |
| Namazda hərəkət etmək | |
| Fatihə surəsini oxumağı unudarsa | |
| Cümə namazı | |
| Vitr namazı | |
| Təhiyyə namazı | |

**29.** Namazın şərtləri, rüknləri, vacibatları və sünnələri keçdi arasında fərqləri qeyd et:

| Şərt | Rükun | Vacib | Sünnə |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

# On ikinci dərs

## Dəstəmazın şərtləri

**Dəstəmazın şərtləri ondur:**

1- İslam. 2- Ağıl. 3- Təmyiz (ayırd etmə). 4- Niyyət. 5- Niyyəti davam etdirir ki, dəstəmazı tamamlayana qədər onu tərk etmək niyyəti olmasın. 6- Dəstəmazı vacib edən məsələləri tərk etsin. 7- Dəstəmazdan öncə övrətin su və ya təmiz quru əşyalarla təmizlənməsi. 8- Suyun təmiz və mübah olması. 9- Suyun dəriyə dəyməsinə mane olan şeyləri təmizləmək 10- Xüsusi xəstəlikləri olanlar üçün namazın vaxtının daxil olması.

## Bəzi şərtlərin şərhi

- "Niyyəti davam etdirir ki, dəstəmazı tamamlayana qədər onu tərk etmək niyyəti olmasın": Niyyətin dəstəmazın əvvəlindən axırına qədər davam etməsi deməkdir.
- "Dəstəmazı vacib edən məsələləri tərk etsin": Dəvə əti yeyərkən və ya idrar edərkən dəstəmaz almasın. Əksinə, dəstəmaz almağa başlamazdan əvvəl bunları dayandırmalıdır.
- "Dəstəmazdan öncə övrətin su və ya təmiz quru əşyalarla təmizlənməsi": Qaz çıxarmaq, yatmaq və ya dəvə əti yemək səbəbi ilə dəstəmaz alırsa bu istisnadır.

- "Suyun təmiz və mübah olması": Yəni nəcis və qəsb olunan su ilə dəstəmaz alınmaz.

- "Suyun dəriyə dəyməsinə mane olan şeyləri təmizləmək": Xəmir və ya dırnaq boyası kimi suyun dəriyə çatmasının qarşısını alan şeylər.

## Fitrətə bağlı olan sünnələr

1- **Sünnət**: Bu kişilərə vacibdir, qadınlara isə əgər ehtiyac olarsa sünnədir.

2/5- **Bığları qısaltmaq, dırnaqları tutmaq, qoltuğaltını təmizləmək, qasığı qırxmaq**. Ənəs (Allah ondan razı olsun) dedi -: " Bığları qısaltmaq, dırnaqları tutmaq, qoltuğaltını təmizləmək, qasığı qırxmağın vaxtını bizim üçün qırx gündən çox gecikdirməməyi təyin etdi ". Qısacası, bu məsələləri qırx gündən artıq gecikdirmək doğru deyil.

6- **Saqqal saxlamaq**: Onu uzatmaq vacibdir və qırxmaq böyük günahlardandır.

7- **Misvakdan istifadə etmək**: Dişləri təmizləmək üçün arak çubuğu və bu kimi şeylərdən istifadə etməkdir. Hər dəfə istifadə etmək, xüsusilə dəstəmaz alanda, namaz qılanda, evə girəndə, Quran oxuyanda, yuxudan oyandıqda, ağızda pis qoxu gələndə və ölümdən əvvəl belə tövsiyə olunur.

# On üçüncü dərs

## Dəstəmazın vacibatları

**Dəstəmazın vacibatları altıdır:**

1- Üzü yumaq; bura ağız və burunu da yumaq daxildir

2- Əlləri dirsəklərlə birgə yumaq.

3- Bütün başa məsh çəkmək; bura qulaqlar da daxildir.

4- Ayaqları topuqlarla birgə yumaq.

5- Ardıcıllıq. 6- Aranı kəsməmək.

Üzü (bura ağız və burunu da), əlləri və ayaqları üç dəfə yumaq müstəhəbdir. Bunları bir dəfə yumaq fərzdir. Amma başa məsh çəkmək, səhih hədislərə görə birdən artıq məsh çəkmək olmaz.

### Aranı kəsməməyin mənası

**Dəstəmaz alan, dəstəmaz əzalarının bir üzvünü yuduqda, ondan əvvəlki üzv quruyana qədər təxirə salmaq olmaz.**

# On dördüncü dərs

## Dəstəmazı pozan amillər

**Dəstəmazı pozan amillər altıdır:**

1- Ön və arxa orqandan çıxan hər şey. 2- Bədənin digər hissələrindən çoxlu miqdarda nəcisin çıxması. 3- Yuxu və başqa səbəblərlə ağılın başdan getməsi. 4- Ön və ya arxa tərəfə maneəsiz toxunmaq. 5- Dəvə əti yemək. 6- İslamdan çıxmaq.

**Mühüm xatırlama:**

Meyiti yumağa gəldikdə isə: Səhih rəyə görə bu dəstəmazı pozmur. Bu da Elm əhlinin çoxsunun rəyidir, çünki buna dəlil yoxdur. Amma meyiti yuyanın əli bilmədən bir başa meyitin övrətinə dəyərsə dəstəmaz vacib olur. Meyiti yuyan meyitin övrətinə örtük olmadan toxunmaması lazımdır.

Eləcə də, qadına istər şəhvətlə istərsə də şəhvətsiz toxunmaq (nə qədər ki toxunan vaxtı kişidən heçnə gəlmir) səhih rəyə görə dəstəmazı pozmur. Çünki Peyğəmbər ﷺ qadınlarından bəzilərini öpür və dəstəmaz almadan namaz qılır.

Amma Uca Allahın **"Və ya qadınlarınıza toxunduğunuz zaman"** ayəsinin mənası: Qadınlarınızla cinsi əlaqədə olduğunuz zaman deməkdir. Bu, Alimlərin iki rəydən ən doğru görüşüdür. Bu həm də İbn Abbas (Allah ondan razı olsun) və bir çox sələf alimlərinin rəyidir.

## Dəstəmazı pozan amillər bəzilərinin şərhi

- "Ön və arxa orqandan çıxan hər şey" : Ümumidir, Sidik, nəcis, sperma, məzi, vadi, qaz, daş, qan, qurdlar, hey və nifas qanları.

- "Bədənin digər hissələrindən çoxlu miqdarda nəcisin çıxması" : Doğru görüş budur ki, sidik və nəcislə eyni cinsdən deyilsə, pozan amil sayılmır.

- "Yuxu və başqa səbəblərlə ağılın başdan getməsi": Yuxu özü özlüyündə pozan amil deyil, sadəcə qazın çıxması ehtimal olunduğuna görə bu sinifə daxildir. İnsan özü hiss etsə ki, ondan qaz çıxmayıb bu zaman dəstəmazı pozulmur.

- "Ön və ya arxa övrətə maneəsiz toxunmaq": İbn Teymiyyə (Allah ona rəhmət etsin) övrətə toxunanın dəstəmaz almasını vacib yox müstəhəbdir rəyini üstün görür.

## Dəstəmaz almağın qısa və şəkilli izahı

-Dəstəmaz üçün niyyət etdisə artıq "Bismilləh" deməlidir.

- Sonra əllərinə su tökərək əllərini üç dəfə yuyur.

- Sağ əlini su ilə doldurub ağzına və burnuna su çəkir suyu çevirərək ağzını qarqara edir sonra suyu tüpürür.. Burundan suyu çıxarmaq üçün sol əlin baş və şəhadət barmağından istifadə edir. Bunu üç dəfə edir.

-Sonra üzünü üç dəfə yuyur. Üz, uzunluqda normal baş tüklərinin köklərindən saqqal və çənənin sonuna qədər və enində isə qulaqlar arasında olur.

-Sonra əllərini dirsəkləri ilə birgə üç dəfə yuyur, birinci sağ əlini sonra sol.

-Sonra başına məsh çəkir, başın əvvəlindən axırına kimi aparır soonra geri qaytarır.

-Sonra şəhadət barmaqlarını qulaqlarının içinə qoyub məsh edir.

-Sonra ayaqlarını topuqları ilə birgə üç dəfə yuyur.







 

-Dəstəmazı bitirdikdən sonra: **"Əşhədu ən lə iləhə iləLlah vəhdəhu lə şərikə lək, və əşhədu ənnə Muhəmmədən Abduhu və rasuluhu".** Tirmizidə gələn hədisdə **"Allahummə-cəlni minəttəvvəbinə və minəl-Mutətahhirin".** "Allahım məni tövbə edənlərdən və təmizlənənlərdən elə"

## Şəriətdə gələn miqdara əlavə etməyin hökmü

Dəstəmaz alarkən şəriətdə gələn miqdara əlavə etmək icazəli deyil; Buna misal olaraq: Üçdən artıq yumaq, dirsəkdən və ya topuqdan yuxarını yumaq və boyuna məsh çəkmək.

  

## İslamın rühunları ilə əlaqədar bəzi məqamlar

### Birinci: Təmizlik

### Təyəmmüm

Su olmadığına görə və ya suyu dəstəmaz üzüvlərində istifadə etmək zərər verdiyinə görə, su təmizliyini təyəmmüm əvəz edir, torpaq bu mövzuda suyu əvəz edir

### Təyəmmüm almağın qaydası

Təyəmmümü niyyət edir, sonra "Bismilah" deyir, sonra əllərini bir dəfə yerə vurur, sonra əllərinin içini üzünə və əllərinin üstüsə sürtür.



Torpağa vurarkən barmaqları aralamaq və əllərə məsh edərkən barmaqların arasına məsh çəkmək icazəli deyil.



**Vacib qüslun vəsfi**

Qüslu və hədəsin aradan qalxmağın niyyət edir və "Bismilləh" deyir. Sonra bütün bədənə, nazik və ya qalın olmasından asılı olmayaraq tüklərin dibinə belə su çatdırır və ağzı qarqara edir və burnunu təmizləyir.

**Qüslun sünnələri**

Övrəti yumaq, Sonra əlləri, sonra namaza dəstəmaz aldığı kimi dəstəmaz almaq, saçının diblərini yumaq, bədəninin sağ tərəfin birinci yuyub sonra sol tərəfin yumaq, sonda ayaqları yumaq.

**Qüslun vacib edən amillər**

1- Cənabət: Cinsi əlaqə və ya başqa yolla spermanın çıxması və ya qadınla kişinin orqanlarının bir-birinə toxunması. 2- Heyz və nifas qanının çıxması. 3- Şəhiddən başqasının ölümü. 4- Kafirin İslama girirşi.

## Xoffa (və ya coraba) məsh etməyin şərtləri

Onları dəstəmazlı halda geyinməlidir;
Dəstəmazda ayaqları yuyub geyinir.

Xofflar və ya corablar təmiz olmalıdır.

Ayaqların çox hissəsini örtməlidir.

Məsh yalnız kiçik hədəs zamanı edilir, cənabət və qüsl zamanı yox.

Məsh çəkmək yerli üçün şəriətin müəyyən etdiyi vaxtda, yəni bir gün və bir gecə olur, bu da 24 saat edir. Müsafir üçün isə üç gün üç gecə olur, bu da 72 saat edir. Vaxt dəstəmaz pozulduqdan sonra ilk məshdən başlayır.

**Xoffa (və ya coraba) necə məsh edilir?**

Sağ əli sağ ayağın, sol əli isə sol ayağın üstündən ikisini də eyni vaxtda ayaq barmaqlarının ucundan topuğa kimi yalnız ayaqların üst hissəsinə məsh edir. Sünnədə gələn budur.

**Məshlə əlaqəli məsələlər**

1- Əgər məsh müddəti bitsə və ya corab çıxarılsa, dəstəmaz qalır, batil olmur.

2- Deşik və ya nazik olduğundan dəri görünən corabların üzərinə məsh çəkmək olar.

## Ehtiyacı ödəməyin ədəbləri

**Müstəhəbdir:**

-Ayaqyoluna sol ayağı ilə daxil olsun, və desin: *"**Allahummə inni auzu bikə minəl xubsi val xəbəis**"*. "Allahım, pislikdən və pis əməllərdən (erkək və dişi cinlərdən) Sənə sığınıram.

- Oradan sağ ayağı ilə çıxsın və desin ***"Ğufraanək"***. "Səndən bağışlanma diləyirəm"

**Vacibdir:** Bağlı yerdə ehtiyacın ödəsin, əgər açıqlıq yerdədirsə insanlardan uzaqlaşsın.

**İcazəli deyil:**

- Yolda, insanların oturduğu yerdə, meyvə verən ağacların altında, insanlara zərər verən yerdə və ya axmayan suda ehtiyacın ödəmək.

-Ehtiyacını ödəyərkən önünü və arxasını qibləyə yönləndirmək.

-Sağ əli ilə övrətinə toxunmaq.

-Allahı zikr etmək.

Ehtiyacını ödədikdən sonra su və ya quru əşyalarla (salfet, daş) təmizlənməlidirlər.

**Quru əşyalarla (salfet, daş) təmizlənməyin şərtləri:**

- Ən azı üç dəfə məsh çəkməlidir və bu (salfet və daşın) eyni yeri ilə olmamalıdır.

- Əşya təmiz olmalıdır. Əşyanın təmizliyi daş və ya salfetin quru olduğu halda bilinir.

- Təmizlənmək nəcislə, yemək kimi hörmətli bir şeylə, sümük və təzəklə olmamalıdır.

Sidiyi bədəninə və paltarına sıçramağın olmaması və övrət yerinin açıq qalmamasını təmin etmək şərti ilə ayaq üstə sidik ifraz etmək olar. **"Peyğəmbər ﷺ bir yerə gəldi və ayaq üstə idrar etdi."** (Buxari və Muslim).

# Təmizlik barədə suallar

**1.** Dəstəmazın neçə şərti var? O 9 O 10 O 8

**2.** Dəstəmazın vacibatları: O Dörd əza OBu və əlavə tərtibat və ara vermək.

**3.** Dəstəmazı pozan amillər neçədir? O 6 O 5 O 8

**4.** Aşağıda gələnlərdən hansının pozan amil olduğunu təyin et:

ODəvə əti O Maral əti. O Qarının səsi. O Qaz çıxması

O Mürgü O Meyiti yumaq. O Qadına toxunmaq.

**5.** Təyəmmümün vəsflərini qeyd et:

..........................................................................

..........................................................................

..........................................................................

**6.** Qüslun vəsflərini qeyd et:

..........................................................................

..........................................................................

..........................................................................

**7.** Aşağıda gələn bütün məsəslələrin hökmünü qeyd et:

| Topic | Ruling |
|---|---|
| Niyyəti tələffüz etmək. | |
| Bir namaz üçün niyyət edib amma çox namaz qılıb. | |
| Quran oxumaq üçün dəstəmaz alıb sonra namaz qılıb | |
| Dəstəmaz əsnasında niyyəti dəyişib | |
| Dəstəmaz aldıqdan sonra niyyəti dəyişib. | |
| Baldırında xəmir olduğu halda dəstəmaz alıb | |
| Dəstəmaz alarkən dəvə əti yeyib. | |
| Oğurluq su ilə dəstəmaz alıb. | |
| Övrəti təmizləməzdən əvvəl dəstəmaz alıb. | |
| Qulaqları üçün əlavə su götürüb. | |
| Başa üç dəfə məsh çəkib. | |
| Bir-bir dəstəmaz alıb. | |
| Dəstəmzada əzaları üç dəfə yumaq. | |
| Dəstəmzada ovucları yumaq. | |
| Saqqalı ovuşduraraq yumaq. | |
| Dəstəmaz əzalarını sürtərək yumaq. | |

| | |
|---|---|
| Yuyulması vacib olan yerlərə məsh çəkmək. | |
| Başı yumaq. | |
| Ovucları suya salmaq. | |
| Dəstəmazda sağdan başlamaq. | |
| Üç dəfə yuyunmağa əlavə etmək. | |
| Baldırı yumaq. | |
| Üzdükdən sonra namaz qılmaq. | |
| Qüsuldan sonra dəstəmaz almadan namaz qılmaq. | |

## İkincisi: Zəkat

İki qismə bölünür:

**Bədənin zəkatı**

Bu fitrə zəkatıdır. Bu, hər bir müsəlmana böyüyə, uşağa, kişiyə, qadına, qula və ya azad şəxsə vacibdir.

**Malın zəkatı**

Bu İslamın 3-cü rükunudur. Bu, Ödəmək məbləğinə çatmış hər bir azad müsəlmana vacibdir.
Üzərindən bir il keçməmiş zəkat vecib deyil, yalnız yerdən çıxanlar istisnadır. Əslinə tabe olan şeylərin zəkat vaxtı (malın artması və ticarətin qazancı kimi), əslinin zəkat vaxtındadır. Bu da dörd qismə bölünür

**Ticarətin malı**

Alqı-satqı üçün ayırılan hər bir şey.

**Yerdən çıxan**

Bunlar taxıl və Meyvələrdir.

**(Səimə) Otlayan mal-qara**

Bütün ili və ya çoxunu sərbəst otlayanlar. Otlayan mal-qara: Dəvə, inək, qoyun.

**Qızıl və gümüş**

Eləcə də onları əvəz edən digər əskinaslar. Qızılın miqdarı (20 misqal) 85 qr. Gümüşün miqdarı (200 dirhəm) isə 595 qramdır.

## Zəkat əhli

1. **Kasıblar:** Onlar, heç nəyləri olmayan və ya kifayət qədər malı olmayan ehtiyac əhlidir.

2. **Miskinlər** : Onlara lazım olanın yarısı və ya yarısından çoxu var. Məsələn: 12000 azn kifayətdir desək, 6000-dən az olan kasıbdır. 6 000 və daha çox, lakin 12 000-dən az olan isə miskindir. Zəkat ildə bir dəfə verildiyi üçün kasıb və miskinlərə bir il kifayət edəcək qədər verilir.

3. **Zəkat işində işləyən:** Buraya zəkatı toplayanlar, onu qoruyanlar və onu paylayanlar daxildir. Onları bu işə əmr sahibləri təyin edir. Onların kasıb olması şərt deyil, əksinə, zəngin olsalar belə onlara zəkatdan verilir.

4. **Qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələr:** Kimdən islamı qəbul edəcəyi və ya şərrinin qarşısının alınacağı və ya imanını gücləndirəcəyi ümid edilirsə.

5. **Kölələrin azad olunması:** Bunlar:

a. Özünü ağasından satın alan müsəlman əsir.

b. Müsəlman qulu azad etmək.

c. Müsəlman əsir.

Zəkat vermək niyyəti ilə qul sahibinin qulunu azad etməsi bura daxil deyil. Bu icazəli deyil.

6. **Borclular:**

a. Barışdırmaq üçün yaranan borclar.

b. Özünün borcu.

Zəkat niyyəti ilə kasıbın borcunu silmək düzgün deyil.

7. **<u>Allah yolunda (cihad edənlərə):</u>** Bura orduda döyüşənlər, eləcə də onlara lazım olan silah və digər ehtiyaclar daxildir.

8. **<u>Yolda qalan</u>**: Bu malı qurtaran müsafirdir. Gedəcək yerinə çatdıracaq qədər zəkatdan verilir.

Bunlardan birinə zəkatdan verməklə kifayətlənmək olar. Zəkat nə varlıya, nə də qazanmağa gücü olana vermək icazəli deyil. Nə də Peyğəmbərin ﷺ ailəsinə zəkatdan verilmir. Onlar Bəni Haşim və onların ardıcıllarıdır. Nə də zəkatı, xərcləməsi vacib olanlara da (ana, ata və s.) vermək olmaz. Kafirlərə də zəkatdan vermək olmaz. Amma nafilə sədəqə, bunlara da verilir, başqalarınada. Amma nə qədər ümümi və xüsusi faydaları daha çox olana verilsə daha yaxşıdır.

## Mühüm qaydalar

-***Bint maxaad*** ("Doğum sancısı çəkənin qızı") -Dişi dəvələrdən bir yaşı tamam olandır. Anası hamilə olduğu üçün belə adlandırılıb.

- ***Bint Labuun*** (“Süd verənin qızı”) -Dişi dəvələrdən iki yaşı tamam olandır. Anasının südü olduğuna görə belə adlandırılmışdır.

- ***Hiqqah*** -Dişi dəvələrdən üç yaşı tamam olandır. Dəvənin onunla əlaqə qura bildiyi yaşda olduğu üçün belə adlandırılmışdır.

- ***Cəzəah*** - Dişi dəvələrdən dörd yaşı tamam olandır. Bu yaşda ön dişləri düşdüyü üçün belə adlandırılmışdır.

- ***Təbi'*** və ***Tabi'əh*** –Bir yaşı tamam olan inəkdir.

- ***Musinnəh*** - İki yaşı tamam olan inəkdir.

## Ödənilməli olan Zəkatın Miqdarı

| **Zəkatın miqdarı** | **Onu vacib edən miqdar** | **Bunu vacib edən 1 illik müddət** | **Malın növü** |
|---|---|---|---|
| Növbəti cədvələ bax | Növbəti cədvələ bax | Şərtdir | **Otlayan mal-qara (Səimə)** |
| Yağış, çay və ya digər təbii vasitələrlə sulanarsa **1/10** | 300 Saa. 900 Kg. | Şərt deyil | Yerdən çıxan (toxum və meyvə) |
| İnsan özü sulayarsa **1/20**. | | | |
| Hər iki vasitə ilə suvarılanlara isə üç dənə dörddə bir. | | | |
| Qırxda bir | 85 qram qızıl və ya 595 gümüş | Şərtdir. | Əskinaslar |
| Qırxda bir | Qızıl və gümüşdən kasıba hansı məsləhətlidirsə onu hesablamaq | Şərtdir | Ticarət sərmayəsi |

| Otlayan heyvanların (Səimə) zəkatını vacib edən və ödənilməli olan məbləğ | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| İnəklər və Camışlar | | | 1 və ya 2 donqarlı dəvə | | | Qoyun: Quzu və Keçi | | |
| Zəkatı | Miqdarı | | Zəkatı | Miqdarı | | Zəkatı | Miqdar | |
| | Dan | Qədər | | Dan | Qədər | | Dan | Qədər |
| 1ədəd *Təbii'* və ya *Təbii'əh* | 30 | 39 | 1 qoyun | 5 | 9 | 1 qoyun | 40 | 120 |
| | | | 2 qoyun | 10 | 14 | | | |
| 1 ədəd *Musinnəh* | 40 | 59 | 3 qoyun | 15 | 19 | 2 qoyun | 121 | 200 |
| | | | 4 qoyun | 20 | 24 | | | |
| 2 ədəd *Təbii'əh* | 60 | 69 | 1 *Bint Maxaad* | 25 | 35 | 3 qoyun | 201 | 300 |
| | | | 1 *Bint Labun* | 36 | 45 | Sonra hər 100 qoyuna 1 | | |
| Sonra hər 30 inəyə 1 Təbii' Və hər 40 inəyə 1 Musinnəh | | | *Hiqqah* | 46 | 60 | Keçi, qoca heyvan, qüsurlu heyvan və ya malın pisindən zəkat çıxarılmır. Həddindən artıq arıq , boğaz, kəsim üçün kökəldilmiş və ya ən yaxşısından belə zəkat çıxarılmır | | |
| | | | *Cəzəəh* | 61 | 75 | | | |
| | | | 2 *Bint Labun* | 76 | 90 | | | |
| | | | 2 *Hiqqah* | 91 | 120 | | | |
| | | | 3 *Bint Labun* | 121 | 129 | | | |
| | | | Sonra hər 40 dəvəyə, 1 Bint Labun. Hər 50 dəvəyə, 1 Hiqqah İki vacibin arasında olan dəvələrə görə əlavə zəkat yoxdur, buna "Vaqs" deyilir. Burda Vaqs 9-dur. | | | | | |

# Zəkat barədə suallar

**1.** Üzərindən bir il keçməmiş zəkat vermək olmaz. Burda il.....

O Hicri təqvimi ilədir O Miladi təqvimi ilədir O Fərq yoxdur.

**2.** Bir il keçmə şərtindən yalnız bu istisnadır….
OYerin altından tapılan sərvət O Yerdən çıxan O Qeyd olunanların hamısı

**3.** Qızılın zəkatının miqdarı... O 85 qram. O595 qram O 95 qram

**4.** Gümüşün zəkatının miqdarı …

O 200 Dirhəm O 595 Qram. O Qeyd olunanların hamısı.

**5.** Otlayan mal-qara: Dəvə, inək, camış və qoyundur (Doğrudur-Səhvdir).

**6.** Meyvələrin zəkatı yoxdur (Doğrudur-Səhvdir).

**7.** *Saimə nədir*… O Qiyməti qalxan O Bütün ili və ya çoxunu sərbəst otlayanlar

**8.** İcazəli olan vasitələrdən yeyən …

O yaxşı yeməklərdən yeyən. O Sahibi olmayan.

**9.** Miskinlər deyildikdə, kasıblar da bura daxildir (Doğrudur-Səhvdir).

**10.** Kasıba neçə müddət kifayət edəcək qədəri verilir? O 1 il O 1 ay
**11.** Zəkat işlərində işləyənlər…
O Zəkat işində işləyən hər kəs. O Əmr sahibinin təyin etdiyi kəs

**12.** Zəkatın miqdarını hesabla:

| Mal | Zəkatın miqdarı | *"Vaqs" əgər varsa* |
|---|---|---|
| 100 *Dirhəm* (Gümüş pul) | | |
| 300 *Dinar* (Qızıl pul) | | |
| 400 *Dirhəm* (Gümüş pul) | | |
| 80 qram qızıl | | |
| 500 qram gümüş | | |
| 30 qoyun | | |
| 60 qoyun | | |
| 565 qoyun | | |
| 4 dəvə | | |
| 17 dəvə | | |
| 449 dəvə | | |
| 30 inək | | |
| 49 inək | | |
| 77 inək | | |
| 99 inək | | |
| 20 milyon manat | | |
| 40 manat | | |
| 45679 manat | | |
| 255 Saa buğda | | |

**13.** “Qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələr” növünə, İslama gəlməsi ümid olunmayan kafirlər də daxildir. (Doğrudur-Səhvdir).

**14.** Ağa öz qulunu azad edirsə ona zəkatdan verilir. (Doğrudur-Səhvdir).

**15.** Varlı kasıbdan borcunu istəyir, sonra borcundan keçib o bocu zəkatdan çıxır, bunun əməli doğrudur. (Doğrudur-Səhvdir).

**16.** “Allah yolunda” növünə, məscid tikmək kimi xeyirin bütün növləri daxildir. (Doğrudur-Səhvdir).

**17.** Qızıl və gümüşün zəkatı qırxa bölməklə hesablanır (Doğrudur-Səhvdir).

**18.** Zəkat, bəslənən heyvanlara deyil, sərbəst otlayan heyvanlara vacibdir (Doğrudur-Səhvdir).

**19.** Taxıl və meyvələrin zəkatı lazım olan məbləğə (nisaba) çatdıqda, taxıl sərtləşdikdə və meyvələr yetişdikdə vacibdir. (Doğrudur-Səhvdir).

**20.** Taxıl və meyvələrin 1/20 zəkatını vermək vacibdir; əgər sulamaq üçün əlavə zəhmət və pul tələb edilirsə. (Doğrudur-Səhvdir).

**21.** 21. Qızılın zəkatı  nisaba çatdıqda vermək vacibdir. Nisabın miqdarı isə 20 misqaldır (Doğrudur-Səhvdir).

**22.** Zəkat nəylərdən çıxarılırsa dairəyə alın:

O Toyuq O Ticarət obyekti O Tövlədə bəslənən qoyun

O Sərbəs otlayan dəvə O  Xurma bağı O 25 misqal qızıl

**23.** İnək növündən olan “Təbii” iki yaşı tamam olandır (Doğrudur-Səhvdir)

**24.** Mövcud əskinaslar üçün ödənilməli olan zəkat məbləği nə ilə müəyyən edilir?

O Ticarət sərmayəsi ilə O Qızılın və ya gümüşün dəyəri ilə.

O Qızılın və gümüşün dəyəri ilə.

**25.** Əskinaslar üçün zəkatın vacib dəyəri. O Qırxda bir O İyirmidə bir

**26.** 80 qram qızılın zəkatı…

O 2 qram O 4 qram O Zəkat yoxdur

**27.** Yaşayış üçün hazırlanmış evin zəkatın çıxarmaq vacibdir (Doğrudur-Səhvdir).

**28.** Bütün səfər edənlərə zəkat düşür, çünki onlar da yolda qalan sayılır. (Doğrudur-Səhvdir).

## Üçüncü: Oruc

Lüğəti mənası tutmaq deməkdir. Şərii mənası isə sadiq fəcr çıxandan (dan yeri söküləndən) gün batana qədər yeməkdən, içməkdən və orucu pozan hər şeydən çəkinərək Allaha ibadət etməkdir.

### Orucun rükunları

**1- Orucu pozan amillərdən çəkinmək**

**2- Niyyət**

**Vacib orucunun niyyət**

Sübh namazından əvvəl (və ya gecədən) niyyət etmək lazımdır. Ayın əvvəlində niyyət etmək kifayətdir. Niyyətin yeri qəlbdir və onu dil ilə tələffüz etmək bidətdir.

**Nafilə orucunun niyyət**

Orucu pozan amillərdən istifadə etmədiyi müddətcə günün istənilən saatında etdiyi niyyəti səhihdir, lakin savabı niyyət etdiyi vaxtdan hesablanır.

### Orucun qisimləri

**Vacib:**

Ramazan, kəffarə və nəzir orucları

**Nafilə:**

Bunlardan başqa oruclar

## Orucun vacib olma şərtləri

1- İslam. 2- Ağıl. 3- Həddi buluğ: Həddi buluğa çatmayan uşaqları isə oruca həvəsləndirib onlara valideyinləri oruc tutmağı buyurmalıdırlar. 4- Yerli olması: Müsafirə oruc vacib deyil. Amma nə qədər ki çətinlik yoxdur səfərdə olsa belə oruc tutmağı Peyğəmbərin ﷺ əməlinə uyğun olduğu üçün yaxşıdır. Çünki bu, borcunu daha tez yerinə yetirmək, mükəlləf üçün də daha asan və ayın fəzilətini dərk etmək üçün daha münasibdir. 5- Sağlamlıq. 6- Qadın üçün heyz və nifasın bitməsi.

## Oruc vaxtı xətəliklərin növləri

### Sağalan amma oruc tutmağa çətinlik yaradan xəstəliklər

Bura heyz, nifas, süd verən və müsafir də daxildir. Sağaldıqdan sonra sadəcə qəza etdiyi günlərin orucunu tutur, sağalmamış ölərsə, bu vaciblik onun üzərindən düşür.

### Sağalmayan xəstəliklər

Bura, oruc tuca bilməyən yaşlılar da daxildir. O, oruc tutmur, lakin tutmadığı hər gün üçün bir kasıbı yedizdirir; ya onları nahar və ya şam yeməyinə toplayaraq, ya da hər gün kasıblar üçün ərzaq ayırmaqla. Hər kəsə dörddə bir Saa və ya təxminən 510 qram yaxşı buğda verilməlidir. Bunun üstündə yemək bişirmək üçün ət və yağ da verilməsi yaxşıdır.

## Ramazan ayının daxil olması nə ilə sübut olunur?

Ya ramazan ayının hilalını görməklə, ya da Şaban ayını 30 günə tamamlamaqla.

## Orucu batil edən əməllər

1- Qəsdən yeyib içmək; unudaraq yeyənin orucu səhihdir.

2- Cinsi əlaqə; Ramazan ayında oruc tutmaq vacib olduğu halda bunu edərsə, böyük kəffarəni yerinə yetirməlidir; bu da qul azad etmək, əgər bacarmasa, 2 ay ardıcıl oruc tutmaq. Əgər oruc tuta bilməsə, 60 kasıbı yedirtmək.

3- Qadına toxunmaq, öpmək, qucaqlamaq və s. səbəbiylə spermanın çıxması.

4- Yemək-içməyi əvəz edən şeylər, məsələn, qidalandırıcı iynələr, qidalandırıcı olmayanlar isə orucu pozmur.

5- Hicama ilə qanın çıxması; tibbi müayinə üçün bir az qan vermək kimi az qanın çıxması orucu pozmaz.

6- Qəsdən qaytarmaq.

7- Qadınlar üçün heyz və nifas qanının çıxması.

## Oruc tutana icazə verilən bəzi əməllər

Tüpürcəyi udmaq, lazım gələrsə yeməyin dadına baxmaq, duş qəbul etmək, dişləri fırçalamaq, ətirlənmək, sərinləmək.

## Orucun müstəhəb əməlləri

1. Sahur etmək. 2. Sahuru gecikdirmək. 3. İftarı tezləşdirmək.
4. Bir neçə (sayı tək olmalıdır) yaş xurma ilə, tapmasa quru xurma ilə, bunu da tapmasa bir neçə qurtum su ilə orucunu açmaq. Əgər heçnə tapmasa niyyəti ilə orucunu açmaq.
5. Oruclu ikən və orucu açarkən dua etmək. 6. Çoxlu sədəqə vermək.
7. Gecə namazlarını qılmaq. 8. Quran oxumaq. 9. Söyən adama "Mən orucam" demək. 10. Ümrə etmək. 11. Axır on gündə etikaf etmək.
12. Qədr gecəsini axtarmaq

## Oruclu ikən bəyənilməyən əməllər

1. Ağız və burnu yaxalayanda həddindən artıq etməmək, çünki su boğazdan aşağı düşə bilər.
2. Heç bir səbəb olmadan yeməyi dadmaq.

## Oruc tutana haramdır

1. Bəlğəmi udmaq; lakin bu orucu pozmur
2. Naməhrəm qadını öpmək
3. Pis söz və pis əməl etmək
4. Cahillik (hikmətsizlik)
5. Orucu birləşdirmək (yəni iftar etmədən iki gün oruc).

## Nafilə orucu

1- Ramazan orucunu tamamladıqdan sonra Şəvval ayının 6 gün orucu. Ən yaxşısı ikinci gündən onları ardıcıl tutmaqdır.
2- Həcc etməyənlər üçün Arafa orucunu tutmaq.
3- Aşura gününü ondan bir gün əvvəl, 9-u və ondan bir gün sonra, 11-i ilə birlikdə oruc tutmaq.
4- Bazar ertəsi və cümə axşamı günləri oruc tutmaq; xüsusilə bazar ertəsi.
5- Hər ayda 3 gün oruc tutmaq və ən xeyirlisi ağ günlərin orucudur (13, 14 və 15-ci günlər)
6- Bir gündən bir oruc tutmaq
7- Allahın Məhərrəm ayının orucu.
8- Zilhiccə ayının doqquz gününü oruc tutmaq.
9- Şaban ayının çox hissəsini oruc tutmaq (tam şəkildə yox).

## Bəyənilməyən oruc

Yalnız cümə, yalnız şənbə və ya yalnız bazar günü oruc tutmaq bəyənilmir. Arafa günü kimi bir səbəbə görə bu günlərdən birini tək oruc tutsa, bu icazəlidir.

## Haram Oruc

1- Rəcəb ayını oruc tutmaqla xüsusiləşdirmək.

2- İki bayram günlərini oruc tutmaq.

3- Şək günü (Ramazandan bir gün əvvəl) oruc tutmaq; davamiyyətli tutduğu oruc o günə təsadüf edərsə bu istisnadır

4- Təşriq günlərini (zilhiccənin 11-12 və 13-cü günləri) oruc tutmaq, həccdə kəsməyə heyvanı olmayanlar istisnadır.

5- Bütün ili oruc tutmaq.

## Orucun qəzasının hökmləri

-Qəzanı ardıcıl tutmaq müstəhəbdir.

-Bayramdan sonra mümkün qədər tez qəza etmək daha yaxşıdır.

-Qəzanı növbəti Ramazana qədər təxirə salmaq icazəli deyil.

-Əgər gecikdirərsə tutmadığı günlərdən əlavə oruc tutmur, amma gecikdirdiyinə görə günah qazanır.

## *Fitrə zəkatı*

Müsəlman olduğu halda Ramazan ayının son gününün qürubuna çatan hər kəsə vacibdir; istər qoca, istər gənc, istər kişi, istər qadın, istər qul, istərsə də azad. Qurban bayramı gecəsi və ya günündə insanın və ailənin əsas ehtiyaclarından artıq olandan verilir. Hətta ana bətnində olan uşağın adından da vermək müstəhəbdir. Bunda olan hikmət:

- O, oruc tutanı pis söz və əməllərdən təmizləyir.
- Bayram günü kasıbın dilənməsinin qarşısını alır.

### Fitrə zəkatının çıxarılma vaxtı

| İcazəli vaxt | Müstəhəbb vaxt | Haram vaxt |
|---|---|---|
| Bayramdan bir və ya iki gün əvvəl | Bayram namazından əvvəl sübh namazından sonra | Bayram namazından sonra |

## Fitrə zəkatının miqdarı

1 sa'a insanların yediyi yemək. Pul bunu əvəz etmir. 1 saa 2.04 kq yaxşı növ buğdaya bərabərdir

## Bayram namazı

Bu hər kəs üçün “fərdul-ayn”-dır. Namaz günəşin nizə hündürlüyünə qalxmasından zirvəyə çatana qədər qılınır. Namaza çatmayan onu qəza etmir. Evlər olmayan yerdə, açıqlıqda qılmaq sünnədir. Məscidlərdə də qılmaq icazəlidir. Bayram namazından əvvəl tək sayda xurma yemək, duş qəbul etmək, ətirlənmək, ən yaxşı paltarı geyinmək və namaza bir yolla gedib, digərindən qayıtmaq lazımdır. Müsəlman digər müsəlmanları bayram münasibətilə bu sözlərlə təbrik etməsi daha yaxşıdır: “Allah bizdən də, sizdən də qəbul etsin”. “Bayram gecəsi ümumi təkbir və bayram günü gün batana qədər namazdan sonra bu təkbirləri demək sünnətdir. **“Allahu Əkbər. Allahu Əkbər. Lə iləhə ila Allah. va Allahu Akbər, Allahu Əkbər, va lilahil-həmd**” Namaz xütbədən əvvəl iki rükət qılınır. Birinci rükətdə ehram təkbirindən sonra sonra 6 dəfə “Allahu Əkbər” deyilir, ikinci rükətdə isə, rükətə keçid təkbirindən sonra 5 dəfə “Allahu Əkbər” deyilir.

# Oruc barədə suallar

1. Orucun neçə rükunu var? O 2 O 3 O 4

2. Oruc kimlərə vacibdir?

a. ..........................................................................................

b. ..........................................................................................

c. ..........................................................................................

d. ..........................................................................................

3. Hər bir xəstəlik oruca manedir (Doğrudur-Səhvdir).

4. Aşağıda gələn əməllərin hamısının hökmünü qeyd elə:

| Məsələ | Hökmü |
|---|---|
| Fəcrdən sonra oruc üçün niyyət etdi | |
| Niyyətsiz oruc | |
| Uşağın orucu | |
| Müsafirin orucu | |
| Nifaslı qadının orucu | |
| Bacarmayanın orucu | |
| Oruclu ikən yemək | |

| | |
|---|---|
| Orucluya qidalandırıcı iynə vurmaq | |
| Göz damcıları | |
| Sakitləşdirici iynə vurmaq | |
| Hicama elətdirmək | |
| Qaytarmaq | |
| Tüpürcəyi udmaq | |
| Yeməyin dadına baxmaq | |
| Yatmaq | |
| Duş qəbul etmək | |
| Sərinlənmək | |
| Misvakdan istifadə etmək | |
| Ətirin tüstüsün iyləmək | |
| Suhurun vaxtı | |
| Nə ilə suhur edir? | |
| Nə ilə iftarını açır? | ……………….. əgər tapmasa<br>……………… əgər tapmasa<br>……………...….. əgər tapmasa<br>……………………………………….. |
| Təraveh namazı | |
| Ramazanda ümrə | |
| Oruclu ikə ağzını çox yaxalamaq | |

| | |
|---|---|
| Oruc tutan üçün qibləyə üz tutmaq | |
| Ard-arda iki gün orucu birləşdirmək | |
| Şəvval ayından altı gün oruc tutmaq | |
| Arafa günü oruc tutmaq | |
| Şəkk günü oruc tutmaq | |
| Bayram günü oruc tutmaq | |
| Təşriq günləri oruc tutmaq | |
| Məhərrəm ayında oruc tutmaq | |
| Rəcəb ayında oruc tutmaq | |
| Bütün ili oruc tutmaq | |
| Cümə günü oruc tutmaq | |
| Digər ramazana kimi qəzanı gecikdirmək | |

## Dördüncü: Həcc

Həcc İslamın 5-ci rükunudur. Həcc ziyarəti müsəlman, ağlı başında olan, həddi-büluğa çatmış, azad və bacarığı olan kəsə vacibdir. Həcc üçün səfərə ehtiyacı olan qadına məhrəm də (ər, ata, qardaş və s.) şərtdir. Həccin rükunları dörddür:

### Ehram

Bu da həccə daxil olmaq üçün niyyətdir. Bu nə "təlbiyyə", nə də "rida" və "izar" geyinmək deyil.

### Arafada durmaq

Zil hiccənin 9-u gün ortada olandan. Peyğəmbər ﷺ buyurub: "*Həcc Arafadır*".

### İfada təvafı

Ziyarət təvafı. Bu arafada durduqdan sonra olur. Bu gəliş təvafı deyil.

### Səy etmək

Səfa və mərva arasını gəzmək. Allah buyurur: **"Həqiqətən, Səfa və Mərvə Allahın qoyduğu nişanələrdəndir"** (Bəqərə:158).

## Həccin növləri

### *Təməttu*

Həcc aylarında ümrə edər və ehramdan azad olar. Sonra həmin ildə həcc edər və qurban kəsər.

### *Qiraan*

Həcc və Ümrəni birlikdə niyyət edib əməlləri tək-tək etməklə yerinə yetirir və qurban kəsir

### *İfraad*

Ancaq Həcc ziyarətinə niyyət edir və əməlləri tək-tək etməklə yerinə yetirir.

## Həccin vacibatları

Kim bu vacibatlardan birini tərk edərsə, onun üzərinə bir qoyun kəsmək vacib olur. Bu qoyunu da haram ərazidə kəsib Məkkənin kasıb əhalisinə paylamaq lazımdır. Özü də həmin qurbandan yeməsi icazəli deyil.

- Miqatdan ehrama girmək.
- Arafada gün batana kimi qalmaq. Bu, gündüz ora çatanlara aiddir.
- Müzdəlifədə gecələmək
- Təşriq günlərini minada gecələmək.
- Camarata daş atmaq
- Saçı qırxmaq və ya qısaltmaq
- Həcc aylarından sonra da olsa, Məkkəni tərk etmək istəyənlər üçün vida təvafı. Heyz və nifaslı qadınlar istisnadır

## Həcc və ümrə üçün miqat

### Məkanı

-**Zul huleyfə** Mədinə əhalisi və oradan keçənlər üçündür.
-**Əl Cuhfə** Şaam, Misir və Mərakeş əhalisi üçün.
-**Qarnul Mənəəzil** Nəcd əhalisi üçün.
-**Yələmləm** Yəmən əhalisi üçün.
-**Zətu İrq** İraq əhahisi üçün.

### Zamanı

Həcc ayları:

**Şəvval, Zul Qadə** və **Zul Hiccə**.

Miqatın vaxtı həccə məxsusdur, ümrə üçün isə xüsusi vaxta ehtiyac yoxdur.

## Həccin sünnələri

Ehram üçün yuyunub ətirlənmək

Kişilərə ağ “rida” və “izar” geyinmək

Ehrama niyyət etməmiş dırnaqları tutmaq və qırxınmaq.

Ehrama daxil olandan camarata daş atana kimi təlbiyyə demək

“İfrad” və “Qiran” həcci edənlər üçün gəliş təvafı.

“Təməttu” həccinin ümrə təvafında və gəliş təvafında birinci üç dövrü sürətlənmək (raml etmək).
Bu qaçışla gəzmək arasında olan sürətli yeriməkdir.

“Təməttu” həccinin ümrə təvafında və gəliş təvafında (İdtibəa) etmək. Yəni sağ çiyini açmaq.

Müzdəlifəyə çatdıqda İşa və Məğrib namazlarını cəm edib ilk vaxtında qılmaq

Arafa gecəsi minada gecələmək

Qara daşı öpmək.

Sübhdən günəş çıxana qədər Müzdəlifədə durmaq. Müzdəlifənin hər yerində durmaq olar.

## Ehramda qadağa olan əməllər

Bunlar doqquzdur: Bədənin və ya başın hər hansı bir yerindən saçların qırxılması, dırnaq tutmaq, kişilərin başını üzərinə bir şey qoyaraq örtmək, bədənin hər hansı bir hissəsinin formasını alan paltar geymək, qadınlar üçün üz örtüyü və əlcək taxmaq, ətirlənmək, quruda yaşayan heyvanları öldürmək və ya ovlamaq, evlənmək və ya kimisə evləndirmək, cinsi əlaqə, qadına toxunmaq. Əgər yuxarıda sadalananlardan hər hansı birini unutaraq, bilmədən və ya zorla etsə, edənin üzərinə heç bir şey vacib olmur. Heyvanı öldürən kəsdən başqa, onun üzərinə fidyə vacib olur. Amma qəsdən etməyə gəldikdə isə, burada qadağa olan əməllər 4-ə bölünür:

| Fidyə vacib olmayanlar | Fidyəsi özü kimi olan | Çətin fidyə | Fidyəsi əziyyətlə yerinə yetirilən |
|---|---|---|---|
| Evlənmək və ya kimisə evləndirmək. Eynilə, sperma çıxmadığı müddətcə qadının övrətinə toxunmadan qadına toxunmaq; Buna kəffarə yoxdur yalnız tövbə vacib olur. | Quruda yaşayan heyvanları öldürmək və ya ovlamaq. Onu öldürənə fidyə vacib olur. Bu da ədalət sahibləri tərəfindən mühakimə olunan heyvanla verilən cəzadır. | Cinsi əlaqədə olmaq; Birinci ehramdan (təhəllüldən) azad olunmazdan əvvəl cinsi əlaqədə olan şəxs həccini batil etmiş və həcci batil olmasına baxmayaraq həccini tamamlamalıdır. Yenidən həcc etməli və qurban olaraq dəvə kəsməlidir. | Qalan qadağalar bura daxildir; Bunun fidyəsi seçimdən asılıdır: Ya 3 gün oruc tutmaq, ya hər birinə yarım saa olmaqla 6 kasıba yemək vermək və ya qoyun kəsib əti Məkkə kasıblarına paylamaq. |

## Həcc günlərinin adları

| 8-ci gün. | 9-cu gün. | 10-cu gün. | 11-ci gün. | 12-ci gün. | 13-cü gün. |
|---|---|---|---|---|---|
| Tərviyə günü Bu gündə Minaya su gətirərdilər. | Arafa günü və ya duruş günü. | Bayram günü və ya Qurban günü. | Qarr günü. (Minada qərar tutulan gün) | Birinci Ən-Nəfr (Gediş) günü. | İkinci Ən-Nəfr (Gediş) günü. |

Cəm günü bayram günüdür. İnsanlar arafada durduqdan sonra orada toplaşdığı üçün belə adlanır. İslamdan əvvəl Məkkə əhalisi arafaya getməzdi.

## Həccdə dua etmək üçün beş yer

| | | | | |
|---|---|---|---|---|
| Doqquzuncu gün günortadan sonra gün batana kimi arafada dua. | Müzdəlifədə sübh namazından sonra günəş çıxana az qalmışa qədər dua. | Təşriq günlərində Kiçik və Orta “Aqabaya” daş atdıqdan sonra dua. | Təvaf zamanı dua | Səfa və Mərva üzərində dayanarkən və eləcə də onların arasında gəzərkən dua. |

## Həcc və ümrənin vəsfi

**Şeyx Muhəmməd ibn Saleh əl-Useymin (Allah ona rəhmət etsin) buyurur:**

Miqata çatdıqdan sonra duş qəbul edin, kişilər bədəninizə, başınıza və saqqalınıza ətir sürtün. Sonra ehramı geyinib Təmatu ümrəsini etməyə niyyət edin və Təlbiyə deyərək Məkkəyə tərəf gedin. Kəbəyə çatanda ümrə təvafı üçün 7 dəfə kəbəni dövr edin. Bilin ki, siz Məscidin hər yerində təvaf edə bilərsiniz, istər Kəbəyə yaxın, istərsə də uzaq yerdə. Əgər izdiham sizə əziyyət verməyəksə onu daha yaxından təvaf etmək daha yaxşıdır. Əgər çox sıxdırsa, onda oradan uzaqlaşın, bunda Allaha həmd olsun heç bir problem yoxdur. Təvafı tamamladıqdan sonra İbrahim (əleyhissalam) məqamının arxasında istər yaxın olsun istərsə də uzaq, 2 rükət namaz qılın. Əsas olan Məqam sizinlə Kəbə arasında olduğu müddətcə istənilən yerdə qıla bilərsiz. Sonra ümrə üçün Səy etməyə gedin və Səfadan səyə başlayın. Yeddi dövrü tamamladıqdan sonra saçın bütün hissəsini qırxın; Yalnız başın bir hissəsinin saçın kəsdirməklə kifayətlənməyin, çoxlarının etdiyi bu hərəkətə aldanmayın.

Zülhiccə ayının səkkizinci günü olduqda duş qəbul edin, (kişilər) ətirlənin, olduğunuz yerdən həcc üçün ehrama girin. Minaya gedin, orada zöhr, əsr, məğrib, işa və sübh namazlarını cəm etmədən qısaldaraq qılın. Çünki Peyğəmbərimiz ﷺ Minada və Məkkədə namazı qısaldardı, lakin cəm etməzdi. Ərəfə günü günəş doğduğu zaman xuşu ilə və təlbiyyə deyərək arafaya gedib. Ərəfədə zöhr və əsr namazlarını birləşdirərək hər biri iki rükət qılın. Sonra Allaha dua edib Ona yalvarın. Çalışın ki dəstəmazlı olasınız. Arafa dağı arxanızda olsa belə qibləyə yönəlin, çünki belə etmək sünnədir. Arafanın sərhədlərini diqqətlə yoxlayın və orada olduğunuzdan əmin olun, həcc edənlərin çoxu arafadan çöldə qalır. Arafada qalmayanların həccləri Peyğəmbərimizin ﷺ kəlamına görə düzgün olmaz: "***Həcc Arafadır***".

Arafada istənilən yerdə qala bilər; şərq, qərb, cənub, şimal, "Urnah" vadisi istisnadır. Peyğəmbər ﷺ Buyurub: **"Mən burada qaldım, siz Arafanın hər yerində qala bilərsiniz".**

Gün batanda xuşu ilə talbiyyə edərək Müzdəlifəyə yola düşün. Mümkün olduğunca sakit yolunuza davam edin. Necə ki, bunu Peyğəmbəriniz ﷺ sizə əmr edib. O, Ərəfədən ayrılıb dəvəsini kəndirlə bağladı və başı az qala yəhərə dəyirdi və öz kəramətli əli ilə işarə edərək bizə dedi. "**Ey insanlar, sakit olun, sakit olun**".

Müzdəlifəyə çatdıqdan sonra məğrib və işa namazlarını qılın və sübhə qədər yatın. Peyğəmbər ﷺ zəif, qoca və xəstələrdən başqa heç kimin sübhdən əvvəl çıxmasına icazə verməmişdir. onlara gecənin sonunda getməyə icazə verdi. Sübh namazını qıldıqdan sonra üzünüzü qibləyə çevirin və "Allahu Əkbər" və "Əlhəmdulilləh" deyin və hava saralana kimi dua edin. Sonra, günəş doğmamışdan əvvəl, Minaya gedin. Yeddi daş götürün və Məkkə tərəfdə sonuncu olan Böyük "Aqaba"ya gedin və günəş çıxandan sonra hər dəfə Allahu Əkbər deyərək (Allahı) təzim edib ona boyun əyərək yeddi daşı bir-bir atın.

Bil ki, daş atmağın səbəbi Allahı təzim etmək və Onu zikr etməkdir. Böyük "Aqaba"ya vurmaq şərt deyil, oradakı çuxura daşların düşməsi şərtdir. Daş atdıqdan sonra həcc qurbanı kəsin. Həcc qurbanının şərtləri adi qurbanın şərtləri kimidir. Sizin adınıza qurban kəsmək üçün kimisə təyin etmək icazəlidir. Qurban kəsdikdən sonra bütün başınızı qırxın, bir hissəsini qırxmaq icazəli deyil. Qadınlar saçlarının uclarından təxminən bir sm kəsdirirlər. Bundan sonra birinci ehramdan (təhəllüldən) çıxmış sayılırsınız. İndi sən normal paltar geyinin, dırnaqlarınızı kəsin, ətirlənin, amma həyat yoldaşınızla yaxınlıq etməyin. Zöhr namazından əvvəl Məkkəyə gedin və həcc üçün təvaf və səy edin. Sonra Minaya qayıdın. Təvaf və səyi tamamladıqdan, daş atdıqdan və saçınızı qırxdıqdan sonra ikinci ehramdan (təhəllüldən) çıxmış sayılırsınız, artıq həyat yoldaşınızla belə yaxınlıq edə bilərsiniz.

Ey insanlar, həcc edən şəxs bayram günü dörd əməl etməlidir: daş atmaq, sonra qurban kəsmək, sonra saçını qırxmaq, sonra təvaf və səy etmək. Bu kamil tərtibatdır. Lakin, əgər yerlərini dəyişsəniz və qurban kəsməzdən əvvəl təraş etsəniz, bu problem deyil. Əgər təvaf və sə'yi Minadan qayıdana qədər gecikdirsəniz, bu da problem deyil. Əgər Qurban kəsməyi gecikdirsəniz və onu ayın on üçündə Məkkədə etsəniz, bu da problem deyil, xüsusilə də ehtiyac və ya daha böyük fayda varsa.

On birinci gecəni Minada gecələyin. Günortadan sonra Kiçikdən başlayaraq, Orta sonra Böyük "Aqaba"ya daş atın. Hər daşı atanda Allahu Əkbər deyərək hərəsinə yeddi daş atın. Bayram günü daş atmaq vaxtı günəş çıxandan başlayır, (zəiflər üçün sübhdən əvvəl) gün batana qədər davam edir. Bayramdan sonrakı günlərdə isə, günortadan gün batana qədər. Günortadan əvvəl daş atmaq olmaz. Gündüz çox izdiham olarsa, gecə də daç atmağa icazə verilir. Kim azyaşlılığı, qocalığı və ya xəstəliyinə görə gedib daç atmağa gücü çatmazsa, onların yerinə daç atmaq üçün birini təyin etmək olar. Təyin edilmiş şəxsin özü və digəri üçün bir səfərdə atmasına icazə verilir, bir şərtlə ki, birinci öz yerinə atsın. Siz ayın on ikisində daş atsanız, həcc tamam olur və seçiminiz var ki, həcci bitirəsiniz, ya da on üçüncü gecəni Minada gecəliyib, günortanad sonra çınqıl atasınız. Peyğəmbərimizin ﷺ belə etdiyinə görə bu daha yaxşıdır.

Əgər Məkkədən çıxmaq istəyirsənsə, vida təvafını edin. Heyz və nifaslı qadınlara vida təvafı yoxdur və onlara məscidin qapısına yaxınlaşıb orada durmaq icazəli deyil.

# Həcc barədə suallar

1. Həcc kimə vacibdir?

a. ………………………………………………………………………………

b. ………………………………………………………………………………

c. ………………………………………………………………………………

d. ………………………………………………………………………………

e. Qadına əlavə olaraq…………………………………………………………

2- Həccin neçə rükunu var? O 2 O3 O 4

3- Ehram həccin rükunlarındandır və o, miqatda "Rida" və "İzar" geyinmək deməkdir. (Doğrudur – Səhvdir).

4- İfadə təvafı ziyarət təvafından fərqlidir; birincisi rükundur, ikincisi isə sünnə (Doğrudur – Səhvdir).

5. Peyğəmbər ﷺ üç dəfə həcc etdi (Doğrudur – Səhvdir).

6. Dərhal həcc etmək vacibdir (Doğrudur – Səhvdir).

7. Mədinə əhli "yələmləm"-dən ehrama girirlər (Doğrudur – Səhvdir).

8. Ümrə üçün zaman miqatı Ramazan ayıdır (Doğrudur – Səhvdir).

9. Aşağıdakı cümlələrdə boş yerləri doldurun: Həcc və ümrə, ömründə bir dəfə ……….. Kim həcc etdiyi zaman nə …………… nə də ………………… anasının bətnindən çıxdığı gün kimi günahlardan təmizlənəcək. Qəbul olunan həccin mükafatı isə yalnız ………………..

10. Məkkə əhli həcc üçün "tənim"-dən ehrama girir (Doğrudur – Səhvdir).

11. Qadınlar ehram üçün ağ paltar geyinirlər (Doğrudur – Səhvdir).

12. Ehrama girmək istəyən üçün …………… əti vurmaq sünnədir, amma …………… yox.

13. Qadına adi paltar geyinmək icazəli deyil (Doğrudur – Səhvdir).

14. Ehramda kəmər geyinmək icazəli deyil (Doğrudur – Səhvdir).

15. Qadın ehramda nə ……..…….. nə də …...……. geyinmir.

16. Burada "idtibaa" sağ çiyini açmaq sünnədir…

O Ümrə təvafında O Gəliş təvafında O Ziyarət təvafında

O Yalnız birinci və ikincidə O Qeyd olunanların hamısı.

17. Səyi şiddətli etmək sünnətdir (Doğrudur – Səhvdir).

18. Səy …………..da başlayır ………………da bitir

19. Həcc edənlər Arafadan məğribdən öncə gedirlər (Doğrudur – Səhvdir).

20. Arafada durmaq Həccin vaciblərindəndir (Doğrudur – Səhvdir).

21. Həcc edənin əməlləri ……..... gündən başlayır və ............ günə kimi davam edir

22. Arafada dağa qalxmaq sünnə deyil (Doğrudur – Səhvdir).

23. "Təməttu" və "Qiran" həcci edənlərə qurban kəsmək vacib, "ifrad" həcci edənlərə sünnədir (Doğrudur – Səhvdir).

24. Təlbiyyəni bayram günü böyük "Aqaba"ya daş atana qədər deyilir (Doğrudur – Səhvdir).

25. Həcc edən daşları “aqaba”ya dəymədən çuxura atarsa, daş atması səhih sayılar. (Doğrudur – Səhvdir).

26. Həcc edən onuncu gün üç Böyük camarata daş atır. (Doğrudur – Səhvdir).

27. Təşriq günlərində camarata daş atmaq günortadan sonra başlayır (Doğrudur – Səhvdir).

28. Böyük “Aqaba”ya daş atdıqdan sonra dua etmək sünnədir (Doğrudur – Səhvdir).

29. İfadə təvafını Məkkədən çıxmazdan əvvələ kimi təxirə salsa, vida təvafını əvəz edir. İfadə təvafı ümrə təvafı kimidir, yalnız ……………… və …………………başqa

30. “Qiran” və “İfrad” Həcci edənlər ............səy edirdlər, “Təməttu” həcci edənlər isə ……………….. səy edir.

31. Aşağıda gələnlərin hökmünü qeyd elə:

| Məsələ | Hökmü |
|---|---|
| Azyaşlının həcci | |
| Məhrəmsiz qadının həcci | |
| Borclu kəsin həcci | |

# On beşinci dərs

## Hər müsəlmanın islam əxlaqı daşıması

Hər müsəlmanın islam əxlaqı daşıması, yəni: Sadiq, təhlükəsiz, iffətli, həyalı, cəsarətli, səxavətli, vəfalı, Allahın haram buyurduğu hər şeydən uzaq duran, mehriban qonşuluq, imkan daxilində ehtiyacı olanlara kömək etmək və Quran və Sünnənin şəriət olaraq göstərdiyi digər ədəblər kimi.

### Mühüm qeydlər

-(Sadiqlik) Sözdə, əməldə və etiqadda Allaha qarşı doğru olmalıdır. Eləcə də Allahın qullarına qarşı doğru olmalıdır. Bunun əksi yalan danışmaqdır.

-(Təhlükəsiz / Əmin-aman) İnsanın daşıdığı böyük bir fərzdir. Bunun əksi xəyanətdir.

-(İffətli olmaq) Haramlardan çəkinmək.

-(Həya) İnsanı yaxşı işlər görməyə və pis işlərdən uzaqlaşmağa vadar edən ədəbdir.

-(Mehriban qonşuluq) Baxışları aşağı salmaq və onların günahların açmamaq.

-(Ehtiyacı olanlara kömək etmək) The Prophet ﷺ has said: “Kim bir müsəlmanın dünya sıxıtılarından birini aradan qaldırarsa, Allah da onu qiyamət günü sıxıntılardan qoruyar. Kim bir müsəlmanın işini asanlaşdırarsa, Allah da onun dünya və axirət işlərini asanlaşdırar. Kim, müsəlmanın ayıbını örtərsə, Allah da onun dünya və axirətdə ayıbını örtər. Bəndə öz qardaşına köməkçi olduğu müddətcə, Allah da onun köməkçisi olar.” (Muslim).

# On altıncı dərs

## İslam ədəbi ilə ədəblənmək

Bunlar: Salam vermək, gülərüz olmaq, sağ əllə yeyib-içmək, yemək-içməkdən əvvəl “bismilləh” demək, yeyib-içdikdən sonra “əlhəmdulilləh” demək, asqıranda “əlhəmdu liləh” demək, bir insanın asqırdığını eşidib “əlhəmdulilləh” dedikdə “yarhamukAllah” demək, xəstələri ziyarət etmək, cənazə namazı qılmaq və dəfn etmək üçün ardınca getmək. Eləcə də, məscidə və evə daxil olub çıxarkən, səfərdə, valideyinlərlə, qohum-əqrəba ilə, qonum-qonşu ilə, böyük-kiçiklə olan İslami ədəblərə əməl etmək. Yeni doğulan körpə olduqda dua etmək, evlənənləri təbrik etmək, vəfat edənin ailəsinə başsağlığı vermək, paltar və ayaqqabı geyinib çıxararkən və sair kimi İslami ədəbləri yerinə yetirmək.

## Mühüm qeydlər

"Salam vermək" Bunun əm kamil forması: *"Assələəmu aleykum va rahmatu-llahi va bərakəətuhu"*, tanıdığın və tanımadığın hər kəsə salam verməli və salam verənə da cavab verməlisən.

"Sağ əllə yeyib içmək" vacibdir. Üç barmaqla yemək sünnətdir. Sağ əllə alıb vermək müstəhəbdir.

"Başlayanda Allahın adın çəkmək " yəni “Bismilləh” demək.

"Bitirdikdə “Əlhəmdulilləh” demək" Hədislərdə gələn həmdin növlərindən: **“Əlhəmdulilləhilləzi ətaməni həzə va razəqanihi min ğayri həuvlin minni va lə quvvəh”**

Qarşısından yemək və yediyi yeməyi eyibləməmək sünnədəndir.

"Bir insanın asqırdığını eşidib “əlhəmdulilləh” dedikdə “yarhamukAllah” demək " Bunu dedikdə asqıran bu zikri deyir: “Yəhdiyəkumullah va yuslihu baləkum".

"Xəstələri ziyarət etmək" Müvafiq vaxtlarda xəstəni tez-tez ziyarət etmək, xəstənin yanında ziyarəti uzatmır və xəstənin ümidini Allahın rəhmətindən üzdürmür.

"**Cənazə namazı qılmaq və dəfn etmək üçün ardınca getmək**" bu kişilərə aiddir.

"Məscidə və evə daxil olub çıxarkən İslam ədəbləri" Məscidə sağ ayağı ilə daxil olur və **"Bismilləh, va s saləətu va s sələəmu ələ rasulilləh. Allahummə-ftəh lii əbvəəbə rahmətik"** (Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!) deyir. Oradan sol ayağı ilə çıxır və **"Bismilləh, va s saləətu va s sələəmu ələ rasulilləh. Allahummə inni əsəlukə min fadlik.** (Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım! Sənin lütfündən diləyirəm). Evə gəlincə, sağ ayaqla girib-çıxır. Çıxdıqda bunu demək lazımdır **"Bismilləh təvəkkəltu əla Allah va ləə həvlə və ləə quvvətə illə billəh. Allahummə innii əuuzu bikə ən ədill əv 'udall əv əzill əv uzəll əv azlimə əv uzlam əv əchələ əv yuchələ aleyyə"**. (Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır! Allahım! Doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram). Evə daxil olduqda: **"Allahummə innii əsəlukə xayral-məuvlici və xayral-məxraci. Bismilləhi vələcnəə və bismilləhi xaracnəə və ələ rabbinə təvəkkəlnəə.** (Allahın adı ilə girdik, Allahın adı ilə çıxdıq və Rəbbimizə təvəkkül etdik!). Sonra ailəyə salam verilir.

"Evlənənləri təbrik etmək" yəni: **"Bərakəllahu ləkə və bərakə aleykə və cəməə beynəkumə fii xayr"** demək.

"**Vəfat edənin ailəsinə başsağlığı vermək**" Bu da üç yas günü ərzində olur.

# On yeddinci dərs

## Şirkdən və asiliklərdən çəkindirmək

Bunlardan bəziləri: Yeddi həlakedici günahlar: "Allaha şərik qoşmaq, Sehr (cadugarlıq) etmək, Allahın öldürməyi haram buyurduğu cana nahaq yerə qəsd etmək, sələm yemək, yetimin malını yemək, döyüş meydanından qaçmaq və zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham etmək.

Eləcə də: Valideyinlərin üzünə ağ olmaq, qohumluq əlaqələrini kəsmək, yalan şahidlik etmək, yalan and içmək, qonşuya əziyyət vermək, insanların qanı, malı və namusuna toxunmaq, sərxoşedici içkilər içmək, qumar oynamaq, qeybət və nəmmamlıq etmək və Allah və Rəsulunun haram etdiyi digər böyük günahlar.

## Mühüm qeydlər

" Allaha şərik qoşmaq " Kiçik və böyük çirki əhatə edir.

" Sehr (cadugarlıq) etmək " məsələn, ərlə arvadı ayırmaq və ya birləşdirmək. Kim ona əməl etsə və ya ondan razı qalsa, küfr etmiş olar. Onların yanına getmək, saytlarına, kanallarına daxil olmaq, qəzet və jurnallarda ulduz falı oxumaq haramdır. Sehrlə sehri müalicə etmək olmaz, əksinə, sehri şərii ruqiyyə etmək, dua etmək və hicama kimi icazəli olan yollarla müalicə edilməlidir.

" Allahın öldürməyi haram buyurduğu cana nahaq yerə qəsd etmək " istər müsəlman olsun, istər müsəlman hakimiyyəti altında cizyə verib yaşayan kafir (zimmi) olsun, istərsə də müsəlmanlar tərəfindən öz ölkəsində və ya müsəlman ölkəsində təhlükəsizliyinə əhd verilən kafir (muahid) olsun, istərsə də müsəlman hakimiyyəti altında işləyən kafir (mustəmin) olsun.

"Nahaq yerə qəsd etmək": Bunlar üç qrupdur: Qana qan (qisas), zinakar və dinini tərk edib camaatdan ayrılan.

"Yetim" Həddi buluğa çatmayıb atasını itirənə deyilir.
"Döyüş meydanından qaçmaq" Allah yolunda vuruşan bir ordudan qaçan qəsd olunur.
"İsmətli mömin qadınları zinada ittiham etmək " yəni subay qadınlar, evli qadınlar yox.
"Yalandan and içmək " və eləcə də, Allahdan başqasına and içmək, məsələn, Peyğəmbərəﷺ həyata, şəfərə, qəbirlərə ağ saça və s. and içmək kimi.
"Qumar oynamaq" Bu lotoreya kimi udmağı və itirməyi ehtiva edən hər bir əməliyyatdır.
"Qeybət" Peyğəmbər ﷺ bunu: "Qardaşın haqqında onun xoşlamadığı bir şeyi söyləmək" kimi tərif etmişdir.
"Nəmmamlıq" İnsanlar arasında söz gəzdirməkdir .

## Yarışlar və müsabiqələrin hökmü.

| Ödənişli və ya ödənişsiz icazə verilir: | Haramdır: | Ödənişsiz icazəlidir, ödənişlə isə icazəli deyil: |
|---|---|---|
| At və dəvə yarışı və ox atma. Peyğəmbərﷺ buyurub: " Oxçuluqdan, dəvə yarışından, at yarışından başqa yarışlarda müsabiqə etməyin". (Abu Davud) | Nərd, şahmat və bunlar kimilər. | Qeyd olunanlardan başqa bütün yarışlar bura daxildir. |

# On səkkizinci dərs

**Meyiti hazırlamaq, namazını qılmaq və dəfn etmək**

**Birinci**: Ölüm ayağında olan şəxsə “Lə iləhə iləlləllah” deməyi xatırlatmaq lazımdır. Peyğəmbər ﷺ buyurub: " Ölülərinizə Lə iləhə iləllah kəliməsini təlqin edin". Ölülərinizə dedikdə, ölüm ayağında olanlar qəsd olunur.

**İkinci**: Ölüm dəqiqləşdikdən sonra sünnətdə göstərildiyi kimi gözlər bağlanmalı və saç-saqqalı bağlanmalıdır.

**Üçüncü**: Döyüş meydanında həlak olmuş şəhidlər istisna olmaqla, ölü müsəlmanın cəsədini yumaq vacibdir. Şəhidlərin isə cəsədi yuyulmur, onlara cənazə namazı qılınmır və onlar paltarları ilə dəfn edilirlər. Çünki Peyğəmbər ﷺ Uhud şəhidlərini yumamış və onlara cənazə namazı qılmamışdır.

**Dördüncü**: Meyidi yumağın vəsfi: İlk öncə övrəti örtülür. Sonra o, bir qədər yuxarı qaldırılır və mədəsi yumşaq bir şəkildə sıxılır. Meyiti yuyan öz əlinə dəsmal bağlayır və onunla bədənini yuyur. Sonra ölü üçün namaza dəstəmaz aldığı kimi dəstəmaz aldırır. Sonra başı və saqqalı su və sidr və ya buna bənzər bir şeylə yuyulur. Sonra sağ tərəfini, sonra isə sol tərəfini üç dəfə yuyur, hər dəfə yuduqda əlini qarnından keçirir. Əgər qarnından bir şey çıxsa, onu yuyur. Sonra bir parça pambıq və ya buna bənzər bir şeylə keçidi bağlayır. Əgər bağlamaq mümkün deyilsə, o zaman palçıq və ya leykoplastr kimi müasir tibbi ləvazimatlarla bağlayır. Sonra dəstəmazını təkrar aldırır. Əgər bədən üzvlərini 3 dəfə yumaq kifayət etməzsə, hər birini 5 və ya 7 dəfə yuya bilər. Sonra bir parça ilə qurudulur. Sonra qoltuqaltına, budun alt hissəsinə və səcdə edilən yerə ətir sürtülür. Bütün bədənini ətirləsə daha yaxşı olar. Kəfənlərə də ətir çəkilməlidir. Bığ və dırnaqlar uzundursa, onları qısaltmaq olar, onları qısaltmasa belə problem deyil.

Saçlar açılmır, övrət ətrafı qırxılmır və bunu sübut edəcək dəlil olmadığı üçün sünnət edilmir. Qadınların saçları üç hissəyə hörülməli və arxasına çəkilməlidir.

**Beşinci**: Meyiti kəfənləmək: Ən yaxşısı kişini 3 ədəd ağ parça ilə kəfənləməkdir, nə köynək, nə də əmmamə olmamalıdır, çünki Peyğəmbəri ﷺ belə etmişdilər. O, tədricən ona sarılmalıdır. Bir paltar, izar və örtüklə basdırılsa belə problem deyil.

Qadınlar 5 parça ilə kəfənlənməlidir; uzun köynək, baş örtüyü, belin sarğısı və ətrafına sarılmış 2 parça.

Kiçik oğlan uşağı 1-3 parça, kiçik qız uşağı isə bir paltar və 2 parça ilə kəfənlənir.

Hər kəsə vacib olan bütün bədəni örtən 1 parça kəfəndir.

Lakin ehramlıda olan, su və sidr ilə yuyulmalıdır. Üzərində olan ehramı və ya ondan başqa 2 parça ilə kəfənlənməlidir. Başı və üzü örtülməməli və ətir vurulmamalıdır. Çünki o, qiyamət günü təlbiyyə deyərək dirildiləcəkdir; bu Peyğəmbərdən ﷺ səhih rivayətlə nəql edilmişdir.

Ehramlı qadındırsa, başqaları kimi kəfənlənir, lakin ona ətir vurulmamalı, üzünə niqab örtülməməli, əllərinə əlcək geyindirilməməli. Lakin onun üzü və əlləri, ölən qadının necə hazırlanacağı barədə yuxarıda deyildiyi kimi, kəfənlə örtülməlidir.

**Altıncı**: Ölən kişini yumaqda, namaz qılmaqda və dəfn etməkdə ən layiqlisi: İlk öncə ölənin vəsiyyət etdiyi şəxs, sonra ata, sonra baba, sonra ən yaxın qohumlarıdır. Bu kişiyə aiddir.

Qadını yumağa ən layiq olanı: İlk öncə ölənin vəsiyyət etdiyi şəxs, sonra anası, sonra nənəsi, sonra ən yaxın qadın qohumlarıdır. Ər-arvad bir-birini yuya bilər. Çünki Əbu Bəkrin arvadı onu, Əli isə arvadı Fatiməni (Allah onlardan razı olsun) yudu.

**Yeddinci**: Cənazə namazının vəsfi: Dörd təkbir deyilir, birincidən sonra Fatihə surəsi oxunur. Əgər başqa bir surə, və ya bir-iki ayə oxusa, bu, İbn Abbasın rəvayət etdiyi səhih hədisə görə məqbuldur.

İkinci təkbirdən sonra Təşəhüddəki salavat kimi Peyğəmbərə ﷺ salavat deyin. Üçüncü təkbirdən sonra bu duanı elə: " Allahummə-ğfir lihəyyinə və məyyitinə və şahidinə və ğaibinə və sağirinə və kəbirinə və zəkərinə və unsanə. Allahummə mən əhyəytəhu minnə fə əhyihi aləl-isləm və mən təvaffəytəhu minnə fətəvaffəhu aləl-imən. Allahummə lə təhrimnə əcrahu və lə tudillənə bə'dəhu. Allahummə-ğfir ləhu vərhəmhu və afihi va'fu anhu və əkrim nuzuləhu və vəssi' mudxaləhu vəğsilhu bil-məi vəs-səlci vəl-bəradi və nəqqıhi minəl-xətayə kəmə nəqqaytəs-səubəl-əbyəda minəd-dənəsi, və əbdilhu dəran xayran min dərihi, və əhlən xayran min əhlihi, və zəucən xayran min zəucihi və ədxilhul-cənnətə və əizhu min əzabil-qabri [və əzabin-nəri]. Və nəvvir ləhu fihi. Allahummə lə təhrimnə əcrahu və lə tədillənə bəadəhu".(Allahım! Dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım! Bizdən kimi yaşatsan müsəlman kimi yaşat! Bizdən kimi öldürsən mömin kimi öldür! Allahım! Onun əcrindən bizi məhrum etmə və ondan sonra bizi azdırma! Allahım! Onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu! Ağ paltarı kirdən təmizlədiyin kimi onu da günahlardan təmizlə! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə, zövcəsinin əvəzinə daha xeyirli zövcə ver! Onu Cənnətə daxil et! Onu qəbir əzabından (və Cəhənnəm əzabından) qoru! Onun qəbrini nurlandır. Allahım! Onun əcrini bizdən əsirgəmə və bizi ondan sonra azdırma). Dördüncü təkbirdən sonra yalnız sağ tərəfə bir dəfə salam veriri. Hər dəfə təkbir gətirəndə əlləri qaldırmaq müstəhəbdir. Əgər meyyit qadın olarsa dualarda “Allahumməğfir ləhə...” deyilir. Əgər meyyit ikidirsə, ikili forma istifadə olunur“Allahumməğfir ləhumə...”, ikidən çoxdursa, cəm formasından istifadə olunur“Allahumməğfir ləhum...”.

Əgər uşaqdırsa, bağışlanma diləmək əvəzinə: “Allahummə-c'alhu fəratan və zuxran livalidəyhi və şəfian mucəbən. Allahummə səqqil bihi məvazinəhumə və ə'zim bihi ucurahumə və əlhiqhu bisalihil-mu'mininə vəc'alhu fi kəfaləti İbrahim və qıhi birahmətikə əzabəl-cəhim”.

(Allahım! Onu valideynləri üçün (cənnətə girməkdə onları) qabaqlayan, saxlanılan bir nemət və duası qəbul olunan bir şəfaətçi et! Allahım! Onun sayəsində onların (yaxşı əməl) tərəzilərini ağır et və onların mükafatlarını böyük et! Onu əməlisaleh möminlərə qovuşdur və İbrahimin himayəsinə götür. Öz mərhəmətinlə onu Cəhənnəm əzabından qoru!).

İmam cənazə namazında kişinin başı tərəfdə qadının qarnı tərəfdə durur. Əgər birdən çox vəfat edən varsa, imam kişinin düz arxasında, qadın isə qibləyə yaxın olmalıdır. Əgər ölülərin içində oğlan uşağı da varsa, uşaq qadından əvvəl qoyulur sonra qadın sonra isə qız uşağı. Oğlan uşağının başı kişinin başı ilə eyni səviyyədə, qız uşağının başı qadının başı ilə eyni səviyyədə, qadının bədəni isə kişinin başı ilə eyni səviyyədə olmalıdır.Digər namaz qılanlar da imamın axrasında dururlar. Əgər bir nəfər yer tapmasa imamın yanında dura bilər.

**Səkkizinci**: Meyitin dəfn edilməsi: Qəbiri kişinin yarısına kimi dərin qazımaq sünnədir. Qəbirin içindən qiblə tərəfə “ləhd” (mehit üçün yanda yer) qazınmalıdır. Meyit sağ çiyini üstə “ləhd”-ə qoyulur və kəfənin düyünləri açılır orada tərk edilir. Kişi və ya qadın olmasından asılı olmayaraq üz açılmamalıdır. Sonra bədəni torpaqdan qorumaq üçün onun arxasına kərpic qoyulmalıdır. Kərpic tapılmasa, daş, beton piltə və ya taxta kimi yerin bədənə birbaşa dəyməsinə mane olacaq başqa bir şey. Dəfn edərkən “Bismilləh, və ələ milləti rasulləh”. (Allahın adı ilə və Rasulullahın milləti (sünnəti) üzrə). Yerin üstündəki torpaq bir dirsək olmalıdır, üstünə kiçik çınqıllar qoyulmalı və mümkünsə üzərinə su tökülməlidir.

Həmçinin, meyiti dəfn edənlərə də müstəhəbdir ki, qəbrin başında durub ölü üçün dua etsinlər, çünki Peyğəmbər ﷺ meyiti dəfn etdikdən sonra qəbrin başında dayanıb deyərdi: “Qardaşınız üçün bağışlanma diləyin və onun sabit qalmasını istəyin, çünki o indi, sorğu-sual olunur”.

**Doqquzuncu**: Kim cənazə namazına çatmayıbsa, dəfn etdikdən sonra onun üzərində cənazə namazı qıla bilər. Çünki Peyğəmbər ﷺ belə etmişdir. Bir şərtlə ki, bir aydan çox vaxt keçməsin. Əgər bir aydan çox vaxt keçərsə qəbirin üzərində cənazə namazı qılmaq icazəli deyil. Çünki Peyğəmbərdən ﷺ belə etdiyinə dair bir hədis gəlməmişdir.

**Onuncu**: Cərir ibn Abdullah əl-Bəcəlinin dediyinə görə ölünün ailəsinin camaat üçün yemək hazırlaması icazəli deyil, O buyurur: " Biz ölünün ailəsinin yanında (evində) toplaşmağı və dəfn edildikdən sonra gələnlər üçün yemək hazırlamağı “niyəhə” hesab edərdik”. “Niyəhə” üz-göz cıraraq şiddətli ağlamağa deyilir. Ölənin ailəsi və ya qonaqlar üçün yemək hazırlamağa gəlincə, bu halaldır. Qohumların və qonşuların onlara yemək hazırlaması icazəlidir. Çünki Peyğəmbərə ﷺ Cəfər ibn Əbi Talibin Şamda vəfat etdiyi xəbəri gəldiyi zaman, öz ailəsinə Cəfərin ailəsi üçün yemək hazırlamağı əmr etdi və dedi: "**Onları məşğul edəcək bir şey gəldi**". Ölənin ailəsinin öz qonşularını və ya başqalarını onlara hədiyyə edilən yeməkdən yeməyə dəvət etməsi icazəlidir. Sadəcə şəriətdə bunun üçün xüsusi bir vaxt göstərilməyib.

**On birinci**: Qadının ərindən başqasına 3 gündən artıq yas tutması icazəli deyil. Ərinə isə 4 ay 10 gün yas tutması vacibdir. Amma əgər hamilədirsə, Peyğəmbərin ﷺ sünnəsindən səhih hədislərə görə uşaq dünyaya gətirənə qədər. Kişiyə isə öz qohumlarının və başqalarının yasını tutmasına icazə verilmir.

**On ikinci**: Peyğəmbərin ﷺ kəlamına görə kişilərə müstəhəbbdir ki, qəbirdə olanlar üçün dua etmək, onlar üçün rəhmət diləmək, ölümü və ondan sonra gələnləri xatırlamaq üçün arabir qəbiristanlığı ziyarət etsinlər. Peyğəmbər ﷺ belə buyurub: " **Qəbrləri ziyarət edin, çünki bu sizə axirəti xatırladacdır**".

O ﷺ , səhabələrinə qəbirləri ziyarət edərkən belə deməyi öyrədərdi: " **Əs-sələmu aleykum əhləd-diyəri minəl-mu'mininə vəl-muslimin və innə inşə Allahu bikum ləhiqunə. Əs'əlullahə lənə və ləkumul-afiyətə. Yərhəmullahul-mustəqdiminə minnə vəl-mustə'xirinə**". (Ey (bu) diyarın mömin və müsəlman sakinləri! Sizə salam olsun! Allah istəsə biz də sizə qovuşacağıq. Allahdan özümüzə və sizə salamatlıq diləyirəm! Allah bizdən əvvəl gedənlərə və qalanlara rəhmət etsin!).

Qadınların qəbrlərii ziyarət etməsi düzgün deyil, çünki:**"Peyğəmbər ﷺ qəbirləri tez-tez ziyarət edən qadınlara lənət etmişdir"**. Üstəlik, qəbirləri ziyarət etməyin onlara fitnə və səbirli olmaq üçün çətin olacağından qorxulur. Həmçinin, onların cənazənin ardınca qəbiristanlığa getmələri də icazəli deyil, çünki Peyğəmbər ﷺ onlara bunu qadağa etmişdir. Məsciddə və ya namazgahda qılınan cənazə namazına gəlincə, bu, həm kişilər, həm də qadınlar üçün şərii şəkildə düzgündür. Bu sondur; Allahın salavat və salamı Peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə və səhabələrinə olsun.

Qəbri ziyarət etməyin qisimləri

| **Şərii ziyarət** | **Bidət ziyarət** | **Şirki ziyarət** |
|---|---|---|
| Axirəti xatırlamaq niyyətində olmaq, bunun üçün səfər etməmək, O, şəriətdə gələn duaları onun üçün və bütün ölülər üçün oxumağı niyyət etmək və şəriətə müxalif olan şeyləri etməmək. | Özləri üçün Allaha dua etməyi niyyət edib qəbiristanlığa getmək. | Əgər ölülərə dua etmək niyyətində olarsa. |

# Keçənlər barədə suallar

1. Şəriətin ədəb və qaydalarına riayət etmək müsəlmanın əxlaqındandır (Doğrudur-Səhvdir).

2. Dinim mənə pis insanlarla yoldaşlıq etməyi və xeyirli insanlardan uzaq olmağı əmr edir (Doğrudur-Səhvdir).

3. İslam bizə xidmətçi, fəhlə və başqaları ilə yaxşı rəftar etməyi öyrətdi (Doğrudur-Səhvdir).

4. Başqalarına dili və əli ilə zərər verənlərlə yoldaşlıq edirəm (Doğrudur-Səhvdir).

5. Məni söyəni söyməkdən həzz alıram (Doğrudur-Səhvdir).

6. İslam mənə ehtiyaclılara və zəiflərə kömək etməyi öyrətdi (Doğrudur-Səhvdir).

7. Müsəlmanın digər müsəlman üzərindəki haqqlarından biri də odur ki, xəstələnəndə onu ziyarət edib ona dua etsin (Doğrudur-Səhvdir).

8. Qonşularının sirrlərini açmaq mömінin sifətlərindəndir. (Doğrudur-Səhvdir).

9. The most beloved people to Allah are the ones who are the most beneficial for the people (Doğrudur-Səhvdir).

10. The supplication for leaving the house is "In the Name of Allah we enter, in the Name of Allah we exit, and upon our Lord we fully rely" (Doğrudur-Səhvdir).

11. Asqırıb “əlhəmdulilləh” dedikdə mənə “yərhəmukəllah” deyənə, “yəhdiyəkumullah va yuslihu bələkum” deyirəm (Doğrudur-Səhvdir).

12. Allahı zikr etmək müsəlmanı qoruyar və Allaha yaxınlaşdırar (Doğrudur-Səhvdir).

13. Müsəlman qardaşınızı sevməyin əlaməti nədir?

..............................................................................

14. İmanının naqis olmasına dəlalət edən şeylərdən: Müsəlman qardaşına paxıllıq etməkdir. (Doğrudur-Səhvdir).

15. Sevgini gətirən səbəblər hansılardır?

..............................................................................

16. Sərxoşedici içkilərdən haram olan sadəcə araqdır (Doğrudur-Səhvdir).

17. Yemək və içməyə üfürmək bəyənilmir (Doğrudur-Səhvdir).

18. Yeməkdən sonra əlləri yumazdan əvvəl barmaqları yalamaq sünnədir (Doğrudur-Səhvdir).

19. Yeməkdə, geyimdə və bəzənməkdə orta yolu tutmaq ən yaxşı yoldur (Doğrudur-Səhvdir).

20. Ölən kişini yumaqda, namaz qılmaqda və dəfn etməkdə ən layiqlisi: …………. sonra……………sonra…………..sonra…………

21. Ölənin yerinə borcunu ödəmək: O Vacibdir O Sünnədir O İcazəlidir.

22. Ölünü dəfn etmək: O Vacibdir O Sünnədir O Fərdu kifəyədir

23. The ruling on reminding the one dying to say " La Ilaha ilaa Allah" is
O a must O recommended O prohibited

24. Ölüm anında olana “lə iləhə illəllah” kəliməsini təlqin etmək:
O Haramdır O İcazəlidir O Bəyənilmir

25. Meyit qəbirə qoyulduqda kəfənin düyünləri açılır (Doğrudur-Səhvdir).

26. Ərlə arvad bir-birilərin öldükdən sonra yumurlar, çünki öldükdən sonra nikah pozulur. (Doğrudur-Səhvdir).

27. Kişi və qadını o kəs yuya bilər:……………………………………

28. Kim cənazə namazına çatmayıbsa, dəfn etdikdən sonra …………cənazə namazı qıla bilər. Bir şərtlə ki…………….. çox vaxt keçməsin.

29. Ölü üçün ağlamaq ümumi olaraq icazəlidir (Doğrudur-Səhvdir).

30. Meyit "ləhd"-in içində qibləyə tərəf qoyulur (Doğrudur-Səhvdir).

# Mündəricat


Müqəddimənin şərhi ……………………………….……………………2

Birinci dərsin şərhi: Fatihə və qısa surələr……..……………………………4

"Təysir Al-Kərim Ar-Rahman" əsərindən seçmələr ………………………..6

Müqəddimə və təfsir barədə suallar ……………………………………....31

İkinci dərsin şərhi: İslamın rükunları ..…………… ………………..…..49

Üçüncü dərsin şərhi: İmanın rükunları ………………………………..…..56

Dördüncü dərsin şərhi: Tövhidin və şirkin qisimləri……………………..61

Beşinci dərsin şərhi: Ehsan …………………………………..........…66

Tövhid barədə suallar…………………………………………………...…67

Altıncı dərsin şərhi: Namazın şərtləri  ……………………………………73

Yeddinci dərsin şərhi: Namazın rükunları  …………………………..…77

Səkkizinci dərsin şərhi: Namazın vacibatları  ……………………………79

Doqquzuncu dərsin şərhi: Təşəhhüd barəsində…………………………...80

Onuncu dərsin şərhi: Namazın sünnələri……………………….…………81

On birinci dərsin şərhi: Namazı batil edən əməllər………………………..83

Səhv səcdəsinin hökümləri…………………………………………..85

Namazın qısa və şəkilli vəsfi…………………………………………86

Namaz barəsində qısaca.........................................................96

Namaz barəsində suallar.........................................................99

On ikinci dərsin şərhi: Dəstəmazın şərtləri..................................104

On üçüncü dərsin şərhi: Dəstəmazın vacibatları...........................106

On dördüncü dərsin şərhi: Dəstəmazı pozan amillər......................107

Dəstəmaz almağın qısa və şəkilli izahı.......................................109

Təmizliyə aid olan məsələlər...................................................112

Təmizlik barədə suallar...........................................................116

Zəkata aid olan məsələlər ........................................................119

Zəkat barədə suallar...............................................................124

Oruca aid olan məsələlər ........................................................128

Oruc barədə suallar ...............................................................135

Həcc və ümrəyə aid olan məsələlər ..........................................138

Həcc barədə suallar ...............................................................146

On beşinci dərsin şərhi: Hər müsəlmanın islam əxlaqı daşıması............149

On altıncı dərsin şərhi: İslam ədəbi ilə ədəblənmək.........................150

On yeddinci dərsin şərhi : Şirkdən və asiliklərdən çəkindirmək...........152

On səkkizinci dərsin şərhi: Meyiti hazırlamaq ................................154

Əxlaq və cənazə bölümü barədə suallar......................................160

# İstifadə olunan kitablar

[1]. "Qurani kərim" Hafzın Asim rivayəti

[2] Abdu-Rrahman Əs-Sədinin (Allah ona rəhmət etsin) (ö.t. 1376) "Təysir Al-Kərim Ar-Rahman Fii Təfsir Kələəm Al-Mənnəən" əsəri.

[3]. İmam abu Abdullah Məhəmməd ibn İsmayıl Əl Buxarinin "Səhih Buxari" əsəri (Allah ona rəhmət etsin) (ö.t. 256).

[4]. İmam abu Hüseyn Müslim ibn Əl Həccəc Ən-Neysaburinin (Allah ona rəhmət etsin) ( ö.t. 261) "Sahih Muslim" əsəri.

[5] " Şeyx Məhəmməd ibn Saleh Əl Useyminin (Allah ona rəhmət etsin) (ö.t.1421). "Şərhu al Mumti' ələ Zəədi Al Mustaqni" əsəri

[6]. Şeyx Məhəmməd ibn Saleh Əl Useyminin (Allah ona rəhmət etsin) (ö.t.1421). "Qavlil-Mufid ələ Zəədi kitəbut-Təvhid" əsəri